www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23-24 avqust 2014-cü il Şənbə № 211 (5920) Qiymətı 40 qəpik

Xəbər

## Şəhidlər Xiyabanında vandalizm

yazısı səh.2-də

Gündəm

### Əbülfəz Elçibəy məzarı başında anıldı



İsa Qəmbər: "Qələbəyə yaxınıq; ona çatmağın sadə yolu var - mübarizəni davam etdirməliyik"

yazısı səh.3-də

### Gürcüstan DİN-dən "Yeni Müsavat"a 3 ton heroin açıqlaması

yazısı səh.5-də

### İqtidar mediası ABŞ-dan necə qisas alır...

yazısı səh.4-də

### Ərdoğan sentyabrın 3-də Azərbaycana gələcək

yazısı səh.2-də

### Anar Məmmədli və Başir Süleymanlı ev dustaqlığına buraxılmadı

yazısı səh.4-də

### BMT tribunasından Qarabağ çağırışı

yazısı səh.11-də

### Müsavata qarşı kampaniyanı kim təşkil edir?

yazısı səh.6-da

### Azərbaycan 5 erməni ailəsini azərbaycanlı girovlarla dəyişməyi təklif edib

yazısı səh.2-də

### "Qarabağ probleminin açarı təkcə Rusiyada deyil"

yazısı səh.8-də

### Yanukoviçin ətrafı Azərbaycanda uşaqbazlıqla məşğul olmaqda suçlanır

yazısı səh.12-də

### Mehman Əliyevdən Emin Hüseynovla bağlı şok iddia

yazısı səh.3-də

### "Ebola"nın dərmanı tapıldı

yazısı səh.2-də

ABŞ səfirinin Bakı və İrəvana qəfil video-müraciətinin şok səbəbi

# RUSİYA QARABAĞDA BÖYÜK TƏXRİBAT HAZIRLAYIR - təhlil

Vaşinqtonun Ermənistan və Azərbaycana artan müharibə xəbərdarlıqları Putinin Güney Qafqaza yönəlik planlarını pozmağa yönəlib; Ukraynada uduzduğunu anlayan Kreml başçısı regionda Qərb maraqlarını da hədəf alan yeni avantüraya gedə bilər...



yazısı səh.8-də

# Naxçıvanda hüquq müdafiəçisi ölümünə döyüldü

İlqar Nəsibov tanınmaz hala salınıb; ona hücum edənlərdən biri məlum olsa da faktla bağlı cinayət işi açılmayıb; "bununla hakimiyyət hər kəsə göz dağı vermək istəyir"

yazısı səh.5-də



Fəzail Ağamalı

### Deputat icra başçısının Qobustan türməsinə göndərilməsini istədi

yazısı səh.6-da



### Gülər Əhmədovaya şahidlik edən qadın tutuldu

yazısı səh.2-də



### Abbas Abbasovun ermənilərlə qohum olması faktı üzə çıxdı

yazısı səh.12-də

23 avqust 2014

## Azərbaycan 5 erməni ailəsi və erməni meyitini azərbaycanlı girovlarla dəyişməyi təklif edib



**"Azərbaycan Müdafiə Nazirliyi Ermənistan Müdafiə Nazirliyinə Azərbaycandakı 5 nəfərdən ibarət erməni ailəsi və bir ermənin meyitinin erməni girovluğunda olan Şahbaz Quliyev və Dilqəm Əsgərovla, o cümlədən Həsən Həsənovun meyiti ilə dəyişdirilməsini təklif edib". Bu barədə baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov söyləyib. Onun sözlərinə görə, məsələ daim Azərbaycan hökumətinin diqqətindədir.**

"Beynəlxalq Qızıl Xaç Komitəsi dünən bizə izah edirdi ki, onlar meyiti ancaq dəyişə bilərlər və girovları vermək istəmirlər. Biz isə bildirdik ki, biz kompleks şəklində dəyişdirmək istəyirik".

Baş nazirin müavini onu da əlavə edib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşündə quruma mövqeyi ilə bağlı sərt etirazını da bildirib.

"Siz nə vaxt Azərbaycan hökumətinə müraciət edirsiniz, hansı əsir barədə hansı məlumat almaq istəyirsinizsə, biz dərhal onu təmin edirik. Ancaq Ermənistan tərəfi bu müraciətləri təmin etmir. Nə üçün Beynəlxalq Qızıl Xaç Komitəsinin baş qərargahı bu barədə dünya ictimaiyyətini məlumatlandırmır?"

O, qeyd edib ki, Azərbaycanın təklifi hələ də qüvvədədir və qarşı tərəfdən cavab gözləyir.

## 2 nəfər "Ebola" virusundan tam müalicə olundu - dərman tapıldı!



**ABŞ "Ebola" virusuna yoluxmuş 2 nəfəri müalicə edə bildi. Liberiada bu virusa yoluxanları müalicə edərkən özləri də yoluxmuş həkim və tibb bacısı Corciya ştatındakı xəstəxanadan evə buraxılıb.**

Bu barədə xəbər yayan "Associated Press" bildirir ki, müalicəni həyata keçirmiş həkimlər deyiblər ki, xəstələr bu təhlükəli virusdan tamamilə sağalıblar.

Tibb bacısı Nensi Raytbol və cərrah Kevin Brentli "Ebola" virusuna yoluxduqdan sonra xüsusi təyyarə ilə Amerikaya gətirildilər. Onlar intensiv müalicə kursu keçdilər. Atlanta Universitetinin Emoriysk xəstəxanasında müalicə uğurla başa çatıb.

Müalicə zamanı həkimlər sınaqdan keçməkdə olan "ZMapp" dərmanından istifadə ediblər. Bu dərman Kaliforniya ştatının dərman perapаratları hazırlayan şirkəti tərəfindən istehsal olunub.

Hazırda keçmiş xəstələrin sağlamlıq durumu yaxşıdır. Onların kimi isə yoluxdurmaq təhlükəsi də aradan qalxıb.

Beynəlxalq Səhiyyə Təşkilatının son məlumatına görə, "Ebola" virusunun partlayış şəkilli epidemiyası Afrikanın qərbində 2.500 adamın yoluxmasına səbəb olub. Onlardan ən azı 1.300 nəfəri bu virusdan ölüb.

**Elbəyi HƏSƏNLİ, Sürix**

## Gülər Əhmədovaya şahidlik edən tutuldu

**Məhkəmə testdən kənar ali məktəbə tələbə qəbul etdirən akademiyanın sabiq əməkdaşlarına cəza verdi Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirli bilinən Azərbaycan Milli Elmlər Akademyasının sabiq əməkdaşı, professor Eldar Əmirov və Ludmiliya Məmmədovanın cinayət işi üzrə məhkəmə başa çatıb. Teleqraf.com xəbər verir ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) maddəsi ilə ittiham ediliblər. Onlar abituriyentləri ali məktəbə qəbul etdirməkdə, Dağıstanda olan universitetlərə qəbul etdirmək və sonra Azərbaycana köçürmək adı ilə aldadıblar.**

Bununla da onlar 100-ə yaxın vətəndaşın etibarından sui-istifadə edərək dələduzluq əməli törədiblər. Hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub. Məhkəmənin hökmü ilə Eldar Əmirov 4 il, Ludmiliya Məmmədova 8 il müddətinə azadlıqdan məhrum edilib. Zamində olan Ludmiliya Məmmədova məhkəmə zalından həbs edilib. Qeyd edək ki, Ludmiliya Məmmədova sabiq deputat Gülər Əhmədovanın cinayət işində şahid qismində iştirak edib. Ludmiliya Məmmədova mərhum Sevinc Babayevanın rəfiqəsi olub.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişiklik etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərində abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Həbsdəkilərdən xəbər var

### Bir neçə məhbusun apelyasiya şikayətinə baxılacaq; Yunuslara yemək və dərmanlar aparmaq üçün yaxınlarına icazə verilib

**Sentyabrın 3-də Müsavat başqanının müavini Tofiq Yaqublunun apelyasiya şikayəti ilə bağlı növbəti proses keçiriləcək. Bu barədə musavat.com-a açıqlamasında başqan müavininin qızı Nigar Yaqublu məlumat verib: "Atamın saxlandığı yer çox istidir. Sərinkeşin olmaması əlavə problemlər yaradır".**

**Müsavat başqanının müşaviri Yadigar Sadıqovun** saxlandığı 14 saylı Cəzaçəkmə Müəssisəsindəki şərait bərbad vəziyyətdədir. Bununla belə başqan müşavirinin saxlanma şəraitindən şikayəti yoxdur. **Onun Hüquqlarının Müdafiə Komitəsinin sədri Elman Fəttah** deyib ki, yeganə problem mətbuatla bağlıdır. Belə ki, "Yeni Müsavat" və "Azadlıq" qəzetləri Yadigar bəyə verilmir.

**Hüquq müdafiəçisi İntiqam Əliyevin qızı Nərmin Kamil** atasının heç nədən şikayətinin olmadığını, yaxın günlərdə telefon vasitəsilə əlaqə saxlayacağını söylədi.

**"Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun** apelyasiya şikayətinə avqustun 26-da baxılacaq. **Vəkil Elmar Süleymanov** məhkəmənin qanunsuzluqlarından danışdı: "Şikayətin mahiyyəti Nəsimi Rayon Məhkəməsinin həbs müddətini 4 ay uzatması ilə bağlıdır. Biz hakim Babək Pənahovun qanunsuzluqlarını protokola qeyd etmişdik.



Arif Yunus



Leyla Yunus

O qeydlər qəbul edilməmişdi. İndi məhkəməyə hazırlaşırıq".

**Gənc fəal Orxan Əyyubzadənin** səhhətində ciddi problemlər yaranıb. **Vəkil Əsabəli Mustafayev deyib:** "Bədəninin müxtəlif hissələrində ağrılar var. Orxan bununla bağlı rəhbərliyə müraciət etsə də, məhəl qoyan yoxdur. Bədənində əmələ gələn ləkələri mənə göstərdi. Kor bağırsaq tərəfdən kəskin ağrılar var".

**Müsavatçı gənclər - Fərəc Kərimli və qardaşı Sirac Kərimli** telefon vasitəsilə yaxınları ilə əlaqə saxlayıblar. Bu barədə musavat.com-a **qardaşların atası Rafiq Kərimli** məlumat verib: "Saxlanma şəraitlərindən narazılıqları yoxdur. Sadəcə, kameranın isti olmasından şikayətlənirlər".

**NİDA vətəndaş hərəkatının idarə heyətinin üzvü Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova** elə bir ciddi problemlərin olmadığını bildirdi.

**VHP üzvü, gənc blogger Ömər Məmmədovun vəkili Əlayif Həsənov** sentyabrın 3-də gənc fəalın Apelyasiya Məhkəməsinin olacağını söylədi.

**Vəkil eyni zamanda hüquq müdafiəçiləri Leyla Yunus və İntiqam Əliyevin də hüquqlarını müdafiə etdiyini bildirdi:** "Dünən bir məlumat aldım ki, Arif və Leyla Yunusa yemək aparılmasına icazə verilib".

**L.Yunusun vəkili Cavad Cavadov** da son durumla bağlı ciddi bir yenilik olmadığını və əvvəlki problemlərin qaldığını diqqətimizə çatdırdı.

**Cavanşir ABBASLI**



## Şəhidlər Xiyabanında vandalizm

**Avqustun 21-dən 22-nə keçən gecə Bakıda Şəhidlər Xiyabanında qəbirlər üzərində təhqiredici hərəkətlərin edilməsi faktı ilə bağlı Bakı şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 245-ci maddəsi (qəbir üzərində təhqiredici hərəkət) ilə cinayət işi başlanıb. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətinin məlumatında deyilir.**

Cinayət işi üzrə istintaqın aparılması Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq idarəsində tapşırılıb.

Hadisəni törədən şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Naməlum şəxslər Şəhidlər Xiyabanında İlham və Fərizə Allahverdiyevlərin qəbirləri üzərində təhqiredici hərəkətlərə yol verib. İlham Allahverdiyev 1990-cı il 20 Yanvar hadisələri zamanı keçmiş SSRİ ordusu tərəfindən qətlə yetirilib. Həyat yoldaşının ayrılığına dözməyən Fərizə Allahverdiyeva isə həyat yoldaşının ölümünə və Rusiya işğalına etiraz olaraq elə həmin gün intihar edib.

## Amerika generalları İŞİD haqqında heyranlıqla danışır

**ABŞ-ın müdafiə katibi Çak Heygel teleçıxışı zamanı İraq və Şam İslam Dövləti (İŞİD) ilə bağlı bir sıra məsələlərə münasibətini açıqlayıb. Qərb mediasında total şəkildə işıqlandırılan bu mövzu ilə bağlı müzakirələr zamanı o bildirib ki, İŞİD Amerika üçün uzunmüddətli təhlükə mənbəyi olaraq qalacaq.**

Digər rəsmi şəxslər də o fikirdədir ki, İŞİD Amerikanın son illərdə üzləşdiyi ən təhlükəli terror təşkilatıdır.

Müdafiə naziri bildirib ki, Amerikanın İraqda həyata keçirdiyi hava hücumları İŞİD-in işğalı genişləndirmək planını altüst etsə də onlar vəziyyətə uyğunlaşmaq üçün yenidən qruplaşa bilərlər.

**ABŞ-ın nüfuzlu generallarından olan Martin Dempsey** vurğulayıb ki, Suriyadakı mərkəzi bazaları məhv edilmədən İŞİD-i məğlub etmək mümkün deyil.

Bu kimi müzakirələrin İŞİD-in qətlə yetirdiyi **Amerikalı jurnalist Cim Foulinin** dramatic qətlindən sonra daha da gücləndiyini qeyd edən "BBC" vurğulayır ki, bu məsələ ilə bağlı cinayət işi açılıb və **ABŞ-ın baş prokuroru Erik Holder** bildirib ki, ölkənin "uzun zaman çəkəcək yaddaşı var". O bildirib ki, başımızın üstünü alan bu nəhəng təhlükə sıradan bir terrorçu qrupdan qaynaqlanmır. İŞİD ideoloji baxımdan güclüdür, onlar strateji və taktiki baxımdan təcrübəli hərbi gücə malikdirlər, onlar möhkəm əsaslar üzərində yüksəliblər, bütün bunlar bizim indiyə kimi gördüklərimizin üfüqlərindən kənardadır.

Bu mövzuya münasibət bildirən **ABŞ-ın birləşmiş hərbi bölümlərinin rəhbəri Cen Dempsey** də İŞİD-ı kifayət qədər güclü təşkilat kimi xarakterizə edib və bildirib ki, bu təşkilat mütləq məhv edilməlidir.

"BBC"-nin Vaşinqton müxbiri bildirir ki, generalların bəyanatlarında səslənən kəskin fikirlərə baxmayaraq yaxın vaxtlarda ABŞ-ın İraqda həyata keçirdiyi hərbi əməliyyatları genişləndirəcəyi ilə bağlı prezident Obamanın yeni göstəriş verəcəyi ehtimal olunmur.

Bu arada isə Pentaqon bildirib ki, ABŞ indiyə qədər İraqda 90 hava hücumu həyata keçirib. Onlardan 57-si Mosuldakı su bəndinin yaxınlığına təsadüf edib. Nəticədə İraq hərbi gücləri ilə peşmərgələr su bəndini yenidən nəzarətə götürüblər.

**İŞİD-ın törətdiyi son yürüşlər nəticəsində təkcə İraqda 1.2 milyon insan qaçqın vəziyyətinə düşüb.**

**Elbəyi HƏSƏNLİ, Sürix**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



## Ərdoğan sentyabrın 3-də Azərbaycana gələcək

### O, prezident kimi ilk səfərini isə sentyabrın 1-də Şimali Kipr Türk Cümhuriyyətinə edəcək

**Türkiyənin yeni seçilmiş 12-ci prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 3-də Azərbaycana gələcək. Lent.az-ın xəbərinə görə, "Anadolu" agentliyinə bu barədə hökumətdəki mənbələrdən xəbər verilib.**

R.T.Ərdoğan prezident kimi ilk səfərini sentyabrın 1-də Şimali Kipr Türk Cümhuriyyətinə edəcək və bu səfərin ardından Azərbaycana gələcək.

## Birləşmiş Hüquq Müdafiə Mərkəzi toplaşdı

**Avqustun 22-də Siyasi partiyaların Birləşmiş Hüquq Müdafiə Mərkəzinin növbəti toplantısı keçirilib. Toplantıda KXCP, Musavat, Azadlıq, VAMBP, ADP, Umid, İslam, Azad Demokrat, VİP, AXP, DSP, DİB, AXP və digər partiyalarla yanaşı vətəndaş cəmiyyətinin bir sıra nümayəndələri iştirak edib.**

Toplantıda mövcud durum və Mərkəzin qarşısında duran vəzifələr müzakirə edilib.

Qərara alınıb ki, ölkə rəhbərliyinə və beynəlxalq təşkilatlara vahid məhbus siyahısında olan şəxslər arasında həyati təhlükəyə malik xəstəlikləri olan şəxslərin ixtisaslı tibbi ekspertizası üçün beynəlxalq komissiya yaradılması, həmin şəxslər haqqında həbs qətimkan tədbiri dəyişdirilməsi və həmin şəxslərin müalicəsi (o cümlədən xarici ölkələrdə) üçün tədbirlər görülməsi üçün müraciətlər edilsin.

Toplantı iştirakçıları Naxçıvanda hüquq müdafiəçisi və jurnalistlərə qarşı təzyiqləri, o cümlədən İlqar Nəsibov vəhşicəsinə döyülməsini pisləyib, bu aktı hakimiyyətin siyasi repressiyalarının tərkib hissəsi kimi qiymətləndirib, təqiblərə son qoyulmasını və təqsirkarların cəzalandırılması tələb edib.

Toplantı üzvləri Birləşmiş Hüquq Müdafiə Mərkəzinin demokratiya və insan hüquqları istiqamətləri üzrə komissiyaların yaradılması barədə razılıq əldə ediblər.

**Qərara alınıb ki, Mərkəzin məqsəd, hədəf və formatının müəyyənləşdirilməsi üçün Xartiya hazırlanıb, müzakirə və qəbul edilsin.**



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Müsavat Partiyası və KXCP eks-prezident, Milli Azadlıq Hərəkatının lideri Əbülfəz Elçibəyin vəfat etməsinin 14-cü ildönümü ilə bağlı onun məzarını ziyarət ediblər. Ziyarətə hər iki partiyanın funksioner və fəalları qatılıb. Əbülfəz Elçibəyin ruhuna fatihə oxunub, məzarı önünə partiyalar adından əklil və gül dəstələri qoyulub.**



# "Yönümüz, üzümüz Elçibəyə..." - Əbülfəz Elçibəy məzarı başında anıldı

## İsa Qəmbər: "Qələbəyə yaxınıq; ona çatmağın sadə yolu var - mübarizəni davam etdirməliyik"

Ziyarət zamanı "Rəsulzadə-Elçibəy", "Ən böyük Elçibəy, başqa böyük yox" və bu kimi şüarlar səsləndirilib. Tədbir Azərbaycanın dövlət himninin oxunması ilə başlayıb.

İlk olaraq, çıxış edən KXCP sədri Mirmahmud Mirəlioğlu 22 avqust tarixini ən kədərli günlərdən biri adlandırıb: "Bu gün ən ağır günlərimizdən biridir. Əbülfəz Elçibəyin dünyasını dəyişməsindən 14 il ötür. Həmin tarixdən başlayaraq, bu ərazi məbədə çevrilib. Bu müddət ərzində bizim çoxlu ziyarətlərimiz olub. Vətəni sevənlərin ən böyük arzusu odur ki, bir gün bu məzarı ziyarət edərək, Əbülfəz bəyin ruhu qarşısında hesabat versinlər. Zəfər bayramının, torpaqlarımızın işğaldan azad olunmasının, demokratiyanın Azərbaycanda bərqərar olmasının hesabatını verək. Hələ ki bu hesabatları vermədiyimizə görə, işlərimiz yarımçıqdır. Bəyin ruhu şad olsun. Biz yalnız sözlərlə bəyin ruhunu şad edə bilmərik. Eyni zamanda əməllərimizlə şad etməliyik. Bu yerdə daim sözlərimizi rahat deyə bilirik. Ola bilsin ki, rahat olmayanlar da var. Onlar da, inşallah, rahat olarlar. Sevindirici haldır ki, xəbərimiz olmadan eyni zamanda ziyarətə gəldik. Yüksək enerji alırıq. Gözəl təəssüratlarla bu yerdən ayrılacağıq. Bir daha ruhun şad olsun bəy!".

Daha sonra çıxış edən **Müsavat başqanı İsa Qəmbər** Əbülfəz Elçibəyin vəfatından keçən 14 il ərzində daim onun məzarını ziyarət etdiklərini tədbir iştirakçılarının diqqətinə



çatdırıb: "14 ildir ki, bu yerə gələrək, üzümüz Elçibəyə dayanırıq. Bəyə yönəlik danışırıq. Bəzən bizimlə gələn dostlarımız səsimizi yaxşı eşitmir. Ona görə istərdik ki, buradakı media nümayəndələri standart cümlələrlə kifayətlənməsinlər. Burada deyilən sözləri cəmiyyətə çatdırmaq lazımdır. Çünki deyilən sözlər hesabat xarakterli sözlərdir. Elçibəyin ruhu qarşısında deyilənlər ölkədəki vəziyyət, xalqın həyatı, gələcək barədə fikirlərdir. Daim arzumuz olub ki, burada qələbə hesabatı verək: "Torpaqlarımız işğaldan azad oldu, ölkəmizdə haqq-ədalət bərqərar oldu", - kimi fikirlər səsləndirək. Hələlik bunu deyə bilmədiyimizə görə, üzülürük. Amma ciddi təsəllimiz var. Biz bu hədəflər uğrunda mübarizəni davam etdiririk. Rəsulzadə-Elçibəy yolundayıq. Bu yol ilə getməyin özü qürur mənbəyidir".

**Müsavat başqanı Əbülfəz Elçibəyi böyük hədəfləri tərtib edən bir şəxsiyyət adlandırdı:** "Elçibəyin ən böyük xoşbəxtliyi hədəflərə çatmasında deyildi, o, hədəfləri müəyyənləşdirməsində idi. Biz də fəxr edirik ki, bu yolu gedirik. Hazırda Azərbaycan çox gərgin dönəmini yaşayır. Ölkədə kütləvi həbslər həyata keçirilir. Əsgərlərimiz şəhid olur. Məhbuslarımızın sayı günbəgün artır. Belə hallar əsasən, 1993-2003-cü illərdə baş verirdi. Ölkədə situasiyanın gərginləşməsi ondan xəbər verir ki, bu məsələlərin həlli yaxınlaşır. Çünki hər hansı bir məsələnin həlli onun gərginləşməsindən sonra baş verir. Ölkəmizdə azadlıq uğrunda mübarizənin ən yüksək mərhələsindəyik. Əminəm ki, qələbəyə yaxınıq. Buna nail olmağın sadə bir yolu var. Mübarizəni davam etdirməliyik. Mən bu yolla gedənlərə qələbə arzulayıram. Tanrıdan bəyin ruhunun şad olmasını diləyirəm. İnanıram ki, bəyin ruhunun saflığı, bu yolu gedənlərin mübarizəsi nəticəsində biz onun ruhunu şad edəcəyik. Tanrı bu yolda bizə güc versin".

**Ziyarət Azərbaycanın dövlət himninin oxunması ilə yekunlaşıb.**

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Mehman Əliyevdən Emin Hüseynovla bağlı şok iddia

## "Nə hakimiyyət onu ciddi şəkildə axtarır, nə də beynəlxalq təşkilatlar hay-haray salır ki, bu insan haradadır"

**Emin Hüseynov haradadır? Bu sual on gündən artıqdır ki, mətbuatın gündəmindən düşmür. Hüquq müdafiəçilərinə və demokratik təsisatlara qarşı həbs dalğası başlayandan bu günə kimi mediada həbs olunanlardan daha çox Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun rəhbəri Emin Hüseynovun və qardaşı Mehman Hüseynovun adı hallanır.**

"Yeni Müsavat" qəzeti olaraq, biz də mövzunu izləməkdə davam edirik. Bu günlərdə RATİ-nin rəhbəri ilə bağlı ən şok iddiaları isə **"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** səsləndirib. Onun sözlərinə görə, nə dövlətin, nə də beynəlxalq təşkilatların E.Hüseynovu axtarmamasının səbəbi hər ikisinin onun harada olması haqqında məlumatlı olmasıdır: "Məndə Emin Hüseynovla bağlı hər hansı məlumat yoxdur. Ancaq hadisədə ilk gündən maraqlı bir şey müşahidə edirəm. Nə hakimiyyət Emin Hüseynovu ciddi şəkildə axtarır, nə də beynəlxalq təşkilatlar hay-haray salır ki, bu insan haradadır.

Sanki hökumətlə Azərbaycanda demokratiyaya dəstək olmaq istəyən beynəlxalq təşkilatlar, xarici dövlətlərin səfirlikləri arasında bir sövdələşmə var.

Məsələn, mən xatırlatmaq istəyirəm Leyla Yunusun aprel ayında ölkədən çıxması ilə



Mehman Əliyev

bağlı bir razılıq olmuşdu ki, o, sakit bir şəkildə ölkədən çıxacaq və bununla bağlı Azərbaycan tərəfi üçün heç bir problem yaşanmayacaq. Sonradan qəfildən qərar dəyişdi, onu saxladılar və indi də biz şahidi olduğumuz proseslər baş verir.

Mən hiss edirəm ki, burada da hər hansı sövdələşmə var. Çünki hökumət onu deməkolar ki, axtarmır. Nə beynəlxalq təşkilatlardan, nə də hökumətdən kimsə məndən soruşmayıb ki, o haradadır və ya onun haqqında nə bilirsən.

Axtarmırlarsa, deməli, onlar Eminin harada olduğunu bilirlər. Mən bilmirəm o indi ölkədədir, yoxsa xaricdədir. Ancaq onun harada olması haqqında məlumat demək olar ki, hər iki tərəfdə var. Bu günə qədər onun yerinin açıqlanmaması isə o deməkdir ki, hökumətlə beynəlxalq qurumlar arasında razılaşma tam müəyyənləşməyib. Ancaq hiss olunur ki, hansısa proses gedir. Buna görə də tərəflər hələ ki, heyəcan siqnalı verməyiblər".

**Bu arada Mehman Hüseynovla əlaqə saxladığını deyənlərin sayı artır. Yayılan məlumatlara görə, o, yaxın günlərdə ortaya çıxacaq.**

❑ **Nərgiz LİFTİYEVA**

# Cırtdanlar ölkəsində yaşayan nəhəng



**Azər RƏŞİDOĞLU**

**Əbülfəz Elçibəyin vəfatından 14 il keçdi. Bu 14 ildə Azərbaycanın ilk dissidentinin və demokratik yolla seçilmiş ilk prezidentinin yeri daha çox görünməyə başladı.**

Ə.Elçibəy sağ olsaydı, indi vəziyyət tam fərqli ola bilərdi. Xalq hərəkatının lideri siyasətçidən daha çox bir passionar idi və odur ki, onun ideyaları ətrafında insanlar asanlıqla birləşə bilirdilər. Ə.Elçibəy cırtdanlar ölkəsində yaşayan nəhəngə bənzəyirdi. Ətrafında və qarşısında olan cılızların çamur atmasına fikir belə vermirdi.

Yumşaqlığı, səhvləri ilə yanaşı proses yarada biləcək, milyonlarla insan üçün simvola çevriləcək, utopik görünsə belə böyük ideyalarla çıxış edən, Allah, millət, yurd sevgisini özündə yaşadan Ə. Elçibəy bu gün sağ olsaydı Azərbaycanı tanıya bilməyəcəkdik.

Bu gün Azərbaycanda heç bir siyasətçi, heç bir lider Ə.Elçibəy qədər sevilmir. Elçibəy əxlaqlı siyasətin simvolu idi. Millət üçün bir mübarizə bayrağı idi. Cılız intriqalardan uzaq idi. Hətta düşmənlərini də sevirdi.

Tənqidə dözümlü idi. Onu tənqid etmək olardı, özü bunu normal qarşılayırdı. Ətrafda olan çirkinliyə bulaşmamaq çox az siyasətçiyə nəsib olmuşdu. Bu baxımdan, Ə.Elçibəy gerçək sevgiyə layiq idi.

Ə.Elçibəyin başqalarından başlıca fərqi həm də o idi ki, o, düşmənlərini dosta çevirə bilirdi. İndi isə bəziləri hər vəchlə dostu düşmən edirlər və bundan zövq alırlar.

Siyasətçidən daha çox bur mürşüdə bənzəyən Ə.Elçibəy eyni zamanda inqilabçı bir lider idi.

Ən yaxın tarixin təhlili göstərir ki, əgər 1992-ci ilin mayında Elçibəyin inqilabçılığı olmasaydı, kommunist rejimi yıxmaq da mümkün olmayacaqdı. Bu gün məhz belə bir liderə ehtiyac var. Başdan-ayağa sevgi ilə dolu olan, xarizması qarşısında düşmənlərini diz çökdürən milli azadlıq hərəkatının lideri Ə.Elçibəyi təkrarlayacaq bir lider uğur əldə edə bilərdi.

Söhbət heç siyasi hakimiyyətdən də getmir. Azərbaycanda hazırda Elçibəy kimi bir şəxsiyyət olsa idi, prezidentin kimin olacağının da əhəmiyyəti olmayacaqdı.

Əgər Əbülfəz Elçibəy sağ olsaydı, indi hər şey başqa cür olardı.

Bu gün ölkədə az qala hamı bir - birinə nifrət edir. Ölkədə sosial etirazlar səngimək bilmir. Bu isə inqilabçı bir liderə ehtiyacı yaradır. Qətiyyətli, vaxtında qərar verə biləcək, şərti desək, boynuna kəfən geyinən bir lider bu narazılıqları idarə edə bilərdi. Xalqa demokratiya və beynəlxalq hüquqdan dərs keçən kabinet liderləri deyil, inqilabi ideoloq və onu həyata keçirəcək bir siyasi xadim lazımdır. Daxili çəkişmələrdən uzaq olan, sosial şəbəkələrdəki virtual mübarizədən kənarda duran, konkret hədəfləri olan inqilabçı lider bu mərhələdə xalqın dəstək verəcəyi bir simaya çevrilə bilərdi.

Milli birliyə nail ola biləcək lider özündə inqilabçılıq ideyalarını da yaşada bilərdi.

Ə.Elçibəy qeyri-adi şəxsiyyət idi. Onun hərəkətləri də qeyri-adi idi. Danışığındakı sadəliyə baxmayaraq, hər cümləsində gizli kodlar mövcud idi. Bəzən onun təsəvvüf terminlərindən istifadə etməsi, özünü bir sufi, dərviş kimi aparması adi bir jest kimi qəbul edilirdi. Bilənlər bilirdilər ki, Ə.Elçibəy haradan danışır və nə qədər danışır.

O, eyni zamanda şanslı bir siyasətçi idi. Ölkənin ilk demokratik prezident olmaq nəsibi ona qismət olmuşdu.

Bu gün Ə.Elçibəyi tənqid edənlər də vurğulayırlar ki, rus qoşunlarını Azərbaycandan qansız çıxarda bilmək çevik ağıl tələb edirdi. Ə.Elçibəy bunu edə bildi.

Bu gün az qala hamı ali məktəblərə qəbul zamanı test üsulunu tətbiq edə bildiyinə görə Ə.Elçibəyə rəhmət oxuyur. Minlərlə kasıb ailənin övladı nüfuzlu ali məktəblərə rüşvətsiz qəbul ola bilirsə, buna görə Ə.Elçibəyə təşəkkür etmək lazım gəlir.

**Ə.Elçibəyi tənqid etmək, gözdən salmaq olar. Lakin heç kəs onun əsas uğurunu aradan qaldıra bilməyəcək. Bir daha bu ölkənin torpaqlarını rus əsgərləri murdarlamayacaqlar. Buna görə isə yenə də Ə.Elçibəyə minnətdar olmalıyıq...**

YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014



# Oğul atasının siyasi varisi olmaq istəmirsə...

Xalid KAZIMLI

**Mərhum eks-prezident Elçibəyin oğlu Ərturqutun iş məsələsi hərbi xidmətdən qayıtdığından bəri vaxtaşırı gündəmə gəlir. Eks-prezidentin, özü də milli-azadlıq hərəkatına rəhbərlik etmiş, ölkənin dövlət müstəqilliyini bərpa etməsində müstəsna rol oynamış bir şəxsiyyətin oğluna iş verilməməsi üzündən mövcud hakimiyyəti yamanlama halları da baş verirdi.**

Budur, xəbər var ki, Ərturqut FHN-in bazasında 3 aylıq kurs keçir, sonra bir işlə təmin olunacaq.

Birincisi, öz ölkəsində bir iş tapıb işləmək onun haqqıdır - bütün ali təhsilli, karyera qurmaq istəyən gənclər kimi.

İkincisi, FHN-in adı gözə böyük görünə bilər, amma Ərturqutu üç aydan sonra orada nazir müavini vəzifəsinə qoymayacaqlar, nazirliyin idarələrindən birindəki hansısa şöbədə sıravi bir iş verəcəklər.

İndi qınaq, məzəmmət hədəfi dəyişib. Dünənə qədər hakimiyyəti Ərturquta iş verməməyə görə qınayırdılarsa, bu gün Ərturqutun özünü hakimiyyətin iş təklifini qəbul etməsinə görə qınaq hədəfi etmək təşəbbüsləri var.

Söz yox, o adi, sıradan bir adamın oğlu deyil, milli-hərəkatın liderinin, simvolunun oğludur və atdığı hər addımda, danışdığı hər kəlmədə boynuna biçilmiş obraza xələl gəlməməsinə çalışmalıdır.

Amma o, gəncdir, azaddır və öz yolunu, siyasi mövqeyini müəyyənləşdirməkdə, öz həyatını özü bildiyi kimi yaşamaq istəməkdə sərbəstdir.

Əbülfəz Elçibəy aldığı təhsilə, savada, tərbiyəyə görə, yaşadığı mühitin, dövranın, zəmanənin gərdişi ilə demokrat türk millətçisi, dissident, böyük humanist və siyasət adamı kimi yetişmişdisə, oğlu şəxsiyyət kimi formalaşarkən birəbir onun izi ilə addımlaması mümkün deyil.

Onun öz dünyagörüşü, öz maraq və dostlar dairəsi var və əgər bu gənc özündə siyasətlə məşğul olmaq üçün yetərli əzm, iradə, həvəs görmürsə, atasının siyasi irsinə sahib çıxması mümkün, hətta düzgün də deyil.

Ərturqut Elçibəyin bioloji varisidir. Bioloji varis olmaq hələ o demək deyil ki, o, üzərinə siyasi varislik statusu da götürməlidir və atasının yarımçıq qalmış siyasi yolunu davam etdirməli, onun vaxtilə rəhbərlik etmiş olduğu siyasi təşkilatı dirçəltməyə, siyasi arenaya atılmağa cəhd etməlidir.

Çoxlu başqa nümunələr də gətirmək olar. Məsələn, gözəl səsi olan məşhur bir müğənninin övladının səsi yoxdursa, o, istəsə də atasının sənət yolunu davam etdirə bilməz. Eyni şey rənglər dünyasında yaşayan rəssama da aiddir - oğlu rənglərlə işləməyi sevmirsə, necə olacaq. Məşhur yazıçının oğlu nəinki kitab yazmağı, hətta kitab oxumağı sevmirsə, ondan "atasının yolunu davam etdirməsi"ni necə ummaq olar?

Nəyə görəsə siyasət hər kəsə çox asan bir peşə kimi görünür. Çoxları elə bilir ki, hər kəs siyasətlə məşğul ola, ortaya iradə, ambisiya qoya bilər.

Ancaq elə deyil. Siyasətçi olmaq üçün insandan daha çox keyfiyyət tələb olunur - analitik beyin, güclü iradə, kütləni ələ almaq, inandırmaq bacarığı, geniş mütaliə, dərin və hərtərəfli savad, fenomenal yaddaş və hövsələ, özünü bir çox dünyəvi həzz və nemətlərdən məhrum etmək fədakarlığı, məhrumiyyətlərə, o cümlədən həbsə, təhqirə məruz qalmaq perspektivinə hazırlıq və sair və ilaxır.

Bütün bu keyfiyyətlərin cəmləşdiyi adamlar lider olurlar. Ancaq bizimki kimi ölkədə bu keyfiyyətlərə fitrətən sahib olaraq, yaxud onları özündə kultivasiya edərək becərdikdən sonra lider olmaq hələ insana xoşbəxtlik gətirmir, insanın ömrü permanent iztirablar, keşməkeşlər içində keçir. Günümüzdə o cür insanların bir çox nümunələri var.

Ona görə də ölkəmizdə yaranmış situasiyada müxalif siyasi lider olmaq populyar canatma hədəfi deyil. Bu, əksər insanlara cəlbedici görünmür. Çoxları istəyir ki, sadə, ancaq təminatlı həyat sürsünlər, qalmaqalların içində olmasınlar, adları hər gün, hər dəqiqə hallanmasın, kimlərinsə rəğbət və ya nifrət obyektinə çevrilməsinlər.

**Ərturqut da belə bir həyat yaşamasını istəyirsə, atasının siyasi varisi olmaq istəmirsə, buna heç kəs qarışa bilməz. Buraxın, yaşasın. Bəlkə gün gələcək, o da siyasi həyata atılmaq üçün özünü hazır hiss edəcək, kim bilir.**

# İqtidar mediası ABŞ-dan necə qisas alır?

## Bu ölkədəki etirazlar və jurnalistlərin həbsi hakimiyyət mətbuatının anti-təbliğat mövzusuna çevrilib

**Avqustun 9-da ABŞ-ın Ferguson qəsəbəsində polisin Mişel Braun adlı afroamerikan gənci öldürməsi kəskin etirazlara səbəb olub. Bir həftəyə yaxındır ki, etirazçılarla polis arasında iğtişaşlar davam edir. Polis aksiyanı dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib. Xarici KİV-də yayılan məlumatlara görə, polis tərəfindən təzyiqlərə məruz qalan və saxlanılanlar arasında jurnalistlər də var.**

Hətta Türkiyə, Almaniya və Britaniyanın nüfuzlu informasiya agentliklərinin jurnalistlərinin də adı həbs olunanlar sırasındadır.

ABŞ kimi dünyada demokratiyanın siması sayılan bir ölkədə insanların sərbəst toplaşmaq azadlığının və jurnalistlərin informasiya əldə etmək, söz azadlığı kimi təməl hüquqlarının pozulması beynəlxalq təşkilatları da hərəkətə gətirib. "Freedom House" və ATƏT baş verənləri pisləyən bəyanatlar yayıblar.

"Freedom House" təşkilatının prezidenti Devid Kremerin ABŞ-da baş verən hadisələrə dair bəyanatında bildirir ki, dünyanın diqqətinin Fergüsona yönəldiyi bir vaxtda ABŞ-ın fundamental hüquqlara və qanunun aliliyinə davamlı sadiqlik göstərməsi vacibdir.

ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunya Miyatoviç də mətbuata verdiyi açıqlamada ABŞ-da nümayişlər zamanı jurnalistlərin tutulmaları ilə bağlı Amerika r?smil?rini hadisələrin səbəblərini bütün istiqamətləriylə araşdırmağa çağırıb.

Bütün bu baş verənlər Azərbaycan mətbuatında da müzakirələrə səbəb olub. Xüsusən də hər zaman ABŞ-ın söz, mətbuat azadlığı ilə bağlı iradlarını tənqid edən iqtidar mediası bu hadisədən yararlanaraq ABŞ hökumətindən bir növ acıq çıxmağa başlayıb.

**"Yeni Azərbaycan" qəzetinin 22 avqust sayında "ABŞ-da mətbuata qarşı polis zorakılığı" başlıqlı məqalədə deyilir:** "Beləliklə, ümumilikdə Ferguson olayları ABŞ demokratiyasının bir çox zəif tərəflərini üzə çıxardı. Bu o, deməkdir ki, Birləşmiş Ştatlar dünyaya təbliğ etdiyi standartlara özünün çata bilməsi üçün hələ çox çalışmalıdır".



Görünən odur ki, bu olay avtoritar rejimli dövlətlərə bəhanə verəcək ki, özlərini müdafiə edərək, müstəqil mətbuatı və digər demokratik təsisatları susdursunlar.

Bəs, Azərbaycanda müstəqil və demokratik mətbuatın rəhbərləri necə düşünür? ABŞ-da baş verənlər bu ölkənin demokratik imicinə zərbə vuracaqmı?

**"Azadlıq" radiosunun redaktoru, media eksperti Zeynal Məmmədli** deyir ki, baş verənlərə sevinmək yox, nəticə çıxarmaq lazımdır: "Bu baş verənlər bütövlükdə Amerikada deyil, onun xırda bir şəhərində cərəyan edir. Təbii ki, o da ABŞ-ın bir parçasıdır. Görünür burada polisin, bələdiyyənin işində gözdən qaçan məqamlar olub və bunlar yığılıb, sonda bir partlayışa çevrilib. Bu hadisə təkcə Amerikada yox, bütün dünyada demokratiya təcrübəsi, demokratiyanın gündəmi ilə bağlı məsələləri yenidən müzakirə mövzusuna çevirəcək. Amerika böyük ölkədir, bu hadisəni həzm edə biləcək və bundan öz dərsini alacaq".

**Azərbaycanda bu hadisələrə olan münasibətə gəlincə, Z.Məmmədli qeyd etdi ki, belə hadisələrdən hər bir ölkə özü üçün dərs çıxarmalıdır:** "Biz gərək düşünək ki, belə hadisələrin ölkəmizdə baş verməməsi üçün nə edə bilərik. Bu özünüqiymətləndirmə üçün çox vacibdir. Biz kimisə tənqid eləməkdənsə, bu güzgüdə özümüzə baxmalıyıq, içimizdəki problemləri çözməliyik. Bu baxımdan biz istənilən ölkədə baş verən hadisələrdən özümüz üçün nəticə çıxarmalıyıq. Deməməliyik ki, bu filan ölkədə də baş verir, o ölkədə korrupsiya var, bu ölkədə də insan hüquqları pozulur. Biz özümüzdə bunun baş verməməsinə çalışmalıyıq ki, ən azı başqasını suçlamaq üçün bir mənəvi haqqımız olsun".

**Məsələyə münasibət bildirən "Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev qeyd etdi ki, heç bir ölkədə demokratiya aksioma deyil:** "Amerikada baş verən etirazlar müəyyən qruplar tərəfindən idarə olunur və onlar daha sərt mövqe göstərirlər. Güc tətbiq edirlər, insanların evlərini daşa basırlar, avtomobilləri yandırırlar, dükanları soyurlar, qarət edirlər. Dövlətin sərt tədbirlər görməsinin səbəbi budur. Buna baxmayaraq, iğtişaşlar başlayan dövrdən hələ heç kim həlak olmayıb, ciddi tələfat yoxdur. Bu da onu göstərir ki, Amerikada həqiqi demokratiya var. Azərbaycanda isə bu mümkün deyil. Bizdə əsgər ölümlərinə qarşı keçirilən aksiya çox sakit şəkildə keçirilirdi, ancaq onun qarşısını çox sərt şəkildə aldılar, sonra həbslər oldu. Ona görə ümumiyyətlə müqayisə etmək düzgün deyil.

Təbii ki, problemlər də var. Amerikada belə hadisələr dəfələrlə baş verib. Amerika demokratiyası aksioma deyil, orada da problemlər yaşanır. Ancaq orada hüquqları pozulanlar sonradan onu məhkəmələrdə bərpa edirlər, təzminat alırlar. Azərbaycanda varmı belə bir məhkəmə? Son bir ildə Azərbaycanda nə zaman etiraz aksiyası keçirilib?"

❑ Nərgiz LİFTİYEVA

# Anar Məmmədli və Bəşir Süleymanlı ev dustaqlığına buraxılmadı

## Onların məhkəmədə şüşə qəfəslikdə saxlanılmasına etiraz gəldi

**Avqustun 22-də Bakı Apelyasiya Məhkəməsi Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədli, mərkəzin icraçı direktoru Bəşir Süleymanlı və Könüllülərin Beynəlxalq Əməkdaşlığı ictimai birliyinin rəhbəri Elnur Məmmədovun işi üzrə şikayətə baxıb.**



Anar Məmmədli



Bəşir Süleymanlı

Vəkillər Anar Məmmədli və Bəşir Süleymanlının ev dustaqlığına buraxılması, iş üzrə qalan şahidlərin dindirilməsi, ümumiyyətlə işə yenidən baxılması ilə bağlı vəsatətlərlə çıxış ediblər.

Proses zamanı təqsirləndirilən şəxslərin şüşə qəfəsə salınması da narazılıqla qarşılanıb.

**Vəkil Fariz Namazlı** müdafiə etdiyi şəxslərin qəfəsdən çıxarılıb onlarla bir yerdə oturmasını istəyib. Amma hakim Əflatun Qasımov vəsatətlərin heç birini təmin etməyib.

**Anar Məmmədlinin vəkili Elçin Sadıqov** "islamazeri.az" saytına bu gün keçirilən prosesdə müdafiə tərəfin bir neçə vəsatət qaldırdığını bildirib: "Həmin vəsatətlər ondan ibarət idi ki, Anar Məmmədli və Bəşir Süleymanlı müdafiə hüququ baxımından şüşə qəfəslikdən çıxarılaraq bizim yanımızda oturmaları təmin olunsun. Bilirsiniz ki, şüşə qəfəslik altından vəkil kimi onlarla hər hansı bir ünsiyyət saxlamaq imkanımız yoxdur. Həm də şüşə qəfəslikdən onların səsini biz yaxşı eşitmirik, onlar da bizi eşidə bilmirlər. Məhkəmə bu vəsatətimizi heç bir əsas gətirmədən təmin etmədi. Əlavə olaraq, vəsatət qaldırdıq ki, Bəşir Süleymanlı və Anar Məmmədli barəsində seçilmiş həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz olunsun. Bu vəsatətimiz də təmin olunmadı. Əlavə olaraq biz CM-nin 308.2-ci maddəsinin (vəzifə səlahiyyətlərindən sui-istifadə) şərh olunmasına dair Konstitusiya Məhkəməsinə sorğu göndərilməsi barədə vəsatət qaldırdıq. Eyni zamanda zərərçəkənlərin yenidən dindirilməsi barədə də vəsatət qaldırdıq və bildirdik ki, həmin zərərçəkmiş şəxslər birinci instansiya məhkəməsində də bildiriblər ki, onlar heç bir zərər çəkməyiblər. Ona görə də onların hazırkı vəziyyətdə zərərçəkən şəxs kimi saxlanılmaları qanunsuzdur. Əlavə olaraq vəsatət qaldırdıq ki, yoxlama aktına imza atmış şəxslər şahid qismində dindirilsin. Lakin məhkəmə bu vəsatətlərdən heç birini təmin etmədi. Növbəti məhkəmə isə sentyabrın 5-nə saat 11:00-a təyin edildi."

**Növbəti proses sentyabrın 5-ə təyin edilib.**

Anar Məmmədli dekabrın 17-də həbs olunub. Baş Prokurorluq A. Məmmədlinin sədri olduğu təşkilata oktyabrın 29-da cinayət işi açıb. İlkin ittiham qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq idi. Daha sonra Anar Məmmədli vergidən yayınma və vəzifə səlahiyyətlərindən sui-istifadə edərək seçki və referendumun nəticələrini saxtalaşdırmaqda da suçlanıb. Eyni ittiham lKönüllülərin Beynəlxalq Əməkdaşlığı» İctimai Birliyinin rəhbəri Elnur Məmmədova qarşı da sürülüb.

Bakı Ağır Cinayətlər Məhkəməsi Anar Məmmədlini 5 il 6 ay, Bəşir Süleymanlını 3 il 6 ay azadlıqdan məhrum edib. Elnur Məmmədov isə 3 il 6 ay şərti həbs cəzası alıb.

Baş Prokurorluq bildirir ki, cinayət işinin araşdırılmasına Vergilər və Maliyyə nazirliklərindən Baş Prokurorluğa daxil olmuş materiallar əsasında başlanıb.

**Bir sıra beynəlxalq qurumlar isə Anar Məmmədlinin həbsini siyasi sayır, onu dərhal azad etməyə çağırır.**

❑ SEVİNC

YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014

**Avqustun 21-də Naxçıvanda hüquq müdafiəçisi, jurnalist İlqar Nəsibova qarşı tükürpədici cinayət hadisəsi baş verib. Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzinin həmtəsisçisi olan İ.Nəsibovu axşam radələrində Fərid adlı şəxs evdən çağıraraq mərkəzin ofisinə gəlməyini istəyib. Bu zaman Fəridlə birlikdə naməlum şəxslər ofisdə ona hücum çəkərək vəhşicəsinə döyüblər. Ölümcül vəziyyətdə olan İ.Nəsibov dərhal xəstəxanaya yerləşdirilib.**

# Naxçıvanda hüquq müdafiəçisi ölümünə döyüldü

## İlqar Nəsibov tanınmaz hala salınıb; ona hücum edənlərdən biri məlum olsa da faktla bağlı cinayət işi açılmayıb; "bununla hakimiyyət hər kəsə göz dağı vermək istəyir"


İlqar Nəsibov



**Hüquq müdafiəçisi özü ona hücum edənlərdən birini - Fərid adlı şəxsi tanısa da, faktla bağlı cinayət işi başlanmayıb.** Naxçıvan Şəhər Polis İdarəsi isə jurnalistin döyülməsi ilə bağlı təhqiqat aparır. Təhqiqata Naxçıvan Şəhər Polis İdarəsi İstintaq və Təhqiqat bölməsinin rəisi Nemət Cəfərov rəhbərlik edir.

**Hüquq müdafiəçisinin həyat yoldaşı Məlahət Nəsibova AzadlıqRadiosuna deyib ki, onlara dəfələrlə MTN əməkdaşları hədə-qorxu gəliblər:** "İlqarın bədəni və sifəti qan içindədir. Sifəti tamamən tanınmaz haldadır. Həkimlərin ilkin olaraq dediyinə görə İlqarın burun sümüyü, üz nahiyəsində almacıq sümükləri iki tərəfdən sınıb, alın sümüyündə, beyin sümüyündə, sinəsində körpücük sümüyündə çatlar var. Kürək nahiyəsi və ayaqlarında ciddi zədələr var, gözü görmür. Hazırda reanimasiyadadır".

**Hüquq müdafiəçisi qeyd edib ki, müstəntiq onlardan izahat alıb:** "Ofisdə hal şahidləri ilə birgə ekspertiza apardı. Müstəntiqdən soruşdum ki, biz necə, hansı qisimdə cəlb olunmuşuq işə? Mənə bildirildi ki, hələ istintaq gedir. Biz düşünürük ki, baş vermiş hadisə sırf fəaliyyətimizlə bağlıdır. Paytaxtda başlanan kampaniya artıq bölgələrə də keçib. Naxçıvan sınaq meydanıdır. İndi bizim yaşadıqlarımızın ağırını Bakıda yaşayırlar. Hər an hər şey gözləmək olar bu insanlardan".

**M.Nəsibova "Yeni Müsavat"a ətraflı açıqlamasında qeyd etdi ki, yoldaşını iki dəfə tomoqrafiya ediblər:** "İki qaşında üç tikiş, gözünün altında bir tikiş var. Burnu sınıb, almacıq sümüyü, üst çənəsinin yuxarısı sınıb. Boğazının altında körpücük sümüyü sınıb. Həkimlər deyir ki, yataq şəraitində olmalıdır. Pis vəziyyətdədir, ağrıları çoxdur".

Hüquq müdafiəçisinin sözlərinə görə, bu döyülmə faktını görənlərin hər biri dəhşətə gəlir: "Müşahidəçilər bu zorakılığı sıradan birisinin yox, hazırlıqlı şəxsin edə biləcəyini düşünür. Mən özüm Naxçıvan MTN-dən şübhələnirəm. Çünki onlar dəfələrlə bizə ziyan vurublar. Düşünülmüş bir addım idi".

**M.Nəsibova həyat yoldaşını döyənlərdən Fərid adlı şəxs haqda da danışıb:** "Fəridi əvvəldən tanıyır. O, həmişə özünü müxalifətçi kimi göstərib. Görünür, sonradan ələ alıblar. İlqara ilk zərbəni vuran da o olub. Bu haqda izahatında da yazıb. Hazırda ofisdə qan izlərinin ekspertizası aparılır".

Baş verən bu dəhşətli zorakılıq faktı sosial şəbəkələrdə ciddi etiraz doğurub. Facebookda olan ictimai fəallar, müxalif partiyaların üzvləri, jurnalistlər, hüquq müdafiəçiləri həmkarımızın ölümcül həddə döyülməsini pisləyiblər.

Hətta üz-gözü partladılmış, tanınmaz hala salınmış jurnalistə qarşı bu cinayətin İŞİD terrorçularının etdiyi əməllərdən fərqlənmədiyini qeyd ediblər. Əksəriyyət İ.Nəsibovun fotosunu yayımlayarkən "ürəyi zəif olanlar izləməsin" başlığı ilə paylaşıblar. Bu isə son dövrlər Azərbaycanda misli görünməmiş ən tükürpədici cinayətlərdən biridir.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** "Meydan TV"-yə bildirib ki, bu, Salyan rayonunda Emil Məmmədovun, Gəncədə Həsən Hüseynlinin həbsləri, o cümlədən, Bakıda QHT-lərə təzyiqlər aparılan siyasətin tərkib hissəsidir: "Naxçıvanda isə bu proses daha qəddar formada özünü göstərir. İndiyə qədər cinayət işi açılmayıb. Deməli, bu özbaşınalığın arxasında hakimiyyət dayanır. O cür vəhşicəsinə adamı döyüblər və İlqar Nəsibov konkret ad çəkir, ancaq fakt üzrə hələ cinayət işi açılmayıb. Hakimiyyət bu hadisə ilə bunu demək istəyir ki, biz beləyik, kim bizə qarşı danışırsa onu bu aqibət gözləyir.

Hadisə Siyasi Partiyaların Birləşmiş Hüquq Müdafiə Mərkəzində müzakirə olunub. Toplantının leytmotivi ondan ibarət olub ki, insan haqları sahəsində vəziyyət getdikcə ağırlaşır. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Yeni Müsavat"a bildirdi ki, partiyalar bu məsələni qəti şəkildə pisləyiblər.

Jurnalistin döyülməsinin səbəbləri ilə bağlı əldə etdiyimiz məlumata görə, Nəsibovlara uzun müddətdir təzyiqlər davam edirmiş. Bu yaxınlarda İ.Nəsibovu maşınla vurublar, daha sonra yaşadığı mənzilin qapısını açıb içəri keçməyə cəhd olunub.

M.Nəsibovanın adının 100 qəhrəman jurnalist siyahısında olması, Naxçıvan MTN-də ölən Turac Zeynalov işini araşdırması, nəhayət, son günlər QHT-lərə qarşı repressiyaların şiddətlənməsi sonda bu cinayətə gətirib çıxarıb. Bu ailədən Naxçıvanı tərk etmək tələb edilirdi. Çünki bölgədə hüquqları pozulan bütün vətəndaşlar bu mərkəzə müraciət edirdilər.

**İ.Nəsibovun həmtəsisçisi olduğu təşkilat Norveç İnsan Haqları Evinin dəstəyi ilə fəaliyyət göstərir. Mərkəzin rəhbəri Məlahət Nəsibova 2009-cu ildə Norveç Rafto Fondunun mükafatını alıb. AzadlıqRadiosu Norveç səfirliyinin də hadisəyə münasibətini öyrənməyə çalışıb. Səfirlikdən bildiriblər ki, səfir Bakıda olmadığından bu məsələ ilə bağlı rəy verə bilməyəcəklər.**

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **Emil SALAMOĞLU**



# Gürcüstan DİN-dən "Yeni Müsavat"a 3 ton heroin açıqlaması

## Qonşu ölkədə saxlanılan narkotik Moldovaya aparılırmış; Tiflis Azərbaycan, Türkiyə və İranla birgə heroin sindikatının üzvlərini axtarır; Arzu Nağıyev: "Ukrayna və Moldovadan Avropanın narkotik bazarına çıxış var"


Arzu Nağıyev

**Bu il iyulun 12-də Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) tarixinin ən parlaq səhifəsinə imza atdı. Azərbaycandan keçməklə bu ölkəyə daxil olan əfqan mənşəli, 2 ton 790 kiloqram maye halında olan heroin partiyası əməliyyat nəticəsində ələ keçirildi. Bu, Qafqaz ölkələrində ələ keçən ən iri və fantastik qiymətli narkotik partiyasıdır. Qara bazarda Gürcüstanda tutulan heroinin ümumi dəyəri 170-250 milyon dollar arasındadır.**

Gürcüstan DİN-in yaydığı ilkin rəsmi məlumatda işlə bağlı iki Gürcüstan vətəndaşının saxlanıldığı, maye heroinin 93 ədəd 30 litrlik maye çəlləklərdə qablaşdırılaraq daşındığı vurğulanırdı. Bildirilirdi ki, böyük heroin partiyası yük maşında Azərbaycandan keçməklə Gürcüstana daxil olub. Lakin sonrakı günlərdə Gürcüstan DİN-dən rəsmi heroin açıqlamasının ardı gəlmədi.

Bir çox suallar da açıq qaldı. Xüsusən yükün Azərbaycan sərhədlərini necə aşması bu gün də müəmmalı olaraq qalıb. Məlumat verdiyimiz kimi, bu sensasion əməliyyatdan 4 gün sonra Gürcüstan DİN-ə sorğu ilə müraciət ünvanlayaraq aşağıdakı suallara aydınlıq gətirilməsini xahiş etmişdik:

***- Gürcüstan Daxili İşlər Nazirliyi məsələ ilə bağlı Azərbaycan hökumətinə, hüquq-mühafizə orqanlarına müraciət edibmi?***

***- Narkotranziti həyata keçirənlərin vətəndaşlığı məlumdurmu?***

***- Yükün sahibi kimdir?***

***- Yük hansı adla rəsmiləşdirilib?***

***- Azərbaycan ərazisində yükün tranzitlə keçməsini kim təşkil edib?***

***- Narkotrafikin arxasında dayanan şəxs və ya şəxslər müəyyən olunubmu?***

Sorğumuza Gürcüstan DİN-in səlahiyyətlisi Georgi Saxokia rəsmi cavab yazıb. Gürcü dilində yazılan həmin cavabın tərcüməsini təqdim edirik:

"Sorğunuza cavab olaraq bildiririk ki, Gürcüstan Daxili İşlər Nazirliyi Cinayət Departamentinin 2-ci İdarəsində narkotiklərin qanunsuz daşınması faktı üzrə Gürcüstan Cinayət Məcəlləsinin 262-ci(külli miqdarda narkotiklərin qanunsuz daşınması) maddəsi ilə N 00911071404 nömrəli cinayət işinin istintaqı aparılır.

**12 iyul 2014-cü ildə Batum şəhərində, Senaki-Poti-Sarpi yolunun üzərində yerləşən Sərhəd Departamenti zonasında əməliyyat-axtarış tədbiri həyata keçirilib. Nəticədə 3 nəfərdən ibarət mütəşəkkil dəstə üzvləri yaxalanıb. Onlardan xüsusilə külli miqdarda narkotik vasitə götürülüb. Tutulanlardan biri Türkiyə, ikisi isə Gürcüstan vətəndaşıdır.**

Hər üç şəxsə Gürcüstan Cinayət Məcəlləsinin 262-3 "a" 262-4 "a" və "b" , 19 - 262 - 4 "a" və "b" maddələri ilə ittiham elan olunub. Həmin yük Türkiyə, İran və Azərbaycan sərhədlərini keçməklə Gürcüstana daxil olub.

Yük maye sabun adı altında daşınıb. Yükün Moldovaya daşınması nəzərdə tutulub. Ekspertlər cinayət işinə əlavə olunan xüsusilə külli miqdarda olan yükün narkotik - heroin olduğu haqda rəy veriblər.

Hazırda N00911071404 nömrəli cinayət işi üzrə işdə adı keçən dövlətlərin köməyi ilə cinayətin bütün iştirakçılarının müəyyən olunaraq həbsə alınması istiqamətində intensiv araşdırmalar aparılır".

G.Saxokianın imzaladığı rəsmi cavab müdhiş cinayətin bəzi məqamlarına aydınlıq gətirsə də, bir çox suallar bu gün də qaranlıq qalır. Xüsusilə ölkəmizə bu yükün necə daxil olması, iki sərhədimizi necə aşması, ölkəmiz ərazisindəki 500 kilometrlik yolu maneəsiz keçməsini kimlərin təmin etməsi hələlik aydınlaşdırılmayıb.

O da bəlli deyil ki, bu daşımanın arxasında hansı ölkənin narkosindikatı dayanıb. Türkiyədə, İranda və Azərbaycanda yükün daşınması üçün hansı məmurlara nə qədər pul rüşvət olaraq verilib.

**Gürcüstan DİN-in antinarkotik əməliyyatını mübaliğəsiz olaraq son illərin ən parlaq və səs-küylü əməliyyatı adlandırmaq mümkündür.**

Təxmin etmək çətin deyil ki, bu əməliyyat uzun illər Gürcüstanı böyük narkotik marşrutundan kənarda qoyacaq. Məlumdur ki, narkotiklərin daşınmasında şimal və cənub marşrutu var. Gürcüstan da həmin marşrutun keçdiyi ölkələrdəndir. Azərbaycan elə bir məkanda yerləşir ki, narkoqaçaqçılar əfqan mənşəli narkotikləri Avropaya daşımaq üçün istifadə etdikləri marşrutların demək olar ki, hamısı ölkəmiz üzərindən keçir.

Həmin marşrutlar bunlardır: Əfqanıstan-İran - Azərbaycan - Gürcüstan-Avropa. Əfqanıstan-Orta Asiya-Azərbaycan- Gürcüstan-Avropa. Əfqanıstan - İran - Azərbaycan - Rusiya - Avropa. Əfqanıstan - İran - Dağlıq Qarabağ-Ermənistan.

Azərbaycanın da narkomarşrut halqasından çıxarılması hələ ki, mümkünsüz görünür. Bunun bir çox səbəbləri var. Bu səbəblər narkoqaçaqçılıqla mübarizənin effektini əhəmiyyətli dərəcədə azaldır.

Xatırladaq ki, Azərbaycanın hüquq-mühafizə, gömrük və sərhəd xidməti orqanları maye halında olan heroinin sərhəddən necə keçdiyinə hələ də aydınlıq gətirməyib.

**"Trend"in direktor müavini, politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a bildirdi ki, burada böyük şəbəkədən söhbət gedir.

Onun sözlərinə görə, Ukrayna və Moldovadan Avropaya narkotik çıxışı var: **"Bu ola bilsin ki, Avropaya daşınan mal olub. Ancaq Azərbaycanın tərəfini günahlandırmaq olmaz. Bu kiminsə məsuliyyəti deyil. Gürcülərin məlumatı da səthidir. Bu, tranzit mal olub. Həbs edilən gürcü ola bilsin ki, sürücüdür. Çünki sürücü narkotikin harada gizlədildiyini bilir".**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Avropa Yay Olimpiya Oyunları boykot edilə bilərmi?

**Aydın Mirzəzadə:** "Bu, "Avrovision" yarışması öncəsi aparılan kampaniyanın davamıdır"


Aydın Mirzəzadə

**"Azadlıq" qəzeti dünənki sayında "diplomatik mənbələrdən sızan məlumata" istinadən xəbər yayıb ki, beynəlxalq aləm 2015-ci ildə Bakıda keçiriləcək Avropa Yay Olimpiya Oyunları ilə bağlı Azərbaycan hakimiyyəti qarşısında şərt irəli sürə bilər. Məlumatda bildirilir ki, şərt Azərbaycanda repressiv siyasətə son verilməsi və siyasi məhbusların azadlığa buraxılması ilə bağlı olacaq. İddialara görə, əks təqdirdə Avropa Yay Olimpiya Oyunlarının boykot olunması gündəmə gələ bilər. Mənbə bildirib ki, payızda bu məsələ ilə Azərbaycan hakimiyyətinin diqqətinə çatdırılacaq. "Beynəlxalq aləm son həbslərdən çox narahatdır və hakimiyyətdən bu siyasəti dayandırmasını istəyir. Beynəlxalq medianın bu məsələni diqqətdə saxlaması, Avropa strukturlarının hakimiyyətə kəskin etirazları göstərir ki, siyasi məhbus problemi Azərbaycan hakimiyyəti ilə Qərb arasında prinsipial məsələyə çevrilib. Qərb artıq ipə-sapa yatmayan Azərbaycan hakimiyyəti ilə daha sərt tonda danışmağı qərarlaşdırır",- deyə "Azadlıq"ın istinad etdiyi mənbə bildirib.**

Qəzet bunun simptomlarının da artıq özünü biruzə verməkdə olduğunu yazıb: "Təsadüfi deyil ki, Avropa Yay Olimpiya Oyunlarının təşkilatçısı Saymon Kleq demişdi ki, "Amnesty International" təşkilatı Azərbaycandakı siyasi məhbuslarla bağlı ona müraciət edib və tədbiri boykot etməyə çağırıb. Doğrudur, o, bu məsələ barədə heç nə deyə bilməyəcəyini bildirib. Amma fakt ondan ibarətdir ki, artıq beynəlxalq təşkilatlar kampaniyaya başlayıb.

Bundan başqa vaxtilə ABŞ-ın Azərbaycanda səfiri olmuş Riçard Kozlariç də bəyan etmişdi ki, siyasi məhbuslar azadlığa buraxılmasa, bu, Avropa Yay Olimpiya Oyunlarına kölgə salacaq".

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə** "Yeni Müsavat"a açıqlamasında iddiaların əsassız olduğunu bildirib. Onun fikrincə, bu cür informasiyalar Azərbaycanda keçiriləcək 1-ci Avropa Olimpiya Oyunlarına kölgə salmaq üçün aparılan kampaniyanın tərkib hissəsidir: "Avropa Yaya Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi qərarı qəbul edilən gündən buna qarşı xaricdə çox ciddi kampaniya aparırdılar. Göründüyü kimi, o kampaniya artıq Azərbaycanın daxilində də keçirilir. Müxalifət partiyasının nəzarətində olan mətbuat orqanı vasitəsilə bu kampaniya aparılır və həmin fikirləri Azərbaycan cəmiyyətinə yeritməyə çalışırlar. Əvvəla qeyd edim ki, Azərbaycanda siyasi məhbus yoxdur. Bunu beynəlxalq təşkilatlar da qəbul edir, reallıq da bundan ibarətdir. Bu baxımdan, olmayan bir şeyə görə Azərbaycanı ittiham etmək düzgün deyil. Məncə, Avropa Yay Olimpiya Oyunları keçirilib qurtarana qədər bu cür kampaniyanı aparanların Azərbaycanı gözdən salmaq cəhdləri davam edəcək".

**A.Mirzəzadə onu da vurğuladı ki, indi aparılan kampaniya Azərbaycanda 2012-ci ildə "Avrovision" mahnı yarışmasının keçirilməsi öncəsi aparılan kampaniyanın davamıdır:** "Eyni ssenaridir və eyni təşkilatçılardır. "Avrovision" musiqi yarışması Bakıda keçirilən ərəfədə və yarışmanın keçirildiyi günlərdə məlum qəzetin təmsil etdiyi müxalifət siyasi mərkəzi Bakıda bir neçə qanunsuz aksiyalar keçirməyə də cəhd etmişdilər. İndi də Avropa Yay Olimpiya Oyunları ilə bağlı həmin qəzet və həmin insanlar gözdən salma kampaniyası aparır. Görünür, Avropada kimlərəsə Azərbaycanın siyasət, iqtisadi, mədəniyyət mərkəzinə çevrilməsi sərf etmir. Ona görə də ara-sıra Avropada müəyyən birliklər vasitəsilə Azərbaycan əleyhinə yazılar verilir. Onun əks-sədası da Azərbaycanda müəyyən qəzetlərdə özünü göstərir. Ancaq bilmək lazımdır ki, Olimpiya Oyunlarının Bakıda keçirilməsi Azərbaycana göstərilən böyük etimaddır. Azərbaycan bu etimadı doğruldur, bu möhtəşəm tədbirə ciddi hazırlıq gedir. Gələn il Azərbaycanda dünya əhəmiyyətli böyük idman bayramının şahidi olacağıq. Kimlərdəsə vətənpərvərliyin olmaması isə artıq bu, hüquqi məsələ yox, mənəviyyat məsələsidir".

❑ E.SEYİDAĞA

# Deputat icra başçısının Qobustan türməsinə göndərilməsini istədi

**Fəzail Ağamalı:** "Bəzi icra başçıları ölkə prezidentinin dəfələrlə etdiyi xəbərdarlıqdan nəticə çıxarmırlar; görünür, onları öyüd-nəsihətlə çəkindirmək mümkün deyil"

**Xəbər verildiyi kimi, metronun "Koroğlu" stansiyasının yaxınlığındakı asma körpüdən özünü atmaq istəyərək intihara cəhd edən sahibkar Fəqan Nəsibovu çətinliklə də olsa, fikrindən daşındıra biliblər. F.Nəsibovun intihara cəhd etməsinin səbəbi Mingəçevirin keçmiş icra başçısı, hazırda Zərdab rayonunun icra başçısı olan Lütfəli Babayevin onun 65 min dollarını mənimsəməsidir.**

F.Nəsibovun dediklərinin doğru olduğunu Zərdab Rayon İcra Hakimiyyətinin adının açıqlanmasını istəməyən nümayəndəsi də təsdiq edib. Belə ki, o bildirib ki, problemin Zərdab Rayon İcra Hakimiyyəti ilə heç bir əlaqəsi yoxdur və bu, Lütfəli Babayevlə həmin şəxsin arasında olan problemdir: "Problem Lütfəli Babayev Mingəçevirdə İcra Hakimiyyətinin başçısı olanda baş verib".

**Qeyd edək ki, Lütfəli Babayev haqqında ən çox şikayətlər olan, qanunsuz əməlləri barədə haqqında mediada ən informasiya yayılan icra başçılarından biridir.** Həm Mingəçevirdə icra başçısı işlədiyi dövrlərdə, həm də Zərdabdakı fəaliyyəti sanki əsasən qanunsuzluqlardan ibarət olub. Onun nəinki sıravi sakinlərlə, hətta müavini ilə də münasibətinin gərgin olduğu haqda bir müddət əvvəl mediada xəbər yayılmışdı. Müavini Tofiq Abdullayevlə münasibətləri o həddə çatmışdı ki, T.Abdullayev ondan məhkəməyə müraciət etmişdi.

**L.Babayevin rayonun poçt rəisi, "Azərenerjinin "İmişli Regional Enerji Şəbəkəsi"nin elektrik üzrə satış müdiri Əkbər Məmmədovla da münasibətlərinin müharibə həddində olduğu haqda bir neçə dəfə mediada xəbər yayılıb.**


Fəzail Ağamalı

İcra başçısından sadə rayon sakinlərinin şikayətləri isə saysız-hesabsızdır. Haqqında bu qədər şikayətlər olan bir icra başçısının hələ də vəzifəsində saxlanması isə təəccüb və suallar doğurmaya bilmir.

Bu mövzuda danışan hakimiyyətyönlü **Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a açıqlamasında icra başçısının vətəndaşı intihar həddinə çatdırmasının xoşagələn hadisə olmadığını və bu cür məmurlarla bağlı ciddi tədbirlərin vaxtının çatdığını bildirdi: "Vətəndaşı öz həyatına qəsd etməyə vadar eləyən məmurun hərəkəti nifrətə layiqdir. Cənab prezident İlham Əliyev dəfələrlə məmurlara özünü nümunə gətirib və məmurların işinin xalqa xidmət etməkdən ibarət olduğunu bəyan edib, xalqa xidmət etməyin böyük şərəf olduğunu məmurların diqqətinə çatdırıb. Ancaq çox təəssüflər olsun ki, bu gün yerində olmayan məmurlar var. Əlbəttə, bu cür hadisələri bütün məmurlara, bütün icra başçılarına şamil etmək ədalətsizlik olardı. Lakin bəzi icra başçıları ölkə prezidentinin dəfələrlə etmiş olduğu xəbərdarlıqdan nəticə çıxarmırlar. Deməli, artıq onlar haqqında çox ciddi tədbirlər görmək lazımdır. Görünür ki, bu cür icra başçılarını sözlə, öyüd-nəsihətlə çəkindirmək mümkün deyil. Mən çox istərdim ki, avqustun 21-də vətəndaşın özünü körpüdən atmağa cəhd hadisəsi ilə bağlı Respublika Prokurorluğu çox sərt addımlar atsın və vətəndaşı həyatına qəsd fikrinə düşməyə vadar edən adam Qobustanda, quru səhrada daş daşısın ki, özünə nəticə çıxarsın".

Deputat bəyan etdi ki, kim daha yüksək səviyyədə yaşamaq istəyirsə, Azərbaycanda biznes imkanları var. İstehsal müəssisəsi qursun, bizneslə məşğul olsun və sair. Pulu bu cür qanuni yollarla, zəhmətlə qazansın. Lakin məmur olaraq ona verilmiş olan vəzifə səlahiyyətlərindən istifadə edərək, insanların haqqını pozaraq, haram yollarla pul qazanmaq istəyənlərin yeri azad dünya deyil: "Onlar məhz haqq etdikləri yerə göndərilməlidirlər. Mən düşünürəm ki, bələləri barədə ciddi addımlar atılacaq".

Qeyd edək ki, baş prokuror Zakir Qaralov özünə qəsd etmək istəyən Fəqan Nəsibovu qəbul edib.

**Baş Prokurorluğun mətbuat xidmətinin olayla bağlı məlumatında bildirilir ki, Fəqan Nəsibovun şikayəti dinlənilib. Fəqan Nəsibovun müraciəti Baş prokuror tərəfindən nəzarətə götürülməklə, şikayət ərizəsində göstərilən xüsusatların qanunamüvafiq qaydada araşdırılması üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.**

❑ ETİBAR

# Müsavata qarşı kampaniyanı kim təşkil edir?

İsa Qəmbərin müşaviri bu kampaniyada maraqlı olanlardan danışdı

**Müsavat Partiyasının Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin 18 avqustda keçirilən iclası barədə son bir neçə gündə müxtəlif informasiyalar yayılır. Başqanlığa iddialılar arasında iclasda əlbəyaxa dava olmasından, başqan İsa Qəmbərin ortaya Quran çıxarmasına qədər çeşidli iddialar bu informasiyaların içində yer alır. İnformasiyada adı keçən şəxslər deyilənləri qəti şəkildə təkzib etsələr də Müsavata qarşı təbliğat kampaniyası dayanmır. Sanki proses bir mərkəzdən idarə olunur və yayılmış sözügedən informasiyadan biriləri Müsavata qarşı mümkün qədər istifadə etməyə çalışır.**

**Müsavat Məclisinin üzvü Mustafa Hacıbəyli** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, son günlər Müsavat Partiyasına qarşı aparılan kampaniya, uydurmalar bədxahların, Müsavatın zəifləməsini istəyənlərin işidir: "Mən


Mustafa Hacıbəyli

Müsavatdakı toplantı barədə uydurmaları təəssüf edirəm ki, ilk olaraq "Bizim yol" qəzetindən oxudum. Çox təəssüf edirəm ki, jurnalist həmkarımız bu qədər uydurma bir məlumatı yazıb. Halbuki, Müsavatdakı iclasda qurultaya hazırlıq üzrə təşkilat komitəsinin 20 üzvü iştirak eləmişdi. Jurnalist yazını yazmazdan əvvəl obyektivlik üçün həmin 20 nəfərin istənilən birindən zəng edib dəqiqləşdirə bilərdi. Hesab edirəm ki, bu, qurultay öncəsi Müsavata qarşı məkrli addımdır. Müsavata həm dost olan, həm dost olmayan insanlar, siyasət adamları var ki, onlar bu qurultayda öz maraqları üçün nələrəsə nail olmağa çalışırlar. Dost olmayanlar daxildə bir təfriqə yaratmaq və başqa çirkli məqsədlərlə müdaxilələr edirlər. Mən hesab edirəm ki, Müsavat Partiyası kifayət qədər təcrübəsi olan insanlardan ibarətdir. Bu təcrübəli insanlar həmin kənar müdaxilələrə əhəmiyyət verməyəcəklər və öz doğru seçimlərini yapa biləcəklər".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014

# Savalan yolçusu olmaq..



Bir gün gələcək bütün yollar dağlar piri Savalana gedəcək!

*Əbülfəz Elçibəy*

**2008 - ci ilin isti yay günlərindən biri , daha dəqiq ifadə etsəm iyulun 4-də o qutsal ziyarəti mən də yaşadım. Təxminən 30 nəfərlik qrupumuzla Tehrandan Ərdəbilə doğru yola düşdük. Yarım gün Sümərində qaldıqdan sonra oradan da Şabilə doğru hərəkət etdik.**

Gecə saatlarında həmin istiqamətdə yerləşdiyimiz sonuncu sığınacaqdan Savalanın zirvəsinə doğru yol aldıq. Etiraf edim ki, dostlarımızdan fərqli olaraq dağa çıxmaq üçün yetəri qədər hazırlığım yox idi. 4000 metri keçəndən sonra bu daha çox özünü göstərirdi. Zirvə çox yaxın görünsə də irəlidə hələ 810 metrimiz qalırdı. Savalanın zirvəsinə doğru çığırlar qarla örtülü olduğu üçün bu cıxmaq üçün durumu bir az da çətinləşdirirdi. Amma hər dəfə başımı qaldırıb zirvəyə baxdıqca sanki güc alırdım. Və o güc millətimiz üçün müqəddəs sayılan Savalan dağının zirvəsinə qədər məni müşayiət etdi.

**Artıq Əfzələddin Xaqaninin "Səadət qibləsi" adlandırdığı o əzəmətli dağın zirvəsindəydim.** Dostlarımızla "Ziyarətimiz qəbul olsun !" deyib qucaqlaşırdıq o anlarda. Bizi bu zirvəyə daşıyan gücə minnətdar idik. Bizi bu zirvəyə daşıyan o müqəddəs ruha minnətdar idik həmin anlarda...

**21-ci əsrin başlanğıcında İrandakı siyasi atmosferdə nisbi yumşalmanın yaranması ilə 100 minlərlə soydaşımız vaxtilə ideya müəllifi mərhum tarixçimiz Məhəmməd Təqi Zehtabinin olduğu Babək qalasına yürüşə çıxdılar.** 22 il ərəb xilafətinə qarşı mübarizə aparan qəhrəmanımızın doğum gününü qutlamaq üçün təxminən 4 il ərzində (2002 ci ildən 2005 ci ilədək) hər il iyulun 1-də( tir ayının 10-u) Kələybər mahalı böyük insan selinin şahidi idi. Bəzi mənbələrdə Bəzz kimi qeyd olunan , xalqın isə Babək qalası adlandırdığı bu tikili bəlkə də inşa olunduğu andan bu canlı əzəməti görməmişdi.

**Mən sonuncu dəfə 2005-ci ildə qalaya getdim və sonra...** Ölkədə yaranan yeni siyasi ab-hava qalanın da yolunu bağladı, Kələybərə qoşun briqadaları yerləşdirildi və qalanın ətrafı hərbi təlim zonası elan olundu. Məktəbindən, köklü mədəniyyətini inkişaf etdirməkdən məhrum edilən, özgə tarixilə bəslənən bir millətə ilin yalnız bir günündə Babək qalasına qalxıb anasının dilində şeir, mahnı söyləməyi də çox gördülər. Elə o tarixdən də millətinin kütləvi Savalan yolçuluğu başlandı...

**Kimi həmin təqvim gündə, kimi də Quzey Azərbaycanda milli azadlıq hərəkatının lideri, Bütövlük məfkurəsinin memarı Əbülfəz Elçibəyin əbədiyyətə qovuşduğu gündə o zirvəyə doğru yola düşdü.** Və həmin ənənə bu gün də davam edir. "Savalan Azərbaycanın göylərdən nur olan tacıdır" deyirdi ölməz Elçibəy. Məhz Onun torpağa tapşırıldığı 22 avqust günü də Güney insanı üçün " Savalanı ziyarət günü" kimi müqəddəslik qazandı.

**Amma di gəl , şəhərindən qalasına , qalasından dağına didərgin salınan millətə dağında belə dinclik verilirmi?**

Ötən həftə Savalan yolçuluğuna çıxan guneyli soydaşlarımızın həbs olunması rejimin insanımıza olan rəftarını bir daha açıq-aşkar sərgilədi. Aldığımız xəbərlərə görə Savalanın zirvəsinə cıxmaq üçün yola düşən soydaşlarımızın dağa çıxmasına təhlükəsizlik qüvvələri tərəfindən mane olunmuş, maneəni yarıb dağa doğru istiqamət alan soydaşlarımız elə dağın ətəklərindəcə həbs edilmişlər. Elə bu yazını yazarkən də izlədiyim xəbərlərdə onlara qarşı təzyiqlərin edildiyindən bəhs edilir. Bir dağ yolçuluğu gerçəkdənmi Tehran rejimi üçün bu qədər "xətərsaz" görünür?!



**Yaxşı bilirik ki, dağlar hər zaman bizim üçün müqəddəs sayılmışdır.** Peyğəmbərlərimiz vəhy üçün , şeyxlər, övliyalar xalqın güzaranının yaxşılaşması, təbii fəlakətlərlərdən qurtulmaq üçün tanrıya dua, raz-niyaz etmək, imdad diləmək üçün dağlara qalxmış, şairlərimiz millətin dərdlərini dağlara deyərək ondan nicat diləmişlər.

**Elə isə dağların yolunu kəsmək peyğəmbərlərin, övliyaların yolunu kəsmək anlamındadır, məncə...** Bir halda ki, o dağ, adına Dahi Nizaminin də Xəmsəsində işarə olunan Xizir Peyğəmbərin qeybə çəkildiyi Savalan ola. Əfsanələrə görə Xızır Peyğəmbər Savalan Dağında olan "Dirilik Suyu"nu içib əbədiyaşarlıq qazanıb. Rəvayətlərdə deyilir ki, Xızır Peyğəmbər Savalan dağında bir mağaraya girib, atını çəmənliyə ötürüb, özü isə qeybə çəkilib. Savalan dağı haqqında tarixi mənbələrdə və dini rəvayətlərdə onlarla və bəlkə də yüzlərlə məlumatlara rast gəlmək olar. Savalan gerçək bir müqəddəslik rəmzidir və bu müqəddəslik zamanla daha da geniş kütləni öz ağuşuna alır. Necə ki, Əbülfəz bəy də " Bir gün gələcək Savalan milyon milyon insanın ziyarət məbədi, and yeri, inanc qaynağı olacaq!" demişdi. Elə isə qoy, " Azadlıq sevdası daşıyanlara Savalan ziyarəti qismət olsun!".

❑ **Rüfət MURADLI**

---

**Mən kiməm? " Nə edirəm? Niyə edirəm?... Bəzən özümə bu sualları verirəm. Cavablar nadir halda qürur oxşayan, çox vaxt isə utandırıcı olur. Bəs siz necə? Kim olduğunuzu, nəyi, niyə etdiyinizi düşünürsünüz?**

**Məsələn, ən son kimə yaxşılıq etmisiniz? Bir imkansız dosta borc vermisiniz, yaşlı birinə əlindəki torbanı daşımağa kömək etmisiniz, bacardığınız bir xidməti imkansıza havayı etmisiniz, zəifi qorumusunuz...**

**Günel Xəzəl**
Ümid Partiyasının Sosial və Humanitar məsələlər üzrə şöbə müdiri



# Sinirlərini nifrətə qurban verənlər üçün

Yadınıza salın, o an yaxşılıq etdiyiniz adamdan daha çox özünüz sevinmisiniz. Ürəyiniz hər döyüntüsüylə qürur duyub. Gərəkli, lazımlı, yaxşı adam olmaq hissi qədər heç nə insanı xoşhal edə, onun qürurunu oxşaya bilməz.

Bəs ən son kimə, hansı pisliyi etdiyiniz xatirinizdədir? Yolda bir pişiyi təpikləyəndə, statusca, vəzifəcə sizdən aşağıda olan birini alçaldanda, aldadanda, kiminsə gümanını sarsıdanda, anonim olaraq saytda kimisə təhqir edəndə, işin içindən xəbəriniz olmadan sosial şəbəkədə kimisə tərbiyəsizcəsinə tənqid edəndə... O anda keçirdiyiniz daxili sarsıntı necə, yadınıza gəlir? Ürəyiniz tez-tez ağrılı bir həyəcanla döyünürdü, deyilmi?

Hamımız hisslərə qapılıb sonra peşman olacağımız sözlər deyir, hərəkətlər edirik. Amma hamı peşman olurmu?

Mark Avreli yazırdı ki, təbiət insana hər kəsə qayğı göstərmək hissini bəxş edib. İnsan kiməsə əzab verəndə özü ikiqat ağrı çəkir. İnsan ha....insanlıq simasını itirən adamlarda bu vicdan iniltisi adətən "lal olur".

Bu yaxınlarda bir xanım yazarın saytlardan birində çıxan yazısına Mamed kişi, Qulliver dayı, Diana Diana və s. əcaib-qəraib anonim adlarla tərbiyəli insanın özünə yaraşdırmayacağı şərhlər yazılmışdı. Sarsıldım. Həqiqətən, insanların bu qədər qəddar və mədəniyyətsiz olmaları, özü də bu qəddar və mədəniyyətsiz adamların mənim xalqımın nümayəndələri olması məni çox incitdi.

Əvvəla, söyüş, təhqir insanın tərbiyəsini, daha doğrusu, tərbiyəsizliyini göstərir. İctimai şəkildə öz tərbiyəsizliyinizi nümayiş etdirməklə rəğbət qazanacağınızı düşünürsünüzsə, yanılırsınız. İkincisi, bir insanı sevmirsinizsə, düşüncələrini paylaşmırsınızsa, öz adınızla onu tənqid etməyə, etiraz etməyə gücünüz, biliyiniz, cəsarətiniz çatmırsa, özünüzü başqa adla yazacaq qədər alçaltmağınız çox ucuz görünür. Üçüncüsü, istənilən birinə şəxsi zəmində olan nifrətinizi bu cür bildirməklə, qisas almağa belə banal yolla çalışmaqla özünüzü gözdən salırsınız, öz gözünüzdən...

Nifrət və paxıllıq hisslərin ən təhlükəlisidir. Amma bu hiss nifrətin obyektindən daha çox subyektə zərər gətirir.

Nifrət etdiyiniz adama olan hisslərin daxilinizdə yaratdığı aqressiv, mənfi enerji sizin bütün daxili orqanlarınızı, sinir hüceyrələrinizi məhv edir. Anonim ad seçib, qəlbinizdəki iyrənc hissləri sözlərə çevirib o şərhləri yazarkən nə qədər daxili sarsıntı keçirdiyiniz yadınızdadır? Sonra yüz dəfə oxuyub sizə cavab yazılıb-yazılmadığını yoxlamısınız yəqin, onda hər dəfə o iyrənc hissdən doğan üfunət qoxan sözlərinizi yenidən oxuyub, yenə eyni aqressiya və alovlu həyəcanı hiss etmisiniz çox güman. Beləliklə, yüzlərlə sinir hüceyrənizi nifrətə qurban vermisiniz.

Nifrət etdiklərinizin adlarını ürəyinizdə sadalayın - Aynurə, İradə, Əhməd, Niyazi... Görürsünüzmü, əhvalınız dəyişir, ürəyiniz daha tez-tez çırpınmağa başlayır. Ürəyinizdə və başınızda küt ağrılar əmələ gəlir. Bu adamların bu an heç yadına düşmürsünüz, bu nifrətinizin onlara ziyanı yoxdur. Amma siz əziyyət çəkirsiniz.

Hə, o saytdakı şərhlərdən danışırdım axı. Bir anlıq fikirləşdim ki, bu sadə, ağıllı qadın nə ilə, hansı hərəkəti ilə bir belə nifrət qazana bilər. Tutalım, bu Mamed dayı ona niyə nifrət eləsin ki? İlk öncə ağlıma gəldi ki, bu Mamed, heç olmasa, cinsini düz yazıbsa, kişidir, çox güman, xanım onun sevgi etirafına biganə qalıb deyə ona qarşı bu qədər aqressivdir. Ya da yazıçıdır, oxunma sayı çox olan bu yazıda şərh yazmaqla öz yazısının az oxunmasının heyfini çıxır. Qadındırsa, sevdiyi bir vaxt ondan əl üzüb bu yazar xanımı seçib yəqin. Hərçənd belə hallarda niyə nifrət obyekti qadın olur, anlamıram. Daha səni sevməyən kişini qınamaqdansa, niyə onun aşiq olduğu qadına nifrət edəsən? Bəlkə, elə özünə nifrət edəsən ki, bir kişinin sevgisini öldürmüsən, qatilsən. Deyəsən, mətləbdən uzaqlaşıram. Sərt döngə edib qayıdıram baş mövzuya...

Əslində, məni maraqlandıran bir neçə sual daha var. Mədəni insan nifrət edə bilirmi? Tərbiyəli insan öz nifrətini necə büruzə verməlidir? Sivil, humanist insan nəyə nifrət edir?

İnsanlar zəif, güclü, savadlı, cahil, mehriban, kobud və s. ola bilirlər. Onların insani keyfiyyətləri çox vaxt irsi, böyüdükləri mühit və yaşadıqlarından asılı olur. Adamı yaşadıqlarına görə necə qınamaq, nifrət etmək olar? Bir də, mənim çox inandığım "Bumeranq" - yəni "Qayıdış" nəzəriyyəsinə görə hər kəs verdiyi enerjini kainatdan geri alır. Nifrət etdiyiniz qədər sizə nifrət edənlər, pislik etdiyiniz qədər sizə pislik edənlər, sevdiyiniz qədər sevənlər, hörmət etdiyiniz qədər də ehtiram edənləriniz var.

Bu yaxında çalışdığım partiyanın başqanını xeyli məyus gördüm. Bir müddət sonra mətbuatda maraqlı bir yazısı çıxdı. Bu qədər humanist, hər kəsə kömək olan insanı az qala üsyan edəcək vəziyyətə salanların motivini anlamasam da, səbəbini görürəm. İnsanlar olmaq istədikləri mövqelərdə başqasını görəndə paxıllıq hissiylə mübarizə edə bilmir və məğlub olurlar.

Bizim onsuz da ümumi düşmənimiz var, niyə öz aramızda bir-birimizi belə didək ki? Razı olmadığımız, bəyənmədiyimiz məqamları mədəni şəkildə, sivil qaydada müzakirə, tənqid etmək varkən, niyə əbəbsizlik nümayiş elətdirib özümüzü gözdən salaq ki?

İnsanım, dəyər ver ki, özünçün də dəyərli olasan...

YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014



# Məryəm Mirzəxaninin milliyəti

Zamin HACI
zaminhaci@gmail.com

**Amerika Birləşmiş Ştatlarında yaşayan 37 yaşlı Məryəm Mirzəxani bu yaxınlarda riyaziyyat üzrə nüfuzlu "Fields" ödülünü alanda yerli telekanalizasiyalarımız canfəşanlıqla bir dezinformasiyanı xalqa sırıdılar: guya Məryəm xanım İranda doğulmuş azərbaycanlıdır, bizim millətdəndir.**

Belə gülünc fəxarət örnəyini bir qırağa qoyuram, çünki bu adam Biləcəridəki 297 saylı məktəbi qurtarmayıbsa, BDU "mexmatında"-zadda oxumayıbsa, bunun uğurundan sizə nə? İlk növbədə, adam ABŞ-ın ona yaratdığı təhsil, tədqiqat şəraitinə minnətdardır. Ancaq məsələni daha karikatur edən odur ki, Azadlıq-Radiosu Məryəm Mirzəxanini tapıb, soruşub, xanım deyib azərbaycanlı olmağım yalandır. Bəs indi ora-burasına "dəqiq, qərəzli, vicdansız" şüarları yazılan telekanalizasiyalar nə qayıracaqlar, başlarına haranın daşını tökəcəklər?

Fikrimcə, yeganə çıxış yolu at kimi üzə durmaq, Məryəm xanımın azərbaycanlı olmasında israr etməkdir. Bizdə belə metodları yaxşı bacarırlar.

Təzə reportaj qayırmaq olar ki, bəs, Məryəm əslində azərbaycanlıdır, lakin ABŞ-ın Kaliforniya ştatında yaşayan erməni lobbisinin təzyiqləri üzündən qorxmuşdur. Ay qız, qorxma, müdafiə nazirimizin rəhbərliyi altında Los-Ancelesi alandan sonra sənə AMEA Riyaziyyat İnstitutunda hər cür şərait yaradılacaqdır, istəsən Balaxanı yolunda evin, altında maşının olar!

Gücləri birləşdirmək, "Səni axtarıram" verilişini işə qoşmaq lazımdır. Verilişə "SOCAR"ın Qum adasında neft çıxardan bir qoca işçisini çıxartmaq olar, deyərik ki, bu dayı Təbriz türkü Həmidağa müəllimdir, uzaq illərdə Rövnəq müəllimin dəvəti ilə işləməyə gəlmişdir, ancaq körpə qızı Məryəm o tayda qalmışdır. Bu yerdə geniş ekranda ailə məsələləri üzrə ekspert, manıs Tolik Samiraldonun göz yaşlarını göstərmək olar. İri planda Həmidağa müəllim deyər: "Məryəm, qızım, körpə balam, bağışla məni, mükafatın pulunu da istəmirəm, gəl Bakımıza, gör necə gözəlləşibdir! Gəl, bulvarda səni Şeytan çarxına mindirim, Binəqədi rayonunda icra başçısı Xaləddin müəllimin "Təmiz Binəqədi" layihəsinə də dəstək olaq!"

Bu vaxt səhnənin kölgəliyində oturan sintezatorçu qardaş da həzin bir musiqi dınqıldadar, lap altdan-altdan isə türk müğənnisi Niluferin "O da özlüyormuş, mənim bir tanem" zümzüməsi axıb gedər.

Ola bilər ki, Məryəm xanım vaxtilə İranda apendistini kəsdirməyə gedən Qusar sakini Mirzəxan Mirzəxanovun dini nikahdan - siğədən doğulan uşağıdır.

Hətta Yaqub müəllim Tarix İnstitutunun xəttiylə Məryəm Mirzəxaninin üz quruluşunu, DNK analizini aparıb onun qədim Şumer türklərindən biri olduğunu, Şəki ərazisində yaşayan Halvaçı Ələsgərin dost-doğma bacısı çıxdığını da yazsın.

Sözümün canı odur ki, rəhmətlik Tağı müəllim demiş, ora-bura burcutmağın, dızıldaşmağın yeri yoxdur. Məryəm xanım azərbaycanlı olduğunu boynuna almasa da (görünür, respublikamızın analoqsuz uğurlarına layiq olmadığını düşünərək bir az utancaqlıq edibdir; öləsən səni, qız!), biz bunu onun boynuna qoyarıq! Ən yaxşısı dincliklə, İqbal Ağazadə demişkən, dialoq yolu ilə bunu boyna almasıdır, ancaq alınmasa hüquq-mühafizə orqanlarımızın canı sağ olsun... Məryəm xanımı tutub gətirib bircə gün Nəsimi rayon Polis İdarəsində, sahə müvəkkili Cüvəllağı müəllimin kabinetində dindirsək nəinki azərbaycanlı olduğunu boynuna alacaqdır, hətta Xurşudbanu Natəvan, Tomris, Həcər, Gülər Əhmədova olduğunu deyəcəkdir! Bizim gənc, qürurlu dövlətimizin buna hər cür imkanları vardır.

İndi söz əlaqədar təşkilatlarındır, həmçinin Məryəm xanımındır. Ağıllı ol, qız.

## ABŞ səfirinin Bakı və İrəvana qəfil video-müraciətinin şok səbəbi

# Rusiya Qarabağda böyük təxribat hazırlayır - təhlil

**Prezidentlərin Soçi görüşü Qarabağ münaqişəsi zonasında gərginliyi azaltsa da, qarşıdurmanı əsaslı şəkildə aradan qaldırmadı. Səbəb əlbəttə ki, görüşün dinc nizamlanma prosesinə təkan verəcək konkret anlaşma ilə yekunlaşmaması idi. Bu isə o deməkdir ki, avqustun əvvəllərində yaşanan, az qala geniş miqyaslı müharibəyə adlayacaq qanlı insident, "blits-müharibə" ehtimalı qalır və yenidən təkrarlana bilər. İndi bunun üçün zəmin göründüyündən də çoxdur.**
**Ən azı ona görə ki, Rusiya prezidenti Vladimir Putin tələsir və Qarabağ konfliktindən nəhayət ki, konkret siyasi divident götürməyin əsl zamanı olduğunu düşünür.**



Vaşinqtonun Ermənistan və Azərbaycana artan müharibə xəbərdarlıqları Putinin Güney Qafqaza yönəlik planlarını pozmağa yönəlib; Ukraynada uduzduğunu anlayan Kreml başçısı regionda Qərb maraqlarını da hədəf alan yeni avantüraya gedə bilər...

Məsələ də ondadır ki, Kreml başçısı Ukraynada uduzduğunu artıq anlamağa başlayıb və Güney Qafqazı, onun açar ölkəsi olan Azərbaycanı geridönməz şəkildə Rusiyanın orbitinə qaytarmaqda, Avrasiya layihələrinə qoşmaqda israrlıdır. Həm də maksimum qısa zamanda.

İndi artıq bəllidir ki, Soçidə Putin Azərbaycan prezidenti İlham Əliyevin buna prinsipial razılığını ala bilməyib. Bir çox müşahidəçilərə görə də (Vəfa Quluzadə) Soçi görüşü sırf Azərbaycanla bağlı olub, Ermənistan (Serj Sərkisyan) isə ona sadəcə, don geydirmək, şəkil çəkdirmək rolunda çıxış edib. Görüşdən sonra Sərkisyanın səsləndirdiyi sərt müharibə ritorikası da söyləməyə əsas verir ki, Putin Əliyevdən "hə" qopara bilməyib.

Bu mənada Putinin Azərbaycandan qəzəbli olduğunu güman eləməyə əsaslar yetərincədir. Üstəlik, gələn ay NATO-nun Uelsdə keçiriləcək Uels sammiti xeyli dərəcədə anti-Rusiya sammiti kimi tarixə düşəcək, Ukraynanın, Güney Qafqaz ölkələrinin (Gürcüstan, Azərbaycan) və Moldovanın təhlükəsizliklərini gücləndirməyə həsr olunacaq. Putini tələsdirən və hiddətləndirən amillərdən biri də heç şübhəsiz, bu yaxınlarda ABŞ Senatının Gürcüstan. Ukrayna və Moldovaya Birləşmiş Ştatların müttəfiqi statusu tanıyan qanun layihəsini qəbul eləməsidir...

Bütün bu nüansları ABŞ da təbii ki, bilir və ciddiyə alırlar. Onun da yaxşı fərqindədirlər ki, Kreml cəbhə xəttində növbəti təxribatı da məhz İrəvanın əli ilə edə bilər. Odur ki, diplomatik kanallarla Ermənistanın "ağlını başına yığmasına" çalışır. Son vaxtlar Amerikanın həm Minsk Qrupundakı həmsədri Ceyms Uorlik, həm də Ermənistandakı səfiri Con Xefernin dilindən tez-tez müharibə xəbərdarlıqlarının səslənməsi, fikrimizcə, müstəsna olaraq, bu narahatlıqdan qaynaqlanır.

Xatırladaq ki, Uoprlik Soçi görüşündən dərhal sonra Dağlıq Qarabağın dondurulmuş münaqişə olmadığını bəyan eləmişdi. Az sonra səfir Xaffern bənzər açıqlama verdi. İki gün öncə isə o, Azərbaycan və Ermənistan prezidentlərinə münaqişə tarixində ilk dəfə olaraq video-müraciət ünvanlayıb.

"Təhdid və sərt ritorika işin xeyrinə deyil... Biz son insidentlər zamanı həlak olanların və yaralananların hisslərini bölüşürük. Səfir Uorlikin dediyi kimi, bu, dondurulmuş münaqişə deyil. Odur ki, həm İrəvanı, həm də Bakını gərginliyin yumşaldılması üçün addımlar atmağa və atəşkəs rejimini gözləməyə çağırırıq". Bu sözlər həmin müraciətdəndir.

"Bu münaqişənin hərbi həlli yoxdur. Biz hər iki tərəfi ciddi danışıqlara başlamağa səsləyirik: haqq-hesab çürütmək və davamlı zorakılıq dinc nizamlanmanı daha da çətinləşdirir. Həlak olanların xatirəsini yad eləməyin ən yaxşı yolu - qarşıdurmanı elə indicə dayandırmaqdır", - deyə səfir əlavə edib.

Vaşinqton paralel olaraq işğalçı ölkəni Rusiyanın yanında durmağın ağır fəsadları barədə də mütəmadi xəbərdar eləməkdədir. Misal üçün, Qarabağ xəbərdarlığından bir neçə gün öncə Xeffern Birləşmiş Ştatların Rusiyaya qarşı tətbiq elədiyi iqtisadi-maliyyə sanksiyaları və onların Ermənistana mümkün təsirləri ilə bağlı suala aydınlıq gətirərək demişdi ki, Amerika tərəfi sanksiyalarla bağlı Ermənistan rəhbərliyi ilə çoxsaylı məsləhətləşmələr aparıb. Sitat: "Sanksiyalar Rusiyaya qarşı yönəlib, Ermənistana yox. Ancaq onlar Ermənistan iqtisadiyyatı üçün də neqativ nəticələr doğura bilər. Əgər bu, İrəvana xoş gəlmirsə, şikayətini Moskvaya eləsin".

**Diplomatik dildən tərcümədə bu da İrəvana özünü yığışdırmaq üçün başqa bir xəbərdarlıqdır.**

**❑ Siyasət şöbəsi**

## "Qarabağ probleminin açarı təkcə Rusiyada deyil"

**Ekspert:** "Problem qlobal münaqişə səviyyəsinə gəlib çıxıb, onun həllini çətinləşdirən məhz bu amildir..."

**Qarabağ konflikti uzandıqca onun həll açarının böyük güclərin əlində olduğu barədə fikirlər də möhkəmlənir. Sözügedən münaqişədə tərəflər Azərbaycan və Ermənistan olsa da hər kəsə bəllidir ki, Rusiya, ABŞ və digər böyük dövlətlər öz maraqlarını bu problemdən yararlanaraq həyata keçirmək istəyirlər.**

Problemin açarının kimin əlində olması sualına isə indiyə qədər ən çox eşitdiyimiz cavab "Rusiyanın əlindədir" olub. Bəs keçmiş SSRİ regionunda son aylarda baş verən proseslərdən, Rusiyanın Ukraynada tədricən uduzmasından sonra vəziyyətdə dəyişiklik olubmu?




**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri, politoloq Natiq Miri** bildirdi ki, Qarabağ problemini SSRİ-nin dağılması ərəfəsində SSRİ yaradıb. SSRİ-nin də varisi Rusiyadır: "Rusiyanın bu gün Ermənistana təsir imkanları çox böyükdür. Onu da nəzərə almaq lazımdır ki, Qarabağ klanının hakimiyyətə gəlməsini məhz Rusiya təşkil edib. Ona görə də həm Köçəryan hakimiyyəti, həm də Sərkisyan hakimiyyəti Moskvanın iradəsindən asılı olan vassallardan ibarətdir. Bu baxımdan demək olar ki, Rusiya Qarabağ problemində həlledici tərəflərdən biridir. Ancaq münaqişənin çözümü bütövlükdə Rusiyadan asılı deyil. Artıq Ermənistan hakimiyyəti gələcəkdəki inkişaf perspektivinin Rusiyanın yanında olmaq olmadığını bilir. Ukrayna hadisələrindən sonra Ermənistan Rusiyanın uduzan tərəf olduğunu da anlayır. İrəvan Rusiyanın tədricən Cənubi Qafqazdan sıxışdırılıb çıxarılacağını da anlayır. Ən əsası, bu gün Ermənistan əsas maliyyə imkanlarını Qərbdən alır. Bütün bu faktorlara görə Ermənistan təkcə Rusiyadan deyil, həm də Qərbdən, xüsusilə ABŞ-dan asılıdır. Odur ki, Qarabağ problemi regional savaş olmaqdan çıxıb bir qlobal münaqişə səviyyəsinə gəlib çıxıb. Problemin həllini də çətinləşdirən məhz bu amildir. Artıq problemin həlli təkcə münaqişə tərəflərinin iradəsindən asılı olmaqdan çıxıb. Azərbaycan və Ermənistan rəhbərliyinin razılığı olsa belə, münaqişəni həll eləmək mümkün olmayacaq. Çünki ən azından Rusiyanın və ABŞ-ın bölgəyə ciddi təsir imkanları var. Açar hər iki dövlətin əlində var. Dağlıq Qarabağdakı generalitetin əksəriyyəti Rusiyanın xüsusi xidmət orqanlarının təsiri altındadır. İstənilən zaman Rusiya cəbhə xəttində hərbi təxribatlar yaratmaq gücündədir. Ona görə də bu gün Ermənistan istəsə belə, Dağlıq Qarabağ münaqişəsini birmənalı sülhə daşımaq mümkün deyil".

Politoloqun sözlərinə görə, problemin həlli yalnız qlobal güclərin, xüsusən də Rusiya ilə ABŞ-ın uzlaşdığı halda mümkündür. Bu gün isə uzlaşma mümkün deyil. Hazırda Rusiya ilə Qərb Ukrayna məsələsində savaş həddindədirlər.

**N.Miri vurğuladı ki, konfliktin həllində qlobal güc mərkəzlərini uzlaşmaya vadar etmək üçün Azərbaycan və Ermənistanın əlində müəyyən təsir imkanları var. Təsir imkanı daha çox Azərbaycanın əlindədir:** "Azərbaycan hakimiyyəti proseslərin arxasınca sürünən tərəf olmamalıdır. Bakı özü proses yaratmalıdır ki, dünya gücləri regionda savaşın olmaması, münaqişənin təcili həlli üçün hərəkətə keçsin. Bunun üçün isə elə bir hadisə yaratmaq lazımdır ki, qlobal güclər razılığa gəlib çözüm variantlarını təqdim etsinlər. Diqqət etdinizsə, avqustun əvvəlində Qarabağ cəbhəsində üç günlük müharibədən bütün dünya, eyni zamanda Rusiyanın özü ciddi narahatlıq keçirdi. Çünki Rusiyaya Cənubi Qafqazda böyük savaşın olması sərf etmir. Çünki bu gün Rusiya iki və ya üç cəbhədə savaşmaq, tərəf olmaq gücündə deyil. Mən hesab edirəm ki, lokal, bir neçə həftəlik ciddi hərbi əməliyyatların keçirilməsi və bir neçə Azərbaycan yaşayış məntəqələrinin ermənilərdən azad olunması dünya güclərini ciddi şəkildə hərəkətə keçirər. Azərbaycan Qarabağ probleminin həlli açarına xeyli dərəcədə sahib olan Rusiya və ABŞ-ı bu yolla həll açarını işə salmağa məcbur edə bilər".

**❑ Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014

# Davudoğlunun baş nazirliyi

## İsa Qəmbər: "Düşünürəm ki, Ərdoğan onunla birlikdə Azərbaycana kifayət qədər diqqətli yanaşacaqlar"

**Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ölkənin yeni baş naziri olacaq. Bu barədə avqustun 21-də AKP-nin Mərkəzi İdarə Heyətinin toplantısında partiya sədri Ərdoğan məlumat verib. Avqustun 27-də keçiriləcək AKP-nin növbəti qurultayında partiyanın sədri və baş nazir postunu Davudoğlu tutacaq.**



Türkiyənin 62-ci hökumətinin başçısı olacaq Əhməd Davudoğlu akademik dairələrin adamı hesab olunur. Siyasətə və dövlət vəzifəsinə universitetdən gəlib. Bir müddət Ərdoğanın xarici siyasət məsələləri üzrə müşaviri olub. "Qonşularla sıfır problem" nəzəriyyəsini irəli sürüb, Yaxın Şərqdə siyasi münasibətlərdən bəhs edən nəzəriyyənin müəllifidir. Davudoğlu islamçı siyasi kursun, Yaxın Şərqdə keçmiş Osmanlı imperiyası ərazisindəki dövlətlərin yeni əməkdaşlıq formasında birliyinin tərəfdarıdır. Eyni zamanda "Yeni Osmanlıçılıq siyasəti" terminologiyası da onun adı ilə bağlanır.

Əhməd Davudoğlu 1959-cu ildə Konyada anadan olub. Zəngin akademik karyerası var. 2002-ci ildən baş nazir Abdullah Gülün, daha sonra isə Ərdoğanın baş müşaviri olub. 2009-cu ildən Türkiyənin xarici işlər naziri təyin olunub. Davudoğlunun Türkiyənin baş naziri olması dünyada maraqlı reaksiya doğurub. Dünya mətbuatının əsas xəbər başlıqları məhz Əhməd Davudoğlunun baş nazir təyinatı ilə bağlı olub.

ABŞ hökuməti də Davudoğlunun baş nazir olmasını müsbət qarşıladığını bəyan edib. ABŞ Dövlət Departamentinin sözçüsü Marya Harf, xarici işlər naziri Əhməd Davudoğlunun Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədrliyinə namizəd olması ilə əlaqədar "Türkiyədəki növbəti baş nazirlə işi səbirsizliklə gözlədiklərini" deyib.

ANS PRESS-in məlumatına görə, Harf gündəlik mətbuat konfransında Davudoğlunun Ədalət Partiyasının sədrliyinə namizəd göstərilməsiylə əlaqədar şərhində "Bunun bir namizədlik olduğunu anlayıram. İndi işləməsi lazım olan bir müddət var. (Türkiyədə) Növbəti baş nazir kim olursa olsun onunla birlikdə işləməyi səbirsizliklə gözləyirik" - söyləyib.

Qeyd edək ki, qardaş Türkiyədə baş nazirin dəyişməsi Azərbaycanda da maraqla izlənilir. Xarici işlər naziri Davudoğlunun baş nazir təyinatı ilə bağlı "Yeni Müsavat"a açıqlama verən **Müsavat Partiyasının başqanı İsa Qəmbər** Əhməd Davudoğlunu uzun illər əvvəl tanıdığını deyib. İ.Qəmbər yeni baş nazirin dönəmində Azərbaycana böyük diqqət olacağını bildirib. Sitat: "Əhməd Davudoğlunu 15 ilə yaxındır tanıyıram. Şəxsi tanışlığımız var, dəfələrlə görüşmüşük, söhbətlərimiz olub. Onu ictimai-siyasi xadim olmazdan öncə bir intellektual kimi tanımışam və hər zaman yüksək dəyərləndirmişəm. Hesab edirəm ki, hakimiyyətdə intellektualların olması həm dövlət üçün, həm də onun qonşuları üçün çox gözəl və faydalıdır. Əminəm ki, Əhməd Davudoğlunun baş nazirliyi dönəmində Türkiyə-Azərbaycan münasibətləri inkişaf edəcək. İndiki gerçəklikdə təbii ki, Türkiyənin xarici siyasətinin müəyyənləşdirilməsində həlledici rol prezident Rəcəb Tayyib Ərdoğanda olacaq. Türkiyənin ümumxalq seçkiləri nəticəsində vəzifəyə gələn prezident kimi Ərdoğan dövlətin idarə olunmasında əsas şəxs olacaq. Düşünürəm ki, Ərdoğan baş nazir Davudoğlu ilə birlikdə Azərbaycana kifayət qədər diqqətli yanaşacaqlar. Qarabağ məsələsində əminəm ki, Azərbaycanın maraqlarını tam şəkildə nəzərə alacaqlar".



**İsa Qəmbərin fikrincə, Türkiyənin Azərbaycanda demokratikləşmə sahəsində siyasətinin dəyişəcəyinə inanmır:** "Digər məsələlərdə isə, o cümlədən demokratiya məsələsində, Türkiyənin Azərbaycana münasibəti bir sıra amillərdən asılıdır. O amillərdən hansının daha təsirli olacağını gələcəkdə görərəyik. Mən Əhməd Davudoğluna yeni vəzifələrində - partiya sədri və baş nazir postunda - uğurlar arzulayıram".

**Ankara Universitetinin doktorantı, politoloq Orxan Qafarlıya** görə, Türkiyədə hələ də baş nazir hökumətin fəaliyyətinə rəhbərlik edən əsas siyasi şəxs olsa da, Davudoğlunun dönəmində müəyyən mənada fərqlilik olacaq. Daha dəqiqi baş nazir səlahiyyətlərinin müəyyən hissəsini prezidentlə bölüşməli olacaq: "Türkiyə parlament sistemiylə idarə edilən ölkə olduğu üçün baş nazirin səlahiyyətləri daha yüksəkdir. Prezident isə əslində daha çox simvolik xarakter daşıyan bir vəzifədir.

**Davudoğlunun Türkiyənin baş naziri olması, bu postun bütün səlahiyyətlərindən tam şəkildə istifadə edəcəyi anlamına gəlmir.** Davudoğlunun prezidentlə səlahiyyətlərini bölüşəcəyi ehtimal olunur. Digər tərəfdən Davudoğlu ilə Ərdoğan arasında, Yaxın Şərq, Avropa, Rusiya, ABŞ və Orta Asya siyasətində elədə ciddi fərqlilik yoxdur. Davudoğlunun bir baş nazir olaraq daha çox xarici siyasət üzərində fokuslanacağı ehtimal olunur. Daxili siyasətdə, "paralel dövlət"lə Ərdoğanin siyasəti davam edəcək. Davudoğlu Ərdoğanın başlatdığı siyasətə o qədər də müdaxilə etməyəcək. Demək istədiyim Ərdoğanın daxili siyasət üzərində hegemonluğu davam edəcək. Düşünürəm Davudoğlu Ərdoğan arasında belə bir anlaşma vardır. Beləliklə daxili siyasət Ərdoğan hegemonluğu davam edəcəksə, xarici siyasətdə Davudoğlu daha sərbəst fəaliyyət göstərəcəkdir".

**O.Qafarlının fikrincə, iqtisadi məsələlərdə Türkiyə siyasətinə iki yeni isim daxil olacaq.** Bunlar Yigit Bulut və Numan Kurtulmuş olacaq. Lakin ekspertə görə, Davudoğlu ilə Ərdoğan arasında bu iki isim arasında hansına daha çox stavka olunacağı bilinmir: "Ehtimal edirəm ki, Yigit Bulutun şansı daha çoxdur. Lakin Numan Kurtulmuşun AKP-yə gəldiyi zaman ona söz verilib və indi bu sözün tutulması lazımdır. Bu şəxsdən seçilməsindən Türkiyənin iqtisadi siyasəti bəlli olacaqdır".

**O.Qafarlıya görə, yeni hökumətdə xarici işlər naziri postuna 3 iddialı var. Bunlar baş nazirin xarici siyasət məsələləri üzrə müşaviri İbrahim Kalın, Mövlud Çavuşoğlu və Firudin Sinirlioğludur. Azərbaycan-Türkiyə münasibətlərinə gəldikdə, ekspertə görə, Davudoğlunun baş nazirliyi dövründə xarici siyasətdə əsas gündəm Yaxın Şərq və "erməni genosidi" mövzusu olacaq:** "2015-ci ildə Davudoğlu baş nazir olduğu dönəmdə Yaxın Şərq siyasətindən sonra Ermənistan Türkiyə münasibətləri və Dağlıq Qarabağ münaqişəsi üzərində olacaq. Bunun səbəbi qondarma "erməni soyqırımı" iddialarının 100 illiyinin 2015-ci ilin aprelində olmasıdır. Əgər parlament seçkiləri daha tez, yəni bu ilin noyabrında baş verməsə o zaman 2015-ci il iyun ayında olan seçkilərdə erməni məsələsində diqqətli olmaları lazım olacaq. Çünki, ehtimal var ki, ABŞ və bir sıra ölkələr qondarma "erməni soyqırımı"nı tanıyacaq. Və Türkiyədə məclis seçkilərindən iki ay öncə bu hadisələrin olması, AKP hər zaman səs verən 15 faizlik millətçi seçicini itirmə təhlükəsi ola bilər. Bu səbəbdən də Davudoğlunun Erməni məsələsində çox aktiv bir siyasəti olacaqdır. Azərbaycan rəhbərliyinin də bu aktiv erməni siyasətinə hazır olması lazım gələcək".

❑ **KƏNAN**

# Məclisi-mücərrəd



Hüseynbala SƏLİMOV

**Yadıma müxalifətin iki intellektualı arasındakı ayaqüstü söhbət düşür. Onlardan birinin intellektual səviyyəsi məndə heç bir vaxt şübhə doğurmamışdı. Amma ikincini nəinki intellektual hesab etmək, hətta şərti olaraq savadlı adam kimi qəbul etmək belə mühasili idi. Təbii ki, bu adam çoxlu kitablar vərəqləmişdi, çoxlu adlar eşitmişdi, amma onların heç birinin mahiyyətinə varmamışdı. Ən böyük bəla isə o idi ki, bu adam yazırdı və öz cəfəngiyyatlarını dəyərli yazı hesab edirdi.**

Qərəz, bu iki intellektual növbəti dəfə rastlaşmışdılar. Əsl intellektual əlindəki kitabçadan psevdo-intellektualın yazınısını tapdı. Bir-iki cümlə oxuyub qəhqəhə çəkdi. Sonra da üzünü psevdo-intellektuala tutub "Ayə, sən canın, özün bu yazdıqlarından bir şey başa düşürsənmi?"-deyə soruşdu. Psevdo-intellektual qızardı, bozardı, amma bir söz demədi, daha doğrusu, deyə bilmədi, çünki otaqda elə bir qəhqəhə qalxmışdı ki, o, nəsə desəydi belə, onun boğuq səsi eşidilməyəcəkdi...

Bunu niyə xatırladım? Məsələ bundadır ki, bizdə süni mücərrədçiliyə həddən ziyadə böyük meyl var. Bir şeyi anlaşılmaz tərzdə yazanda, deyəndə sanki elə zənn edirlər ki, superağılı bir söz deyiblər. İndi hara baxırsan, qəribə sözlər, çox qəribə deyimlər çıxır üzə-"zaman və məkan", məclisi-üns. Nə bilim, daha nələr! Yaddaşımı qurdalasaydım bəlkə daha çox şey çıxardı ortaya. Amma elə bu da bəs edir...

**Bəlkə də hər şeyi daha sadə ifadə etmək olardı. Amma bizimkilər sadəlikdən qaçırlar. Əvvəldə qeyd etdiyim kimi, onlara elə gəlir ki, mücərrəd ibarələr bu adamların bəsit fikirlərinə bir məzmun verəcək. Amma məzmun verirmi? Əsla.**

İndi bir şey deyəcəm, bəlkə də o, çox mübahisəli görünəcək. Bizim bədii Azərbaycan dili əsasən sovet dövründə formalaşıb. Bəli, sovet dövründə nəsr yarandı, sürətlə ədəbi dil formalaşmağa başladı. Düzdür, sovetlərdən əvvəl də nəsr olmuşdu, amma o, hələ kütləviləşməmişdi, hamının başa düşəcəyi tərzdə deyildi.

Bəlkə də sovet quruluşu yox, başqa bir quruluş olsaydı ədəbi dil başqa istiqamətdə inkişaf edəcəkdi. Mən bunu inkar etmirəm. Amma dil əhəmiyyətli dərəcədə ərəb və fars formalarından, ibarələrindən təmizləndi, indiki formasını tapdı. İndi bu prosesi geri döndərmək, təzədən əsrin əvvəlindəki ədəbi dil cərəyanlarına qayıtmaq qeyri-mümkündür...

Buna heç ehtiyac da yoxdur, çünki dil qrafika deyil ki, bir əsrdə üç dəfə dəyişəsən, hərçənd qrafika özü də əhəmiyyətli məsələdir. İndi bizim müəyyən bir ədəbi dilimiz var və məcburuq ki, onu öz təbii axarı istiqamətində inkişaf etdirək...

Amma mücərrədçilik tək dil məsələsi deyil, həm də üslub, tərz məsələsidir. Bu, savadlı görünmək, intellektual təəssüratı yaratmaq üçün də istifadə edilir.

Amma çox nahaq yerə. Bəli, mücərrəd yazanlar olub. Məsələn, C.Coys. Di gəl ki, məlum deyil, Coysun bu üslubu hansı tələbatdan yaranmışdı?

**"Məkan birinci, zaman isə ondan törəmədir!". Bu "fikri" gündə azı bir neçə dəfə, özü də televiziya vasitəsilə eşitmək mümkündür...**

Doğrusu, düz 15 il fizika oxumuşam, amma belə bir "kəşf"ə rast gəlməmişəm. Fizikada zaman və məkan kontinium əmələ gətirir. Bu, o deməkdir ki, biz dördölçülü fəzada yaşayırıq və bu fəzanın bütün koordinatları eyni hüquqludur.

Bizə elə gəlir ki, nə qədər çox anlaşılmaz ifadələr desək camaatın gözündə bir intellektual kimi çəkimiz artacaq.

Amma unuduruq ki, mətbuatı tək ədiblər izləmir, televiziyaya tək yazıçılar və jurnalistlər baxmır. Oxucular və dinləyicilər arasında fiziklər, riyaziyyatçılar və yaxud filosoflar da var.

Ən dəhşətlisi odur ki, bir də görürsən ki, bu xətalar sadaladığımız adamların özü tərəfindən edilir. Niyə belə olur? Məsələ bundadır ki, bütün sahələrdə psevdo-intellektualların sayı daha çoxdur...

Burada əsrin əvvəlindəki dil çəkişməsini də-"Füyuzat"çılarla "Molla Nəsrəddin"çilər arasındakı qovğanı da xatırlamaq lazımdır. Kim bilir? Bəlkə də proseslər başqa istiqamət alsaydı birincilərin xətti qalib gələcəkdi?...

Amma elə olmadı, belə oldu. Həm də dil bir həyat məsələsidir. Məsələn, əsrin əvvəlində elə şairlər, özü də böyük şairlər olub ki, onların dili həyati olmayıb, daha çox sintetik dil olub...

**Qərəz, indi yazıram və özüm də düşünürəm ki, görən, mən özüm mücərrədliyə varmadım ki?..**

**Dünya bina olunandan ta bu günə qədər onun bir şəkli, şəmayili var. Onun adı mücadilədir. İnsanın təbiət gücləri ilə insanın insan ilə mücadiləsi Adəm ilə Həvvadan, Qabil ilə Habildən, sıxılmış yumruqdan atılan ilk daşdan, atılan ilk oxdan başlayır, atom bombasına qədər uzanır. Müharibələr, qəsblər, işğallar, fəthlər hərbi səfərlər bu mücadilənin şəkilləridir. Hamısı da deyil. İnsanın özü ilə mücadiləsinə aid olan mübarizələr, savaşlar, müəmmalar da mücadilənin bu şəklidir.**

**Kamil Vəli NƏRİMANOĞLU**



# 64 xanə və mat-məəttəl qalmadan bitən yaş - 64

## 68 (64+4) yaşıma






Sağ qalmaq üçün yemək-içmək ehtiyacı ciddi yaxınlıq üçün, eşq üçün, pul-sərvət üçün, sərmayə üçün mücadilənin, sonsuz zəncirin dolanbaclarından keçir.

Canlı və cansız aləmləri mücadiləsiz təsəvvür etmək mümkün deyil. Ən böyük mücadilə insanın özü-özü ilə olan mücadiləsidir.

Mücadilənin virtual-sanal şəkli oyunlardır. Oyun ağır həyatın modelidir. Onun imtahanlarına hazırlanmaqdır. Modern dilçiliyin yaradıcılarından olan L.Yeltslev dili də oyun olaraq dəyərləndirilir. Fişer uşaqlıqdan şahmat oynamağa başlamış və oynamaq xatirinə oynamış, əylənmiş və yavaş-yavaş alnına yazılan oyunla üzvi şəkildə birləşməyə ona qovuşmuşdur.

Fişer üçün dünyanın bütün əyləncələri, eyşləri, anları, sevincləri şahmatın içində yox olub getmişdir.

**Şahmat onun üçün ibadət olmuş beynində və ürəyində təvaf yeri kimi qərarlaşmışdır.**

Dəhşətli hafizəsi ona heç vaxt xəyanət etməmişdir. Müdrik hind oyununun taxtaya baxmadan oynamaq ona dahi şahmatçı Alyoxini xatırladırdı.

Amma onun xəyalından çıxmayan obraz beyin iflicində olan dahi Pol Morfi idi.

Şahmat dünyasında Fişerin sələfi Morfidir. O yalnız yaşamış və yalnız da ölmüşdü. Bəlkə uzaq gələcəkdə bir uşaq dünyaya gələcək. O zaman deyəcəklər ki, bu, Fişerin övladıdır, Morfinin nəvəsidir. Bunu tək Allah bilir. O, ölmədi, səmadakı ulduz kimi axdı getdi. Bu taydan o taya.

**Alyoxin əsir olduğu zaman dəhşətli qarın yatalağı xəstəliyinə tutulur. Xatirələrində yazır ki, ağrı içində qovrulduğum zaman birdən ağlıma gəldi ki, şahmat oynayım.** Səmada 64 xanalıq şahmat taxtası düzənlədim və özüm-özümlə oynamağa başladım. Ağlarla ilk gedişimi etdim, vəzir qambiti. Qaralar cavab verdi və oyun qızışdı. Bir də hiss etdim ki ağrım dayandı. Varlığıma hakim kəsilən oyun məni dəhşətli xəstəliyin əlindən aldı.

**Fişer baxmadan bir neçə adamla şahmat oynaya bilirdi.**

Elm və sənət də daxil olmaqla çox şeyi əhatə edən şahmatın böyük nüfuz və hörmət qazanmasında Fişer bir inqilabı gerçəkləşdirməyi başardı.

Bu, Fişerə asan başa gəlmədi.

İdeoloji savaş və bazar iqtisadiyyatı ağırlıqlı kapitalist dünyasının şahmata münasibətinin dəyişməsi olduqca ağır və ciddi proses idi.

Bəzən deyirlər ki Sovet hökuməti qansız yıxılıb. Kökündən yanlış fikirdir. Disidentlər, bəlli yönümlü yazıçılar, jurnalistlər və əlbəttə, Fişer kimi fövqəlinsanlar ölümsüzdür.

Sovet hökumətinin yıxılması çətin məsələ idi. Fişerin bir sözünü xatırlatmaq istəyirəm.

...Fişerəqədərki şahmatla Fişerdənsonrakı şahmat bir-birindən o qədər fərqlənir ki, bunu yalnız maliyyə baxımından deyil, siyasət, prestij, mentalitet, rejim və ideologiya baxımlarından dəyərləndirmək lazımdır.

Fişer sıradan idman növünü, çox da populyar olmayan stolüstü bu oyunu intellekt, zəka, elm və sənət göstəricisi olan idman növləri içərisində ayrı bir yeri və dəyəri olan fenomenə çevirə bildi. Şıltaqlıq sayılan tələblər, pul-para tələbləri, işıqlandırma, səs-filan arqumentlər bəhanədən başqa bir şey deyildi.

**Fişerin özünəqədərki və özündənsonrakı şahmatçılara münasibəti yalnız şahmat nəzəriyyəsi baxımından deyil və insan fəlsəfəsi və gözlənilməz baxış bucağı mənasında əhəmiyyətlidir.** Rus şahmatçılarını "donuz sürüsü" adlandıran M.Botvinnikə onun baxışları elə idi ki, sanki can verirdi. Taymanova böyük hesabla qalib gəldikdən sonra "sən yaxşısı budur ki get pianinonu çal" deməsi özündən sonra yetişən nəslin nümayəndələri Karpov və Kasparovu uşaq-muşaq adlandıraraq qətiyyən ciddiyə almaması, dünya çempionu, tülkü kimi oynayıb rəqibini qəddarlıqla ilan kimi çalan Petrosyanın liftdə üzünü görməməsi üçün qaldığı mərtəbəni dəyişməsi onun münasibət sisteminin fraqmentləridir.

...Zaman keçdikcə mənim yuxularımla xatirələrim, xəyallarım bir-birinə qarışır və onların sərhədlərinin bir-birinə qarışması mənim real və irreal dünyamı bütünləşdirir. Bəzən nəyin olduğunu, nəyin olmadığını kəsdirə bilmirəm. Yox, bu, qocalıq marazımı deyil. Şüurun və alt şüurun müstəviyə - düzləmə gəlməsi gerçəkliklə gerçəklik olmayanın qaynayıb qarışmasıdır. Dənizdəki dalğalar kimi. O dalğalar ki, bəzən üst-üstə gəlib daha güclü bir dalğa olurlar və ya bir-birini söndürüb, bir-birində də əriyirlər.

Fişerin parlaq zəkası yaşadığını qaldıra bilmədi. Əgər bu ağırlıq yalnız şahmat hesablamaları ilə bağlı olsaydı, bəlkə də hər şey öz qaydasında olacaqdı. Təəssüf ki, sosial qanunlar, hakim ideologiyalar, mənfəət mərkəzləri, mafiyalar, məişət təfərrüatları Fişerin daşıdığı missiya yolundan ayırır, ona bədənin çəkə bilmədiyi məşəqqət verirdi.

**Dünya çempionu olandan bir qədər sonra Fişer gecələr tək-tənha gəzməyi çox sevirdi.** Ona gecə vəhşisi deyirdilər. Amma o, uzun tənha gecələr Fişerə eşq macəraları üçün, kef-əyləncə məclisləri üçün deyil, bəlkə tarixdə bilinməyən debüt üçün, bəlkə də sirli bir mittelşpil üçün, bəlkə də sonucunu heç kimsənin bilmədiyi endşpil üçün lazımdır. Onun kəşf etdiyi yeni şahmat saatı şahmat dünyası üçün böyük bir kəşf oldu. Şahmatçılar təsadüf və seytnot xofundan əsasən qurtula bildilər. Şahmata yeni enerji və nəzəri zənginlik gətirən Fişer şahmat modernizmi ilə postmodernizmini birləşdirdi. Onlar arasında ən qısa məsafəni tapmağı bacardı.

Bent Larsenin dediyi "Mən Bobbinin parlaq kombinasiyaları qarşısında baş əyirəm". M.Taymanovun "Mən Fişerin qurbanıyam", V.Steynitsin söylədiyi "Hətta Allah ilk gediş etsə də Fişer udacaq" sözlərinə və bu kimi onlarca dəyərləndirmələrə Fişerin çox sadə bir cavabı var: "Mən psixologiyaya deyil, düzgün gedişlərə inanıram". Burada dahi yazıçı Vladimir Nabokovun bir sözünü xatırlamaq yerinə düşərdi: "Anormal şahmatçının olmasından anormal bir şey ola bilməz ki, bu da normaldır". Dəliliklə dahilik arasında çırpınan yalnız fanatik - biçarə Fişer gözəl bilirdi ki, şahmat kombinasiyaları kainatdakı atomlar qədər sonsuzdur. İndiki bilgisayarlar yüzlərlə, minlərlə şahmat hesablamalarını bir neçə saniyə ərzində hesablaya bilir. Bilgisayar oynanmış oyunların ən gözəl və ən sürətli hesablayıcısıdır. Yeni yarım gediş belə bilgisayarı məğlubiyyətə uğradır. Çünki bilgisayar insan beynini yaratmayıb, insan beyni bilgisayarı yaradıb və onu öz beyninə oxşadaraq cihaza ən yüksək sürət verib.

**Bu mənada bilgisayar insanı uda bilməz. Fişer bunu gözəl bilirdi. Ona görə də o, sonralar Kasparovun, Karpovun ucuz oyunlarına getmədi. O, taleyinin ardınca getdi və taleyinin də qurbanı oldu.**

"Ya Allahın Rəsulu, sən yaşayanda da gözəl idin, indi də gözəlsən. Sən öldün. Bir daha ölməyəcəksən". Bu kəlam Həzrəti Əbubəkirin Peyğəmbərimizin (s.a.v.) ölümündən sonra söylədiyi ilk sözdür. Mən bu kəlamı çox sevirəm və Fişerə aid olsa da, olmasa da ölməyənlər sırasındakı insanlara rəhmət oxuyuram.

Məşhur dilçi-qlossematik L.Yelmslev yazır ki, əslində dil özü də oyundan başqa bir şey deyildir.

Allahu-təala buyurmuşdur ki, mən gizli bir xəzinəyəm. Bu xəzinəni öyrənmək üçün insanı yaratdım.

**P.S.** 10-12 il bundan öncə Fişerdən yazdım, indi də yazdım. Ömür vəfa etsə gələcəkdə "Mənim Fişerim" adlı assosiativ roman yazmağı düşünürəm. Allah deyən və Allah bilən olacaq.

**...Fişer adlı zaman bitdi.**

2014-cü ilin içindəyik, XXI əsr hələ bitməyib. Bu əsrin bitməsi üçün zaman yeni ad lazımdır. O ad hələ yoxdur. Olacaqmı?!

Şahmatla məkanın üst-üstə düşdüyü 64 rəqəmi üzərində çox dayanmaq istəmirəm. 64-ün də mütləq olması iddiasında deyiləm. Mütləq olan yalnız Allahdır. Qalan hər şey nisbidir. Amma elə nisbiliklər var ki, onlar mütləqə sonsuzluq qədər yaxındır. Həqiqət haqqında o müstəvidə qoy onlar düşünsün. Biz bir az Yer və Yer həqiqətləri haqqında danışmağa çalışaq.

Bəziləri deməyi xoşlayırlar ki, Sovet hökuməti dağıldı. Əla, tibbi-bioloji baxımdan bizim gizlədiyimiz qanaxmalar var ki, onlar daxildə baş verir və heç vaxt üzə çıxmır.

Hər şeyin öz adı var. XX əsrin adının nə olduğunu bilmək üçün mövcud açarlardan biri, bəlkə birincisi Robert Fişer, ya da sadəcə Bobbi Fişerdi.

Ədəbiyyat müəllimim rəhmətlik Qabil Hacıyevin səhər-səhər Fişer haqqında yeni xəbər gətirən qəzeti əlləri titrəyə-titrəyə necə oxuduğunu, məktəbdə, əyalətin mərkəzi Çinar dibində sönmək bilməyən mübahisələri xatırlamaya bilmirəm.

**Sonralar Moskva və Peterburqda Karpov, Kasparov matçını 20 gün canlı seyr edəndə mərhum dostum Tahir Aslan acı-acı gülümsəyib "Şahmatı Fişer özü ilə apardı. Bizim baxdığımız kabusdur" - dedi. Haqlı sözə nə deyəsən?**

Elə bir həddə gəlib yetişdi ki, Fişer virtual-sanal dünya ilə gerçək dünya arasındakı sərhədləri yavaş-yavaş itirməyə başladı. Həyat oyundurmu, oyun həyatdırmı, dilemması onu həyata da, şahmata da küsdürdü. O, hər şeydən iyrəndi. Dünyalar qədər ona əziz və doğma olan anasını, atasını, sevgilisini hər cür dünya nəsnəsinə, əyləncələrini əvəz edən və onu 64 xanaya yerləşmiş dünyası 64 yaşın içinə gömüldü. Böyük adamlar ölmür. Onlar qeyb olurlar. Allah onları gizlin aparır. Dünya Fişersiz qaldı və şəxsən mən açığı indi şahmat üzrə dünya çempionu kimin olduğunu bilmirəm. Heç bilmək də istəmirəm.

Bütün dahilər əslində uşaqdırlar. Uşaq olmaq özü dahi olmaq deməkdir. Fitrət və fövqəladəlik deməkdir. 64 yaşında şahmatın son xanəsində kimsəsizlik içində canını Allaha tapşıranda da o, uşaq idi.

Yaşlı Fişer çoxdan ölmüşdü. Reykyavikdən sonra təsəlli edən əsrarəngiz dünya çempionu Rober Fişer deyil, balaca sarışın Bobbi idi. Dünyanın qəribə işləri var. O, şahmata vurulduqca və onunla bütünləşdikcə dünya da kiçilib-kiçilib 8X8 olduqca inanırsan ki, dünya elə bu qədər imiş. Allah süfrə kimi önünü açmışmış. Sonra dünya genişlənə-genişlənə sonsuzluğa qovuşmuşdur.

Biz bundan artığını bilmişik. Heç Fişerin də bildiyini zənn etmirəm. Bildiyimiz odur ki, hər şey Allahın əlindədir. İstər bir yumruq boyda edər, istər bir süfrə qədər, istəsə də sonsuz, böyük və hüdudsuz.

Bir zərrənin içinə bir kainat yerləşə bilirsə yaradana şükür oxumaqdan başqa əlimizdən nə gəlir ki?

**Hərdən Fişer o Ulu Yaradana təşəkkür etmək istəyirdi. Qazandıqlarını Allah yolunda xərcləmək, onun xidmətində durmaq istəyirdi. Amma o, Ulu Yaradanı tapa bilmirdi ki, bilmirdi. Kilsələr, məzhəblər, şarlatanlar o balaca uşağı aldadıb əlindəkini alırdılar. Allahla Fişeri birləşdirən yeganə məkan-zaman şahmat idi.**

*(Ardı var)*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014



**Avqustun 21-də Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının "Münaqişələrin qarşısının alınması" mövzusunda açıq iclasında çıxış edib. Münaqişələrin qarşısının alınması konsepsiyası ilə beynəlxalq mübahisələrin dinc yolla tənzimlənməsi prinsipi arasında sıx qarşılıqlı əlaqə olduğunu vurğulayan Azərbaycan səfiri qeyd edib ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə, hər hansı dövlət beynəlxalq öhdəliklərini yerinə yetirmədiyi və başqa dövlətin ərazisini işğal etmək üçün hərbi qüvvədən istifadə etdiyi hallarda təcavüz qurbanına özünü fərdi və ya kollektiv şəkildə müdafiə etmək hüququ verilir.**

# BMT tribunasından Qarabağ çağırışı

**Azərbaycanın daimi nümayəndəsi onu da xatırladıb ki, beynəlxalq hüquq nəinki münaqişənin qarşısının alınması və ya tənzimlənməsi üçün müəyyən nəticəyə nail olmağı, həm də və ilk növbədə, son nəticəyə nail olmazdan əvvəl konkret normalarla tam uzlaşan proses getməsini tələb edir.** Bu baxımdan vurğulanıb ki, münaqişələrin nizamlanması üzrə müvafiq mexanizmlərdən hüquqa açıq-aydın zidd olan və baş vermiş fakta əsaslanan qərarların təsbit olunması vasitəsi kimi istifadə edilə bilməz. Bu cür qərarları zorla qəbul etdirmək və ya təşviq etmək cəhdləri isə uğursuzluğa məhkumdur və bu cəhdlər möhkəm sülh, uzunmüddətli sabitlik üçün zəruri əsas yaratmağa əsla kömək etməyəcək.

**AzərTAc-ın məlumatına görə, Y.Əliyev təcavüzkar separatizm probleminə hərtərəfli beynəlxalq yanaşmanın zəruriliyini də qeyd edib.** Təhlükəsizlik Şurasının diqqəti onun qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini, münaqişələrin gedişində törədilmiş cinayətlərə görə məsuliyyət və cəzasızlığa qarşı mübarizə kimi mühüm məsələlərə baxılarkən prinsipial mövqe tutmağın vacibliyinə yönəldilib.

**Bundan sonra Ermənistanın daimi nümayəndəsi Zöhrab Mnatsakanyan çıxış edərək Azərbaycan tərəfin arqumentlərinə qarşı heç bir dəlil ilə təsdiqlənməyən standart ittihamlar irəli sürməyə cəhd göstərib.** Ermənistan səfirinin çıxışı zamanı Təhlükəsizlik Şurasının üzvlərinin və iclasın digər iştirakçılarının heyrətləndiklərini görmək çətin deyildi.

**Yaşar Əliyev cavab bəyanatı ilə çıxış edərək Ermənistan səfirinin beynəlxalq birliyi çaşdırmaq və öz dövlətinin ilhaqçı siyasətindən, Azərbaycan ərazisinin xeyli hissəsinin Ermənistan tərəfindən işğal edilməsi və etnik təmizləməyə məruz qalması faktından yayındırmaq üçün daha bir uğursuz cəhd göstərməsinə diqqəti cəlb edib.** Y.Əliyev çıxışının sonunda deyib: "Danışıqların gedişində Ermənistanın mövqeyinin qeyri-konstruktivliyi, onun mövcud status-kvo vəziyyətini saxlamaqda maraqlı olması, Madrid sülh planına riayət etməkdən boyun qaçırması, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən imtina etməsi, sərt etnik təmizləmə siyasəti, habelə bu yaxınlarda törətdiyi, sülh prosesinin pozulmasına yönəlmiş təhrikçi hərəkətləri - bütün bunlar beynəlxalq birlik tərəfindən Ermənistan barəsində ciddi sanksiyalar tətbiq edilməsi üçün ən mühüm əsasdır. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qalmaqda davam etməsi sülh prosesi üçün yenə də çox ciddi təhlükədir. Bununla əlaqədar, ilk növbədə Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Ermənistan bunu nə qədər tez etsə, regionda sülhü, sabitliyi və vəziyyətin proqnozlaşdırılan olmasını bir o qədər tez bərpa etmək mümkün olacaqdır".

****

**Politoloq Vəfa Quluzadə** BMT TŞ-dəki deyir ki, istənilən halda müzakirələr müsbət haldır: "Bu vaxta qədər müzakirə olmurdu, heç olmasa indi Qarabağ məsələsinə vaxt ayrılır. Amma hesab etmək lazımdır ki, Rusiyanın Cənubi Qafqazdakı destruktiv siyasəti aradan getməyənə qədər qəbul olunan heç bir qərar heç nə verməyəcək. Baxın, 4 qətnamə qəbul olunub, aradan on illər keçib, heç bir dəyişiklik yoxdur. Bu mənada növbəti qərarın yerinə yetiriləcəyi inandırıcı deyil. Fələstin məsələsi 60 ildən çoxdur davam edir".

### Fransanın erməni diversanta qayğısı

Bu arada Fransa hökuməti Azərbaycan hərbçiləri tərəfindən əsir götürülən Karen Petrosyanın ölümündən kədərləndiyini bəyan edib və onun ailəsinə səbr diləyib. Rəsmi Paris həmçinin erməni diversantın cəsədinin qaytarılmasını Azərbaycan hökumətindən tələb edib. "Biz Azərbaycan hökumətindən cəsədin qaytarılmasını və əsirin ölüm səbəbi haqqında məlumat verilməsini tələb edirik", - deyə Fransanın Xarici İşlər Nazirliyinin sözçüsü Romen Nadal bəyanatla çıxış edib.

**Qeyd edək ki, erməni əsir Karen Petrosyan avqust ayının 8-i Azərbaycan tərəfinə əsir düşmüşdü.** Bir gün sonra isə onun ürək çatışmazlığından öldüyü xəbəri yayılmışdı. Diqqətçəkən odur ki, Kəlbəcərdə öldürülən və Dağlıq Qarabağda dəfn olunduğu iddia edilən Cəbrayıl qaçqını Həsən Həsənovun cəsədinə, həmçinin indi də girov saxlanılan Dilqəm və Şahbazın qaytarılması məsələsinə münasibətdə biz eyni reaksiyanı görə bilmədik. V.Quluzadə ABŞ Dövlət Departamentinin ölən erməni diversanta görə bəyanat verməsindən sonra Fransanın da faktla bağlı narahatlıq ifadə etməsinə münasibət bildirdi: "Görünən budur ki, onlar erməni xalqını can-ciyər hesab edirlər. Fransızlar çox mədəni, demokratik millətdir. Amma 1915-ci ildə ermənilər ki, xaincəsinə türklərə qarşı çıxıb onları qırmağa başladılar. Bunun əvəzində də türklər deportasaiya etdi. Ermənilərin böyük bir qrupu Fransaya qaçdı. Bu zaman fransızlar onlara yalvaran erməniləri ağuşuna aldı, indiyədək himayə edir. Ancaq dünyada heç kəs ədalət axtarmır. Bizim çoxsaylı əsgərimiz və mülki şəxslərimiz əsir düşüb, meyiti qaytarılmayıb. Lakin heç kəs onların qayğısına qalmır". Sabiq dövlət müşaviri bir faktı da xatırlatdı: "1992-ci ildə bizim ordu ermənilər Ağdərədən vurub çıxaranda mən Parisdə səfərdə idim. Onda fransızlar deyirdilər ermənilər yazıqdırlar, onları vurub çıxartmayın. Mənim ayağımın altından yer qaçdı, dedim bəs biz yazıq deyilik, bizi qırırlar? Heydər Əliyevin Fransaya ilk görüşündə biz Fransua Mitteranın, daha sonra isə Şirakın ermənilərə necə simpatiya bəslədiyinin şahidi olduq. İslam fundamentalistlərindən çox danışırlar. Amma fakt budur ki, Avropada və Amerikada xristian təəssübkeşliyi var. İşğalçı ermənilərin dəstəklənməsi də burdan qaynaqlanır".



**Yaşar Əliyev:** "Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır"



**Vəfa Quluzadə:** "Avropada və Amerikada xristian təəssübkeşliyi var, işğalçının dəstəklənməsi də burdan qaynaqlanır"

****

Azərbaycanın baş nazirinin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bu mövzuda açıqlama verib. Azərbaycan Müdafiə Nazirliyi Ermənistan Müdafiə Nazirliyinə Azərbaycandakı 5 nəfərdən ibarət erməni ailəsi və bir erməninin meyitinin ermənilərin girovluğunda olan Şahbaz Quliyev və Dilqəm Əsgərovla, o cümlədən Həsən Həsənovun meyiti ilə dəyişdirilməsini təklif edib. APA-nın məlumatına görə, Ə.Həsənov bildirib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin əməkdaşları ilə mütəmadi görüşür, dünən də görüşərək bu məsələni müzakirə edib: "Bu məsələ ilə Müdafiə Nazirliyi, Əsir və Girovlarla İş üzrə Dövlət Komissiyası, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi mütəmadi məşğuldur. Dünən də mən Qızıl Xaç Komitəsinin əməkdaşları ilə görüşdüm. Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin üzvləri Azərbaycanın son təklifi ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin cavabını bizə çatdırdılar. Ermənistan Müdafiə Nazirliyi bildirib ki, bir erməni ailəsinin və bu yaxınlarda qəfil dünyasını dəyişmiş bir erməninin meyiti müqabilində yalnız Həsən Həsənovun meyitini qaytarmağa razıdırlar. Mən isə bizim bununla razılaşmadığımızı, girovlarımızın da azadlığa buraxılmasını istədiyimizi bildirdim". Ə. Həsənov qeyd edib ki, Azərbaycan hələ də təklifini qüvvədə saxlayır və cavab gözləyir.

**Ə.Həsənov onu da deyib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşündə quruma mövqeyi ilə bağlı sərt etirazını bildirib:** "Beynəlxalq Qızıl Xaç Komitəsi əsir və girovlarla bağlı müraciət edəndə Azərbaycan buna cavab verir. Ancaq Ermənistan tərəfi bu müraciətləri təmin etmir. Nə üçün Beynəlxalq Qızıl Xaç Komitəsinin baş qərargahı bu barədə dünya ictimaiyyətini məlumatlandırmır?"

### Füzuli və Cəbrayılın işğalından 21 il keçdi

Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarının Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalından 20 il ötür.

**Füzuli rayonu** 23 avqust 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal edilib. Ümumi sahəsi 139393 hektar olan Füzuli rayonunun qərb hissəsindən (50 kənd və rayon mərkəzi) 125368 hektar ərazi hələ də erməni işğalı altındadır. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd var. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilib. Hazırda ərazidə 51 min məcburi köçkün məskunlaşıb. 1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşüb, yüzlərlə rayon sakini şəhid olub, yaralanıb, itkin düşüb. Füzuli rayonu müharibədə 1100-dən çox şəhid verib, 1450 rayon sakini əlil olub.

**Cəbrayıl rayonu** uğrunda döyüşlərdə 180 nəfər həlak olub. 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişib, 90 nəfərə yaxın isə əsir və itkin düşüb. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın Qarabağ müharibəsi əlili statusu alıb, 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Ərazisi 1050 kvadrat kilometr olan Cəbrayılın Ermənistan Silahlı Qüvvələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb. Hazırda Cəbrayıl üzrə 351 nəfər şəhid ailəsi var. Cəbrayıldan olan 61100 məcburi köçkün 58 rayonda, daha çox isə Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıb.

### Qarabağdan qayıdan zabit: "Ərazilərimizin tam şəkildə azad olunmasını hamı səbirsizliklə gözləyir"

**Ehtiyatda olan polkovnik-leytenant, Füzuli uğrunda gedən döyüşlərin iştirakçısı Üzeyir Cəfərov** "Yeni Müsavat"a dedi ki, elə bir gün öncə Füzuli bölgəsində olub və vəziyyəti yaxından müşahidə etmək imkanı qazanıb: "İş elə gətirdi ki, bu ağrılı-acılı günlərin qeyd olunması ərəfəsində yenə o yerlərə baş çəkməli oldum. Bu, sırf təsadüfi bir səfər olsa da, xeyli yeni müşahidələr aparmaq imkanım oldu. Sözsüz ki, cəbhəyanı ərazilərimizdə yaşayan adamların sayı əvvəlki illərə nisbətdə xeyli artıb. Bu proses günü-gündən daha da artan xətt üzrə gedir. Vəziyyətin ən ağır dönəmində ordumuzun yanında olan yerli sakinlərdən bəziləri ilə yenə söhbət etmək imkanımız oldu. İnsanlar yenə ordumuzun gücünə və qüdrətinə arxalanıb, öz həyatlarını daha da genişləndirməyə, təsərrüfat işlərinin miqyasını artırmağa başlayıblar. Hər kəs bacardığı işdən yapışaraq gündəlik qayğıları ilə sabahını açır. Onlar ümid edirlər ki, tezliklə ərazilər düşmən tapdağından azad ediləcək və onlar normal həyatlarını davam etdirə biləcəklər. Yeni Füzuli rayonunun, eləcə də digər ərazilərimizin tam şəkildə azad olunmasını hamı səbirsizliklə gözləyir. Xüsusən də, avqustun əvvəllərində cəbhə bölgəsində baş verənlər sakinlər tərəfindən diqqətlə izlənilib və onlarda daha da çox optimist əhval-ruhiyyə yaradıb". Ü.Cəfərovun sözlərinə görə, ordu komandanlığında təmsil olunan zabitlərlə də xeyli söhbət edib: "Hamısı son vaxtlar orduda aparılan yeniliklərdən, müsbət dəyişikliklərdən danışırdılar. Əlbəttə ki, bunlar çox sevindiricidir. Yeganə narahatçılıq, müharibənin ən ağır vaxtlarında o qədər də normal vəziyyətdə olmayan rayonlar arası yolların hələ də müasir tələblərə cavab verməməsi məsələləri idi. Bu, təkcə Füzuli rayonuna aid olan deyil, həmçinin qonşu cəbhəyanı Beyləqan rayonuna da aid olan narahatedici haldır. İnanmaq istərdim ki, əlaqədar qurumlar vətəndaşlarımızın bu narahatçılığını da nəzərə alacaqlar. Səfər təəssüratlarımdan ən yadda qalanı da əsgər və zabitlərimizin səhra geyimlərində yeniliklərin tətbiq edilməsi idi". Keçmiş döyüşçü əmindir ki, ordumuz istənilən zaman düşməndən torpaqlarını azad etməyə əzmindədir.



# Yasaqlarla ölkə idarə olunmaz!

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Hökumət dəbdəbəli ehsanlara qadağa qoymağa hazırlaşır. Gələn xəbərlərə inansaq, bundan sonra yas məclislərində yemək verilməsi yasaq ediləcək, ancaq xurma-çay...**

Belə baxanda yaxşıdır. Toy-yas mərasimlərində (hələ qəbiristanlıqları demirik) israfçılıq Azərbaycandakı kimi heç bir ölkədə əndazəsini aşmayıb. Nə qonşu İranda, nə də Türkiyədə bu cür əcaibliklər, xeyir-şər mərasimindən bunca özünüreklam və təkəbbürlülük üçün istifadə eybəcərliyi yaşanmır - gedib-gələnlər bilir.

Belə vəziyyətin altını isə hampa ilə ayaqlaşmağa çalışan imkansız təbəqə çəkir. Bu mənada yasaq ən çox kasıb toplumun ürəyincə olacaq. Ancaq burada təhlükəli məqam dövlətdən ayrı olduğu deyilən din sahəsinə hakimiyyətin artan müdaxiləsi, öz "şərtlərini" burada da diktə eləmək istəyidir.

Kim zəmanət verə bilər ki, azadlıqlara deyil, qadağalara simpatiyası ilə seçilən YAP iqtidarı sabah, tutaq ki, namaz qılma qaydalarına da müdaxilə etməyəcək? Yada salaq, az öncə məscidlərə axundların necə və hansı mövzuda xütbə oxunması barədə "tövsiyələr" göndərilib, ölkədə azan səsi, orta məktəblərdə hicab yasaqlanıb.

Məsələ də ondadır ki, bu kimi problemləri indiyədək dini idarə ruhaniyyətlə əl-ələ verib cəmiyyəti maarifləndirmə və şəxsi nümunə hesabına yoluna qoymalı idi. Hərgah, o da var ki, necə? Əgər telekanallar savadlı ilahiyyatçıların üzünə qapalıdırsa, hansı normal maarifləndirmədən söhbət gedə bilər?

Beləcə, dairə qapanmış olur: hakimiyyətin bir yasağı (modern islamın təbliğinə yaratdığı əngəl) onun başqa bir yasağına (ehsanlara qadağa) yol açır, məqsədli şəkildə zəifləndilmiş cəmiyyətə isə kənardan çəpik çalmaqdan, "ura!" qışqırmaqdan savayı heç nə qalmır.

Demokratik ölkə ilə avtoritar rejimli ölkələrin mühüm bir fərqi də elə ondadır ki, birincidə azadlıqlar boldur, antidemokratik ölkələrdə isə - yasaq və məhdudiyyətlər. Digər fərqləndirici xüsusiyyət: demokratik dövlətin öz vətəndaşının şəxsi dünyasına, mülkiyyətinə müdaxiləsi minimumdursa və ya heç yoxdursa, avtoritar rejimli ölkələrdə əksinə, hakimiyyət az qala vətəndaşı yataq otağınadək izləyir ki, nə vaxtsa müstəqil fikir söyləyən həmin vətəndaşı şantaj edə, əzə, şərləyə bilsin.

Bu xüsusda qəti təəccüblü deyil ki, YAP hakimiyyəti azadlıqlar haqda yox, daim qadağalar, məhdudiyyətlər haqda düşünüb. 21 ildə qəbul edilən qanunlara, mövcud qanunlara isə edilən güzəştlərə ötəri nəzər salmaq yetər: tendensiya ildən-ildə təməl insan haqlarının, söz-ifadə azadlıqlarının kökünü daha dərindən qazmaq yönündə olub.

Bunun təzahürüdür ki, məsələn, indi müxalif düşərgənin təmsilçiləri tez-tez deyir ki, mərhum Heydər Əliyevin dönəmində Azərbaycanda demokratiya varmış. Doğrudan da, 2003-cü ilin payızınadək ölkədə indikindən qat-qat çox azadlıq mövcud idi, telekanallar müxalif fikrin üzünə açıq idi, dini maarifləndirmə imkanları babat idi. Pis-yaxşı paytaxtın mərkəzinə yaxın ərazilərdə mitinqlər, yürüşlər keçirmək problem olmazdı.

Əfsus ki, kasad azadlıqları da xalqa çox gördülər, qadağa qadağanın ardınca gəldi, qanunlar sərtləşdirildi, cərimələr fantastik həcmdə artırıldı, İnzibati Məcəllənin bir sıra maddələri Cinayət Məcəlləsinə "köç" elədi. Düzdür, mövcud rejim dönəmində məhdudiyyətin götürülməsi halı da olub. Ancaq o da azadlıqlar, demokratiya əleyhinə işləyib, yəni sırf hakim qüvvənin maraqlarına xidmət edib - Konstitusiyada bir nəfərin ardıcıl iki müddətdən artıq prezident olmasına qoyulan qadağanın götürülməsi kimi...

Nəticədə hamı qadağalardan sıxılır, havasızlıqdan boğulur. Azərbaycan özü boyda, açıq səma altında həbsxanaya dönüb. Çıxış yolu isə var - demokratiyanın qapılarını, pəncərələrini açmaq! Açın pəncərə-qapıları, qoy hamının ciyərlərinə təmiz azadlıq havası dolsun. Qadağalarla dövlət idarə edilməz, azadlıqlarla edilər! Dövlət azadlıqlarla basılmaz olar, yasaq-məhdudiyyətlərlə yox! Baxın, Qərb dövlətlərinə, dünyaya hökm edən ABŞ-a...

**Azadlıqları xalqa qaytarın, o özü öz problemini yoluna qoyacaq, o cümlədən toy-yas israfçılığını. Bir də axı hüzn mərasimində ehsana kim imkan verməyəcək - sahə müvəkkilimi? Bəs Avropa Məhkəməsi?**

# Abbas Abbasovun ermənilərlə qohum olması faktı üzə çıxdı

## Baş nazirin sabiq 1-ci müavininin qayınanasının erməni millətindən olmasına dair sənəd yayıldı; Aydın Abbasovu silahlı çeçenlər qoruyur...

**Avqustun 22-də saat 17 radələrində sırasında musavat.com olmaqla bir çox saytlara Abbas Abbasov və onun deputat oğlu Aydın Abbasovla bağlı sensasion sayıla biləcək ifşaedici materiallar göndərilib.**

Materialda Aydın Abbasovun nənəsinin erməni millətindən olması və özünə qeyri-azərbaycanlılardan ibarət mühafizə dəstəsi saxlaması vurğulanır.

Materialda qeyd olunur ki, Rusiya Azərbaycanlıları Federal Milli-Mədəni Muxtariyyətinin ("AzerRos"un) Ağsaqqallar Şurasının sədri, baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovun 1924-cü il Şəmkir rayonunun Borum kəndində doğulmuş erməni qaynanası Göharik Voskanovanın adı sonradan Gövhər olaraq dəyişdirilib və o, Gəncə şəhərində həyat yoldaşı Nobil Quluyevin yanında dəfn olunub.

**Redaksiyalara göndərilən materialda qeyd olunur ki, A.Abbasov Ermənistanla sıx biznes əlaqələrinə malikdir.** Həmçinin onun Rusiyada da ermənilərlə şərikli biznes obyektlərinin olduğu vurğulanır. Redaksiyaya göndərilən materialdan sitat: "Etibarlı mənbə tərəfindən verilən məlumata əsasən A.Abbasovun erməni qaynanası Göharik kürəkəni tərəfindən (baş nazirin birinci müavini olduqdan sonra) məcburən İmamzadədə "islam dinini" qəbul edib. Onun qaynanası vəfat etmədən öncə, erməni qohumlarının adlarını sadalayıb və Ermənistanda dəfn olunmağını vəsiyyət edib".

**Anonim mənbədən yayılan materialda o da bildirilir ki, Abbas Abbasovun həyat yoldaşı Bella Abbasova Nobilovna (Nobil qızı) Xarici Dillər Universitetində çalışır:** "Amma o, 1995-ci ildən sonra fəaliyyətini praktiki olaraq dayandırsa da, iş cədvəlinə uyğun olaraq maaş alır. On il ərzində isə o, qiyabi olaraq elmlər namizədi olub. Dosent adı alıb. Həmçinin Abbas Abbasov ermənilərlə qohumluğunu pərdələmək üçün həyat yoldaşının adını dəyişərək Bilqeyisə çevirib".





**Materialda Aydın Abbasovun nənəsinin dəfn mərasimi barədə də qeydlər var.** Bildirilir ki, islam qaydalarına uğun olaraq həyətdə 2 böyük çadır qurulsa da, yasda iştirak edənlər çox az olub: "Buna səbəb isə vəfat edənin erməni olmasıdır. Millət vəkili Aydın Abbasov isə nənəsinin hüzr yerinə tək qatılmayıb. Onu çeçen əsilli 4 mühafizəçi (silahlı) müşayiət edib. Mühafizəçilərindən biri Rusiya vətəndaşı Abiev Rüstəm Raqimoviç olub".

**Abbas Abbasovun ermənilərlə qohumluq əlaqələri haqda çoxdan söz-söhbət dolaşır.** Amma onun qayınanasının düşmən millətin nümayəndəsi olması haqda bu cür detallı bilgilər yox idi. Bu həqiqət Abbas Abbasov hazırkı iqtidara asi olandan sonra da yayılmadı. Əksinə, hazırda A.Abbasov Azərbaycan hakimiyyətini təhdid edən heç bir açıqlama vermir. "Milyarderlər İttifaqı" da fəaliyyətsizdir. Bəs bu cür qara texnologiya nədən indi üzə çıxdı? Təkcə A.Abbasovun qayınanasının ölümü bu həqiqətin ictimailəşməsinə səbəb ola bilməz. Mümkündür ki, Rusiya, Kreml yenidən Azərbaycan əleyhinə hansısa siyasi proseslərə start vermək ərəfəsindədir, ona görə də Moskvanın Bakıya qarşı əsas adamı sayılan A.Abbasovun qayınanasının erməni olması haqda həqiqət ictimailəşdirilib.

**Deputat Aydın Abbasovun çeçen millətindən olan mühafizəçiləri də maraqlı faktdır.** Abbasovların Çeçenistanın kriminal dairələri ilə əlaqələrinin olmasına dair indiyədək mətbuatda çox yazılıb. Hacı Məmmədov məsələsində də bu fakt bu və ya digər formada mediada getdi. Amma maraqlıdır ki, Azərbaycanın hüquq-mühafizə orqanları Abbasovların ətrafında silahlı çeçenlərin mövcudluğuna dözümlü yanaşır.

❑ **Musavat.com**

# Yanukoviçin ətrafı Azərbaycanda uşaqbazlıqla məşğul olmaqda suçlanır

## Oleq Lyaşko və Sergey Levoçkinin Azərbaycanda 14-15 yaşlı yeniyetmələrlə "könüllülük əsasında" müntəzəm cinsi əlaqəyə girdiyi iddia olunur; Baş Prokurorluq məlumatı araşdırır, hüquqşünas fakt təsdiqlənsə ukraynalı siyasətçiləri nə gözlədiyini açıqladı...

**Azərbaycan Baş Prokurorluğu Ukrayna prezidentliyinə keçmiş namizəd, Radikal Partiyanın lideri, deputat Oleq Lyaşkonu və keçmiş prezident Viktor Yanukoviçin administrasiyasının rəhbəri Sergey Levoçkini uşaqbazlıqda (pedofiliya) ittiham edir. Virtualaz.org saytı xəbər verir ki, bu sensasion məlumat foxtime.ru adlı Rusiya saytında yer alıb.**

Oleq Lyaşko gey kimi tanınır. Onun adı bir neçə dəfə pedofiliya qalmaqallarında hallanıb. Məlumatda isə deyilir ki, Ucar Rayon Prokurorluğu Ukrayna vətəndaşı Oleq Lyaşkoya qarşı pedofiliya ittihamı ilə istintaq aparır.

Cinayət işinin materiallarında deyilir ki, 18 mart 2009-cu ildən 10 oktyabr 2011-ci ilə qədər Ukrayna vətəndaşı O.Lyaşko yetkinlik yaşına çatmayan və yaşları 14-15 olan bir neçə yeniyetmə ilə "könüllülük əsasında" müntəzəm olaraq cinsi əlaqəyə girib. Nəticədə Azərbaycan Cinayət Məcəlləsinin 152-ci maddəsi ilə müəyyən olunan cinayəti törədib.

Cinayət işinin materiallarında o da deyilir ki, ukraynalı deputat xüsusi olaraq Azərbaycana uçub və burada ona həmin "xidmət" göstərilib. İşin təfərrüatlarını istintaq açıqlamır. Ancaq sayt iddia edir ki, Bakıdakı prokurorluq nümayəndələri Ukrayna siyasi elitasının digər nümayəndələrinin, o cümlədən Yanukoviç administrasiyasının rəhbəri Sergey Levoçkinin də müstəntiqlərin şübhəsi altına düşdüyünü deyib.



Oleq Lyaşko



Sergey Levoçkin

**S.Levoçkin Lyaşkonu siyasətə gətirən adam kimi tanınır.** İstintaqın ilkin nəticələrinin iki həftə sonra məlum olacağı bildirilir. Sayt xatırladır ki, Rusiyada da odioz və radikal mövqeyi ilə tanınan Lyaşkonun adı bu motivli bir neçə cinayət işində keçir. Belə ki, Krımda O.Lyaşkoya qarşı pedofiliya ittihamı ilə araşdırma aparılır. Müstəntiqlər deputatın 2012-ci ildə Krımdan istirahət adı altında Yaltadakı internatın 12 və 14 yaşlarında olan iki şagirdini Türkiyəyə aparmaq cəhdini araşdırır. Həmin vaxt aeroportun əməkdaşları Lyaşkonun uşaqları ölkədən çıxarmasına imkan verməyiblər.

O.Lyaşko qalmaqallı çıxışları ilə tanınan siyasətçidir, onun həmçinin qalmaqallı keçmişi var, keçmiş jurnalistdir. 1993-cü ildə iqtisadi cinayətlərdə və fırıldaqçılıqda ittiham olunaraq 6 il həbsə məhkum edilib.

İki ildən sonra amnistiya ilə azadlığa çıxıb. 2006-cı ildə Yuliya Timoşenkonun blokundan deputat seçilib. 2012-ci ildə majoritar dairədən ikinci dəfə deputat olub. O, özünü müxalifətçi kimi göstərsə də Yanukoviçin administrasiyasının rəhbəri ilə yaxın əlaqələrə malik olub.

Lakin Lyaşko Yanukoviçin devrilməsi ilə nəticələnən Maydan hərəkatının fəallarından biridir və keskin anti-Rusiya bəyanatları ilə tanınır. Lyaşkonun yaratdığı könüllülər batalyonu ölkənin şərqində Rusiya meyllli separatçılara qarşı döyüşlərdə iştirak edir.

Lyaşkonun adı öz ölkəsində birinci dəfə deyil ki, homoseksual və azyaşlılara meylli biri kimi hallanır. "Mavi" və "pedofil" imicinin yaradılmasına görə o, həmişə siyasi rəqiblərini ittiham edib. Bu günlərdə isə Ukrayna Ali Radasının dəhlizində Lyaşkonu döymüşdülər. Sergey Levoçkinə gəldikdə isə o, Ukraynanın ən zəngin adamlarından biridir. 2010-2014-cü illərdə V.Yanukoviçin administrasiyasının rəhbəri olub.

***

**Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov** "Yeni Müsavat"a bildirdi ki, Baş Prokurorluq tərəfindən müvafiq araşdırmalar aparılır. **Hüquqşünas Müzəffər Baxış** "Yeni Müsavat"a bu işlə bağlı hüquqi arayış verdi. Onun sözlərinə görə, bu fakt sübuta yetirilsə, ittiham olunan şəxslər barəsində cinayət işi başlana bilər.

M.Baxış qeyd etdi ki, hər bir halda Ukrayna öz vətəndaşlarını Azərbaycana verməyəcək: "Yalnız toplanmış istintaq materialları Ukraynana göndərilə bilər.

Bu halda istintaq hər iki ölkədə davam etməlidir. İttiham olunan şəxslər könüllü şəkildə Azərbaycana gələrsə, barəsində həbs-qətimkan tədbiri seçilə bilər".

**M.Baxış pedofiliya hərəkətləri sübuta yetirilmiş şəxsi ağır cəza gözlədiyini vurğuladı:** "Cinayət Məcəlləsinin 150-ci maddəsinə görə seksual zorakılıq hərəkətlərə yol vermiş, uşaqbazlıq etmiş şəxsi 3 ildən 5 ilədək həbs cəzası gözləyir. Əgər bir qrup şəxs əlbir olaraq mütəşəkkil dəstə şəklində xüsusi amansızlıqla bu cinayəti törədibsə onları 150.2 maddəsi ilə 5-8 il həbs gözləyir ki, bu da ağırlaşdırıcı haldır. Əgər 14 yaşına çatmamış şəxs bu cinayətə məruz qalıbsa, cinayəti törədən barəsində 150.3 maddəsi ilə 8-15 il həbs nəzərdə tutulur".

❑ **Emil SALAMOĞLU**

YENİ MÜSAVAT
N 211 (5920) 23 avqust 2014

# Cangüdənlərinin "başını yeyən" prezidentlər...

## İlginc cangüdən hekayələri, birinci şəxslərin fərqli qorunma taktikası...

**Məşhurların, xüsusən də siyasətçilərin, dövlət başçılarının həyatı hər zaman maraq mövzusu olub. Bunu isə onların yaxınlarından başqa mükəmməl bilən yoxdur. Sözügedən qisimdə daha çox cangüdənlərin adları hallanır. Məşhurları az qala bir köynək məsafədə qoruyan "şkaf kimi" adamlar...**

Amma onlar hər nə qədər maraqlı, gəlirli peşənin icraçıları olsalar da, həyatlarındakı sirlər bir o qədər çoxdur. Məsələn, qatı açılmayan cinayətlər kimi. 6 may 2014-cü ildə Venesuelanın paytaxtı Karakasda ölkə prezidenti Nikolas Maduronun cangüdənlərindən biri öldürülüb. Məlumata əsasən, cangüdən leytenant Marko Kortes mayın 4-də paytaxt rayonlarından birində qətlə yetirilib. Şəxsi avtomobili ilə hərəkət edən Kortesə onun yanından ötüb keçən avtomaşından atəş açılıb. Cinayətkarların məqsədi M.Kortesin avtomobilini ələ keçirmək olub. Qəzetin məlumatında deyilir ki, M.Kortes son altı ildir prezidentin şəxsi mühafizəsində çalışıb. Bunadək o, həmçinin N.Maduronun sələfi Uqo Çavesin də mühafizəçisi olub.

Bu il avqustun 20-də isə Özbəkistan prezidenti İslam Kərimovun mühafizə xidmətində çalışan snayper-cangüdən başına güllə sıxmaqla həyatına son qoyub. Bu, özbək xüsusi xidmət orqanları əməkdaşının özünə qəsd etməsinə dair ilk belə fakt deyil. Fərqanə vilayətində çalışan çekistlərin biri də bir neçə il qabaq xidməti "Makarov" tapançasından özünə atəş açmaqla intihar edib. Daha əvvəl isə Özbəkistan Daxili İşlər Nazirliyinin yüksək rütbəli əməkdaşı özünü güllələyib.

### Yaşı 35-dən aşağı, çəkisi 75-90 kilo...

Biz isə elə bu xəbərlərdən çıxış edib, prezident cangüdənləri ilə bağlı maraqlı bir gəzişmə etdik. Birincisi, ondan başlayaq ki, prezidentin şəxsi mühafizəsində işləmək asan məsələ deyil. Orada bir sıra keyfiyyətlər tələb olunur ki, onlara sahib olmalı, eyni zamanda isə psixofiziki hazırlığa yiyələnməlisən. Fiziki parametrlər də öz yerində. Cangüdən 35 yaşından yaşlı olmamalı, boyu ən azı 175, çəkisi isə 75-90 kilo olmalıdır. "Cangüdən olmaq istəyən şəxs daha öncə harada işləməlidir" sualına cavabda isə müəyyənləşib ki, bu iş üçün hərbi təcrübə vacibdir. Keçmiş əməliyyatçılar da prezident mühafizəsinə yaramır. Ekspertlər söyləyir ki, onlarda çoxlu zərərli, lazımsız vərdişlər formalaşdığı üçün bunu yeni işində istifadə edəcəyi ehtimalı da yüksəkdir.

Prezident cangüdəni ilk növbədə nəyi bacarmalıdır? Bu suala cavabda mütəxəssislər bildirib ki, o, ilk növbədə düşünməyi bacarmalıdır. Operativ psixologiya, təhlükəni öncədən duyma qabiliyyətinə malik olmalıdır. Karate, cüdo kimi idman növlərini bilməsi arzuolunandır, amma idmançı səviyyəsində yox. Şəxsi mühafizədə əl davaları vacib rol oynayır. Cangüdən mütləq 30-a yaxın hərbi fənd bilməlidir. Maşını ekstremal şəraitdə idarə etməyi bacarmaq, zəhərlərdən baş çıxarmaq da prezident cangüdəni üçün tələb edilən cəhətdir.

### Cangüdənlər "iynəyə oturur"

Prezident cangüdəni protokol qaydalarını, xarici dilləri bilməli, etiket qaydalarını mənimsəməlidirmi? Mükəmməl səviyyədə olmasa da, ingilis dilini bilməli, prezidentlə bərabər hərəkət edəcəyi üçün etiket qaydalarına bələd olmalıdır. Prezidenti qoruyursansa, öncə öz bədənini, ağlını, sağlamlığını qorumalısan. Bayırda şaxta varsa, cangüdən qat-qat, qalın paltar geyə bilməz. Çünki bu, onun aktiv hərəkət etməsinə maneçilik törədə bilər. Bundan başqa, yayın cırhacırında da tərləməmək, istidən təngnəfəs olmamaq cangüdənin ümdə vəzifəsidir.

Maraqlıdır, bəs buna necə nail olurlar? Məlumatlara görə, onların güclü olmasına bəzi preparatlar kömək edir. Onların yardımı ilə cangüdənin bədənindəki bəzi fizioloji proseslər daha da güclənir. Eşitmə, görmə qabiliyyəti daha da həssaslaşır, intuisiyası möhkəmlənir. Yeri gəlmişkən, prezident cangüdəninə siqaret çəkməyə icazə var. Çünki siqaret stressi aradan götürür. Amma bu, təbii ki, orqanizmi gücdən salır və son nəticədə cangüdən 35 yaşında təqaüdə göndərilir.

### Amerika prezidentləri cangüdən başı yeyənlərdir

Amma bir məqamı da qeyd etmək yerinə düşər ki, prezident mühafizəsində çalışmaq risk tələb edir. Məsələn, 1999-cu ildə təkcə Amerika prezidentinin məxfi xidmətində 31 əməkdaş qətlə yetirilib. 2003-cü ildə isə məxfi xidmət ölən və yaralananlarla bərabər 34 xəfiyyə itirib. Təbii ki, bu itkilərin detalları açıqlanmır.

Amerikanın keçmiş prezidenti Reyqanın şəxsi mühafizəsində çalışmış Con Barletta isə deyir ki, 21-ci əsr cangüdənlərinin işi çox çətindir. Belə ki, indi texnikanın imkanları kosmik sürətlə inkişaf etdiyindən zərbənin haradan gələcəyini proqnozlaşdırmaq da mümkün deyil: "İndi təkcə tapança, avtomat və ya snayperdən gələn təhlükə ilə iş bitmir. Təyyarə, raketdən açılacaq zərbə, jurnalist, narazı vətəndaş qiyafəsində prezidentə yaxınlaşa biləcək şikayətçi... Bunların hamısını düşünəndə cangüdən dinc həyatı ancaq yuxusunda görə bilər".

ABŞ prezidentinin kortejində 100 ədəd zirehli maşın var. Cangüdən xidmətində isə 150-yə yaxın əməkdaş. Barak Obama və ailəsi sutkada 24 saat dişlərinə qədər silahlanmış Məxfi Xidmət əməkdaşları tərəfindən qorunur. Məxfi Xidmət Beynəlxalq Təhlükəsizlik Departamentinin bir qolu sayılır ki, onlar da prezidentləri və prezidentliyə namizədləri qoruyurlar. B.Obamanın "Limuzin"i xüsusi olaraq bütün mühafizə elementləri ilə təchiz olunub. Bu maşını vətəndaş tankı da adlandıranlar var. Bundan başqa, qaradərili prezidentin əynində güllə keçirməz palto da var. Eyni paltodan Kolumbiya və Venesuela prezidentləri geyinir.

Britaniya kraliçası Yelizavetanı isə 100 nəfər cangüdən qoruyur ki, onların böyük əksəriyyətini də snayperlər təşkil edir. İngiltərənin baş nazirinin eskortunda isə bir maşın, 10-a yaxın cangüdən var. İtaliyanın qalmaqallı baş naziri Berluskonini isə 10 maşın, 20-yə yaxın cangüdən müşayiət edir. Fransa prezidenti Sarkozidə də vəziyyət bənzərdir. Onu da 20-40 nəfər cangüdən 7-10 maşınla qoruyur. Bu rəqəmlərin dəyişik olması ölkədəki durumdan da asılıdır. Ən gülməli mühafizə sistemi isə Finlandiyanın baş naziri Vanxanenə məxsus olub. 2 nəfər cangüdən bir maşında.

Yumurta, mayonez, pomidor hücumları cangüdənlərin qorxulu röyası olub. İlk baxışda gülməli görünə biləcək bu "silahlar" nadir halda da olsa xarici səfərə gedən prezidentlərin başına bəla açır. Rusiya mətbuatına inansaq, Putin bir, Medvedev isə iki dəfə belə hücuma məruz qalıb. Amma cangüdənlər nə özlərini, nə də müdafiə etdikləri şəxsləri bu "silahdan" qoruya bilir. Amma son vaxtlar bu sayaq hücumları zərərsizləşdirmək, məsələn, onların ləkəsini saxlamayacaq geyimlər tapmaq prezident mühafizələrində ən aktual mövzudur. Artıq bununla bağlı lazımi addımlar da atılır.

### Oliqarxlar prezidentlərdən daha səxavətlidir

Yaltada bir neçə il öncə keçirilən cangüdənlərin 4-cü çempionatında isə onlar mediaya birinci şəxslər və oliqarxların mühafizəsindəki fərqlərdən danışıb. Onlar bildiriblər ki, siyasətçilərin, ölkə rəhbərlərinin cangüdənliyini etmək oliqarxlarla işləməkdən daha asandır. Çünki siyasətçilər oliqarxlardan daha intizamlıdırlar və məsləhətə də qulaq asırlar. Bu mənada biznesmenlərin də maraqlı iş ortağı olduğu deyildir. Onlar da öz çeviklikləri ilə fərqləndikləri üçün cangüdənlərin sevimlisidir. Oliqarxlar qeyri-təvazökarlıqları və tez-tez əhval dəyişkənlikləri ilə fərqlənsələr də, siyasətçilərdən fərqli olaraq pul məsələsində daha səxavətlidirlər.

Cangüdənlərin 12 saatlıq iş rejimi olmalıdır. Əks halda onlar ayıq-sayıqlıqlarını saxlaya bilmək üçün psixoloji güc toplaya bilmirlər. Birinci şəxslərin, eləcə də VİP-in hər belə səfəri ciddi hazırlıq tələb edir. Öncə səfər olunacaq məkanda axtarış əməliyyatı aparılır, sonra həmin bölgə analiz edilir, ardınca səfər edəcək heyət ora yola düşür.

### Mükafat və töhmət alan cangüdənlər

Bu arada o da müəyyənləşib ki, birinci şəxslərin cangüdənləri çox tez bir zamanda hərbi rütbədə "yüksəklikləri fəth edir". Gizir mərtəbəsinə yüksələ biləcək cangüdən çox tez bir zamanda general olur. Onlar eyni zamanda sədaqətli qulluq faktına görə hökumətdən ev də alırlar.

Bununla yanaşı, çox qəribə səbəblərdən töhmət alan cangüdənlər də az deyil. Məsələn, Ukraynanın sabiq prezidenti Leonid Kuçma Xarkova səfərlərindən birində yaşadığı kuryoza görə cangüdəninə töhmət verdirib. Belə ki, Kuçmanın qalacağı oteldə cangüdən heyəti yoxlama aparıb, yeyəcəyi yeməkdən, geyinəcəyi paltara qədər hər şeyi nəzarətdən keçirib. Amma gecə prezidentin yatdığı yataq qırılıb. Buna görə də bütün heyət şiddətli töhmət alıb.

❑ Sevinc TELMANQIZI



# Biz avropalıyıqmı?



Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Bir alimimiz çox cəfalar çəkdi və sonda sübuta yetirdi ki, Avropanı Asiyadan ayıran xətt Bakının içindən keçir. Onun coğrafi kəşfindən belə məlum oldu ki, biz Biləcəridən o yana keçəndə, Binəqədinin "dörd yolunu" adlayanda Avropalı oluruq, geri dönəndə isə Asiyalı... Yəni Sumqayıtlılar tam hüquqlu avropalıdırlar, Bakıda yaşayanlar isə tipik Asiyalı sayılırlar. Bu qayda ilə Azərbaycanın ərazisinin 14 faizi Avropanın payına düşür, qalan 86 faiz isə Asiyanın... Bu coğrafi xəttə görə biz həm də Avropalı olmağa iddia edə bilərik...**

Sovet imperiyasının süqutundan az sonra artıq müstəqil dövlət kimi Avropa ailəsinə üzv dövlətlər sırasına qoşulmaq qayğısı üstümüzü aldı. Hətta 15 il əvvəl ölkənin müxalifəti də, iqtidarı da heç bir tərəddüd etmədən Qərbdən gələn şərtlərin altına imza atdılar... Yəni ki, hamı yek kəlmə söz verdi ki, daha bu gündən sonra Avropalı olacaq... 2000-ci ilin iyununda Azərbaycanın Avropa Şurasına üzvlüyü müzakirə ediləndə və 6 ay sonra 2001-ci ilin yanvarında biz onun tam hüquqlu üzvü olanda bir toy-bayram əhvalına bürünmüşdük... Hamıya elə gəlirdi ki, daha öz demokratiya payımıza qovuşmaqda yolumuz kəsən heç nə yoxdur.

**Bizim deputatlar dünyanın taleyini həll edən, ortaq həyat qanunlarını müzakirəyə çıxaranlarla bir sırada əyləşdilər. Səsləri saya salındı, biz də o tribunadan öz haqımızı dilə gətirdik...**

Yadınızdadırmı, cəmisi bircə il sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri AŞ PA-nın sədrinin müavinlərindən biri seçiləndə bunu necə tarixi qələbə saydıq. Əslində isə əlifba sırası ilə, altı aydan bir dəyişən, avropalılar üçün adidən-adi bir olay idi. Biz isə bunu məhz Azərbaycanın qısa müddət ərzində sayılıb-seçilməyi kimi qələmə verdik... Sonra bizim əvəzolunmaz deputatımız Səməd Seyidov rəyasət kürsüsünə dəvət olunanda bunu növbəti tarixi uğurumuz kimi qələmə vermək heç kimin yadına düşmədi...

İllər keçdi, aylar ötdü, gerçəkdən avropalı olmaq məsələsi ortaya qoyulanda vəziyyət xeyli qəlizləşdi. Günahsız insanlar zindana atılanda və onların azadlığı tələbi ortaya qoyulanda yaxamızı qırağa çəkdik ki, biz asiyalıyıq... Dinimiz də, dilimiz də, məişətimiz də asiya sayağıdır...

**Amma neftimizi, qazımızı satanda, necə deyərlər para qazananda, israrla sübuta yetirmək istədik ki, büsbütün, tərtəmiz avropalıyıq. Bax beləcə Avropada qazanıb, onun verdiyi bütün imtiyazlardan bəhrələnib, asiyasayağı dövran sürmək yeni şakərimiz oldu...**

Dara düşəndə, demokratiya tələbi ilə üz-üzə qalanda yaxamızı qırağa çəkdik ki, suveren, balanslaşmış siyasət yürüdürük ki, dost-düşmən qazanmayaq, hamının bizə baxanda könlü xoş olsun... Amma onlar əllərini bizdən üzmədilər - "Şərq tərəfdaşlığı proqramına" dəvət etdilər, yarıkönül razılaşdıq, Avropa ilə assosiativ sazişə qoşulmaq üçün minnətçi düşdülər - yaxamızı onların əlinə vermədik... Beləliklə bir ayağı Asiyada, o biri ayağı Avropada olan qeyri-müəyyən bir topluma döndük...

Bizdən fərqli olaraq, Gürcüstan, Moldova, Ukrayna çox da çək-çevir etmədən Qərbə üz tutdular. İndi dildə Avropa dəyərlərini bölüşən, əməldə isə tipik Şərq mentalitetinə söykənən insanlarıq...

Bəlkə də sıravi Azərbaycanlı üçün demokratiya qədər yad söz yoxdur... Hansısa icra başçısı bir allah bəndəsinin halal pulunu qatlayıb cibinə qoyur, sonra da onu körpüdən çıxıb, intihar etməyə məcbur edirsə, buna adidən adi bir hal kimi yanaşırıq... Rüşvət verməyə, əvəzində heç nəyə nail olmamağa öyrəncəli olduğumuzdan baxıb-gülürük... Təsəvvür edirsinizmi, körpünün ən uca yerinə çıxıb, dərdini bu ölkəni idarə edənlərə çatdırmaq istəyənin aqibəti necə olacaq? Pulunu qaytaracaqlarmı? O icra başçısına gözün üstə qaşın var deyən olacaqmı? Belə şeylər asiyalının adına yaraşmaz, avropalının isə bu üsulla varlanmaq yadına da düşməz...

Mentalitet əsiriyik... Bütün pisliklərə Asiyalı kimi haqq qazandırırıq, kiminsə günahsız yerə həbsxanaya atıldığını dilə gətirəndə, azadlıq tələb edəndə isə kinə, nifrətə hədəf olan avropalıya dönürük...

**Beləcə, bir ayağımız Avropada, o biri ayağımız Asiyada dövran sürürük. Sərf edəndə avropalı, etməyəndə isə asiyalı olmağın da üstünlüyü bax budur. Elə buna görə də dünyada analoqumuz, yəni oxşarımız yoxdur...**

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**


# Dəbdəbəli yas mərasimlərinə qadağa qoyuldu, bəs toylara?

## **Zahid Oruc:** "Toylarımızı son dərəcə yığcam və süni rəqabətdən kənar görmək istəyirəm"

**Azərbaycanda uzun illərdir davam edən israfçı yas mərasimlərinə dövlət tərəfindən son qoyuldu. Artıq hökumət yas mərasimlərində həddən artıq israfçılığa səbəb olan ehsan süfrələri adətini ləğv etməyə qərar verib.**







Qeyd edək ki, yas mərasimləri ilə yanaşı toylarda da həddindən artıq israfçılığa, təmtərağa yol verilir. Ölkəmizdə toy mərasimləri əvvəllər qədim ənənələrə söykənsə də, son illər üçün bunu demək mümkün deyil. Bugünkü toylar sanki insanların şənlik mərasimi əvəzinə, bir yarış meydanına çevrilib və artıq toylarımız şounu xatırladır. Bəzən evlənən cütlüklər sadə bir mərasim istəsələr də, valideynlərin "qonşudan geri qalmamaq" fikri qalib gəlir. Elçiliklə başlayıb toya qədər davam edən mərasimlər böyük məbləğdə vəsaitin xərclənməsinə başa gəlir. Nəticədə isə bir qrup məhz bu mərasimlər hesabına qazancını artırır. Belə ki, toy mərasimləri hazırda qazanc gətirən bir sahə olduğuna görə, ölkədə şadlıq evlərinin də sayı getdikcə artır. Bu gün hamıya bəllidir ki, toya gələn qonaqlar toy sahibləri üçün müəyyən qədər pul yazdırırlar. Siyahıya yazılan məbləğ əslində yeni evlənənlərə çatmalıdır. Bu pulla yeni ailə quranlar heç olmasa, öz evləri üçün çatışmayan nələrisə ala və ya bal ayına çıxa bilərlər. Amma belə şəraitdə bu pullar şadlıq sarayının sahibinə verilməli olur. Ən böyük bəla isə toylarda süfrələrdəki israfçılıqdır. Toyda stolun üstünə çeşid-çeşid yeməklər və digər təamlar düzülür və müqayisələr başlayır. Hər kəs öz toyunda digərlərində gördüklərini tətbiq etməyə çalışır. Nəticə isə ortadadır. Hamı toyların bugünkü vəziyyətindən narazıdır. Müzakirəyə gələndə hamı qoşulur. Toylara az adamın çağırılması, yeməyin normada verilməsi gündəmə gətirilir. Amma heç kəs dəyişikliyə doğru addımı özü atmaq istəmir. Dünyanın bir çox ölkələrində toylarla bağlı müəyyən qaydalar tərtib edilib. Məsələn, Tacikistanda toy kartejindəki maşınların sayı ilə bağlı rəqəm müəyyənləşdirilib. Toyda verilən yeməklərin və qonaqların sayı da qanunla tənzimlənir. Onu da bildirək ki, toylarda yol verilən israfçılıq, toy sahibinin və ya toya gələnlərin borca düşməsi kimi hallar İslamda bəyənilməyən əməllərdir. Qeyd edilir ki, toyun keçirilməsində məqsəd yeni ailə quran gənclərin bu izdivacını ətrafdakılara elan etmək, onların şad gününə şərik olmaqdır. Ancaq bu gün keçirilən toylarda yol verilən israfçılıq, içki, həddən-ziyadə dəbdəbədə İslamın əsas prinsiplərinə ziddir və ona heç bir aidiyyəti yoxdur.

**Deputat Zahid Orucun** sözlərinə görə, illərdir parlament üzvləri tərəfindən müraciətlər edilir ki, toylarda həm israfçılıq, həm də ən yüksək səviyyədə olan səslərə qarşı ciddi hüquqi vasitələrlə təsir göstərilsin: "Toylarımız zamanında həqiqətən də iki şəxsin izdivacına xidmət edirdi və bu real xeyir mərasimi idi. Ancaq artıq on illərdir ki, süfrələrə qoyulan yeməklərin təkrar dövriyyəyə qaytarılması, yüksək səs təzyiqləri altında mənəvi ölüm, fiziki əzab və eyni zamanda insanların həmin mərasimlərdən çox böyük ağrı, narahatçılıqla çıxması ilə nəticələnir. Paralel olaraq da toylarda yeməklərin az qala sunamisi səpələnir. Bu yeməklərin sanitar ekoloji tərəfi də var. Hamı bilir ki, bu şəkildə saxlanan yeməklər heç bir halda keyfiyyətli ola bilməz. Çünki tərkib dəyişikliklərinə uğrayacaqdı. Biz heç bir ölkədə bunları görə bilmərik. Bu hal şadlıq evlərinin sanki bir inhisarıdır, biznesidir. Mən çox mötəbər insanlar tanıyıram ki, toy zamanı səslərdən gileyləndikləri halda özləri övladlarının qərarına qarşı çıxa bilməyiblər və öz uşaqlarının toyunda həmin səs, yeməklərin israfçılığı yaşanıb. Həmçinin vətəndaşların sanki bir qınağı baş verir ki, filankəsin toyu çox sakit, yeməklərin azlığı ilə keçdi. Halbuki, məqsəd iki gəncin qovuşmasıdır və insanların da ona xeyir dua verməsidir. Ona görə də mən toylarımızı son dərəcə yığcam və süni rəqabətdən kənar görmək istəyirəm. Qanun bıçaqlanan ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktdır. Toylar təkrarlanan ictimai münasibətdir. Yəni burada qanunun predmeti ola biləcək hadisələr var. Amma bir sıra məsələləri sadəcə hüquqi normalarla deyil, cəmiyyətin öz iradəsinə buraxmaqla yoluna qoymaq mövqeyi tutulur. Ona görə də parlamentdə də belə bir düşüncə hakim kəsilir ki, adamlara hansısa yeməklərin çeşidini illərlə gözlədiyi xeyir mərasiminə çıxartma deyə bir öhdəlik qoyulmasın. Hər kəs bunu fərdi olaraq müəyyənləşdirsin. Ancaq toyların menyüsündən görünür ki, sərt bir qadağa rejimi tətbiq etmək gərəkdir, şadlıq evləri epidemiya kimi məktəbləri və məscidləri üstələməsin. Bu gün cəmiyyətdə öndə olan mövqe sahiblərinin bu cür xeyir mərasimlərinin ciddi, müəyyən bir dar çərçivədə keçirilməsi vasitəsi ilə bu nümunələri yaratmaq lazımdır. Necə deyərlər mənəvi mexanizmləri daha da önə çıxarmaq, nəinki, Pyotrın vaxtında olan o şallaq sistemini. Bəzən çox sərt bir şəkildə cəmiyyətin üstünə gedəndə o əks effekt verir. Buna görə də qanun qəbul olunmadı. Mənfi haldır ki, insanlar dəvətnamə alanda sevinmək hissini artıq itiriblər. Dünyanın hər yerində bu cür mərasimlər daha fərqli, xərcsiz keçirilir. Müsəlman aləmində isə xeyir mərasimləri insanların böyük bir maddi yükünə çevrilir. Ortada isə qazanan üçüncü tərəfdir".

❑ **Günel MANAFLI**




# Neft Fondunun Rusiya aktivləri dəyərsizləşir

## Samir Əliyev: "Əsas narahatçılıq Neft Fondunun rus banklarının donoruna çevrilməsinə vadar edilməsidir"

**2014-cü ilin I yarısında Rusiyanın VTB bankının mənfəəti ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,5 dəfə azalaraq 5 milyard rubl olub. Halbuki ekspertlər 10-15 milyard rubl mənfəət gözləyirdilər. Pis nəticəyə səbəb Qərbin sanksiyaları və Ukrayna böhranı göstərilir. Bu barədə Rusiyanın tanınmış "Vedomosti" qəzeti məlumat yayıb.**

Qəzetin yazdığına görə, bank faktiki olaraq ehtiyat ayırmalarını 2 dəfəyədək artıraraq 92,8 milyard rubla çatdırıb. Bununla da kredit portfelində problemli kreditlərin payı 4,7 faizdən 5,9 faizə yüksəlib. Qiymətli kağızlarla əməliyyatlardan əldə olunan gəlirlər 9,9 milyard rubla düşüb. Bankın bu əməliyyatlardan itkisi 3,2 milyard rubl olub.

VTB bankın fəaliyyəti Azərbaycanda son dövrlər xüsusilə diqqətlə izlənilir. VTB bank Azərbaycanda da fəaliyyət göstərir. Bundan başqa Dövlət Neft Fondu bu bankın səhmdarlarından biridir. Bankın düşdüyü situasiya Azərbaycana nə vəd edir?

**İqtisadçı-ekspert Samir Əliyev** "Yeni Müsavat" qəzetinə açıqlamasında mümkün təhlükələrlə bağlı fikirlərini bölüşüb. Onun sözlərinə görə, Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyaların mənfi təsiri Azərbaycandan yan ötməyəcək: "Bilirsiniz ki, Avropa Birliyi və ABŞ Rusiyanı sanksiyalar məngənəsinə salıb. Onlardan biri də bank sektoruna tətbiq edilən sanksiyadır. Avqustun 1-dən etibarən ölkənin 5 iri bankının, o cümlədən VTB bankın Avropa və ABŞ bazarlarına çıxışı məhdudlaşdırılıb. Sanksiyanın nəticəsi olaraq bu bankların və onların törəmə qurumları Qərbdən 90 gündən çox olan müddətə borc və səhmdar kapitalı cəlb edə bilməyəcəklər. Adıçəkilən sanksiya Azərbaycanda fəaliyyət göstərən "Bank VTB (Azerbaijan)" ASC-yə də şamil edilir. VTB bankı Rusiyanın ikinci ən böyük bankıdır. Ancaq Azərbaycanda hələ ki böyük paya malik deyil. Bank sektorunda payı təxminən 1 faiz civarındadır. Ötən il bank üçün uğurlu olub, bu il çətin sınaq gözləyir".

**Ekspertə görə, Rusiyadakı VTB bankın mövcud durumu Neft Fondunun aktivlərinə mənfi təsir göstərir.** "Neft Fondu VTB bankın səhmdarlarından biridir. Fond ötən il 500 milyon dollar müqabilində bankda təxminən 2,95 faizlik paya malik olub. Baş verən sanksiyalar fonunda VTB bankının səhmlərinin ucuzlaşması Neft Fonduna zərərə salıb. Neft Fondu VTB Bankın səhmlərini alandan sonra onun dəyəri təxminən 5 faiz ucuzlaşıb. Təsəvvür edin, Fondun vaxtilə hər birini 4,1 rus qəpiyinə aldığı səhmlərin dəyəri hazırda bazarda 3,9 qəpiyə düşüb. Hətta bir müddət 3,7 qəpiyə qədər ucuzlaşmışdı. Bir tərəfdən səhm dəyərsizləşir, digər tərəfdən rubl ucuzlaşır. Səhmlər alınanda dolların məzənnəsi 31-32 rubl həddində idi. İndi isə 36,2 rubla yüksəlib. Rubl son 1 ildə təxminən 15 faiz, cari ildə 10 faiz ucuzlaşıb. Rusiya Mərkəzi Bankı valyuta üzrə rublun məzənnəsinin yuxarı həddini 43-ə qaldırıb. Deməli, rus valyutasının daha da ucuzlaşması realdır. İlkin qiymətləndirmələrə görə, Neft Fondunun VTB bankdakı səhmlərinə görə itkisi bugünkü tarixə 90 milyon dollar civarındadır. Bu zərərin getdikcə artmaq ehtimalı yüksəkdir",- deyən ekspertin fikrincə, Fondun zərəri bununla bitmir. Onun sözlərinə görə, ümumilikdə Fondun 1 milyard dollar dəyərində olan aktivləri hazırda sanksiyaların təsiri altındadır: "Fondun aktivlərində rus rublunun payı 1,3 faizdir. Yəni 16,3 milyard rubl həcmində vəsait ehtiyatlara daxil edilib. Rublun ucuzlaşması həmin vəsaitlərin də "əriməsinə" gətirib çıxarır. Vaxtilə həmin aktivlərin alınması 500 milyon dollar məbləğində vəsait yönəldilsə də bugünkü məzənnə ilə mübadilə etsək, təxminən 450 milyon dollar edər. Görünən odur ki, 1 milyard dollarlıq aktivin 14 faizi, yəni 140 milyon dolları sanksiyanın "yeminə" çevrilib. Sanksiyalar sərtləşdikcə rublun ucuzlaşması davam edəcək".



**Ekspert hesab edir ki, Neft Fondunun Rusiyaya investisiya yatırmaq siyasəti yanlış olub. Çünki Rusiya iqtisadiyyatı da Azərbaycanda olduğu kimi neftin dünya bazarındakı qiymətindən birbaşa asılıdır. Neftin ucuzlaşması Fondun Rusiyadakı aktivlərini də zərbə altında qoyur.** Daşınmaz əmlakı da nəzərə alsaq şimal qonşumuza yatırılmış vəsaitin məbləği 1,13 milyard dollara bərabərdir. Bu qədər vəsait hazırda təhlükə altındadır. Fondun diversifikasiya siyasəti təqdirə layiqdir, ancaq bu diversifikasiya neftdə asılı olmayan iqtisadiyyatları özünə cəlb etməlidir.

**S.Əliyev sonda Rusiya ilə bağlı narahatlıqlarının da dilə gətirdi: Sanksiyalar qonşumuzu yaman sıxıb. Maliyyə sektorunda çətinliklər qabarmağa başlayıb. Sanksiya tətbiq edilən 5 bankın bazar payı 50 faizdən çoxdur. Depozit və kredit qoyuluşu azalır, banklar resurs qıtlığı ilə üzləşirlər. Bunun nəticəsi olaraq kredit faizlərində artım müşahidə olunur. Neft Fondu Rusiya iqtisadiyyatına yatırımı dayandırmalıdır. Ən azı yaxın dövr üçün. Əsas narahatçılıq da Neft Fondunun yaxın gələcəkdə rus banklarının donoruna çevrilməsinə vadar edilməsidir.**

❑ **RÖYA**

# Olimpiya Stadionunun tikintisi sürətləndirilib

## Avropa Yay Oyunlarının keçiriləcəyi məkanın 2015-ci ilin fevralında hazır olması planlaşdırılır

**2015-ci ildə ölkəmizdə keçiriləcək I Avropa Yay Oyunlarına hazırlıqlar sürətlənib. Metronun "Koroğlu" stansiyası yaxınlığında 65 min nəfərlik Bakı Olimpiya Stadionunun tikintisində işlər intensivləşib.**

Olimpiya oyunları ilə bağlı Bakıda bir sıra iri idman qurğuları da inşa olunur. Həmin idman qurğuları arasında tennis üçün 22 min nəfərlik mərkəz, digər idman növləri üçün 15 min nəfərlik Bakı Çoxməqsədli Arenası, 12 min nəfərlik Milli Su İdman Növləri Mərkəzinin və digər qurğuların tikintisi sürətlənib. Həmçinin "Baku Cristall Hall", "Baku Expo Center" kimi qeyri-idman qurğularının da yarışların keçirilməsi üçün idmançıların ixtiyarına verilməsi mümkündür.

68 min tamaşaçı tutumlu Bakı Olimpiya Stadionunun tikintisi məqsədilə Türkiyənin "Tekfen İnşaat" şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) arasında 640 milyon ABŞ dolları dəyərində müqavilə imzalanıb. Müqavilə ilə layihənin müddəti 24 ay müəyyənləşdirilib. Stadionun tikintisinin 2015-ci ilin fevralın 28-nə qədər tamamlanması nəzərdə tutulub.

**Layihənin rəhbəri Cem İlgün** mətbuata açıqlamasında hazırda görülən işlərin böyük hissəsinin bitdiyini bildirib: "Müqaviləyə əsasən, layihəni 2015-ci ilin 28 fevral tarixində yekunlaşdırmalıyıq. Lakin I Avropa Oyunları 2015-ci ilin iyun ayında başlayacağı üçün biz stadionu fevralın 1-də təhvil verməyi planlaşdırmışıq. Həqiqətən belə bir işi yekunlaşdırmaqdan qürur duyuruq. Çünki 68 min izləyicini qəbul edə biləcək olimpiya stadionunun 24 ay ərzində yekunlaşması həqiqətən də son dərəcə önəmli hadisədir".

Olimpiya stadionunun tikinti prosesinin hansı səviyyədə olmasını müəyyən etmək üçün sözügedən əraziyə yollandıq. Tikinti işləri ilə əlaqədar ətraf toz-torpaq içində idi. Tikintinin yaxınlığından keçərkən mütləq əllərinizlə gözlərinizi bağlamalı olursunuz. Çünki Bakının küləyi bütün toz-torpağı ətrafa sovurur.

**Öyrəndik ki, əraziyə giriş qadağandır.** Hər hansı bir çəkiliş üçün öncədən icazə alınmalıdır. Amma buna baxmayaraq davam edən tikinti işlərini çəkə bildik. Ərazidə qızğın iş prosesi gedirdi. Hər kəs harasa tələsir, ağırtonnajlı yük maşınları gəlib-gedir. Həmin ağırtonnajlı maşınların üzərində "SOCAR" və "MSD Tikinti Quraşdırma" şirkətlərinin loqoları vardı.

**Axşam saatları olmasına baxmayaraq hər kəs iş başında idi və durmadan çalışırdı.**

Stadionun tikinti işlərini aparan Türkiyənin "Tekfen İnşaat" şirkətinin rəhbərinin dediyi "biz stadionu fevralın 1-də təhvil verməyi planlaşdırmışıq" sözləri boşuna deyilməyib. Verdikləri sözü tutmaq üçün maksimum sürətlə işləyirlər.

**Qeyd edək ki, 6 iyun 2011-ci il tarixində prezident İlham Əliyev, FİFA prezidenti Yozef Blatter və UEFA prezidenti Mişel Platininin iştirakı ilə nəhəng idman qurğusunun əsası qoyulub. Paytaxtda öz müasir tikinti üslubu ilə fərqlənəcək və xüsusi gözəlliyi ilə seçiləcək 65 min tamaşaçı yeri olan Bakı Olimpiya Stadionu bu tipli müasir idman qurğuları sırasında özünəməxsus yer tutacaq. Burada müxtəlif funksiyalı tribunaların, qaçış zolağının və digər infrastrukturun inşası nəzərdə tutulub. Azərbaycanda ilk dəfə olaraq olimpiya media mərkəzinin yaradılması da planlaşdırılıb. Daxili sahəsi 120830 kvadratmetr olacaq stadionda tikinti işləri Beynəlxalq Tikinti Standartına (İBC), UEFA və FİFA standartlarına və Azərbaycanın inşaat normativlərinə uyğun aparılacaq.**

**Onu da bildirək ki, sözügedən idman tədbiri üçün möhtəşəm açılış mərasimi hazırlanır.**

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**









YENİ MÜSAVAT

Son səhifə

N 211 (5920) 23 avqust 2014

# 70 yaşında rekord qırdı



Avstraliyada yaşayan Cyril Baldock 70 yaşında rekord qırıb. O, İngiltərədən Fransaya 12 saat 45 dəqiqəyə üzərək keçib. Baldock 1985-ci ildən bəri təkrarlanmayan rekordu 70 yaşında qıraraq bir anda məşhurlaşıb. "Üzməyin Everesti" adı verilən İngiltərə Fransa arasındakı dəniz yolunu üzərək keçən yaşlı kişi başda ailəsi olmaq üzrə ona dəstək verən hər kəsə təşəkkürünü bildirib. 73 yaşındakı İrene Keel adlı bir qadın isə bir neçə gün sonra C.Baldockla eyni yolu yenidən üzə biləcəyini deyib.



## Bakteriyalar psixologiyanı pozur

Amerikalı mütəxəssislərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, bağırsaqlardakı mikroblar fərqli qidalara ehtiyac duyurlar. Yəni bəzi mikroblar şirin qidalar, bəziləri isə yağlı qidalar tələb edə bilirlər. Öz ehtiyaclarını ödəmək istəyən bakteriyalar beyinə və sinir sisteminə siqnallar göndərərək orqanizmində olduğu insanı bəlli bir yeməyə yönləndirir və beləliklə insan psixologiyasına təsir edə bilir. Araşdırmanı aparan Atena Aktips bağırsaq mikroblarının insan psixologiyasına, zövqlərini, damaq zövqünə, hətta davranışlarına təsir etdiyini açıqlayıb. Məlumatlara görə, bəzi mikroblar insanın sinirlərini poza, hətta narahatlığını artıra bilir. Bəzi bakteriyaların orqanizmdən atılması kökəlmə riskini aradan qaldırır. Araşdırmanın nəticələri "Bioessays" jurnalında yayımlanıb.



## Özünü sevgilisinin sürdüyü qatarın altına atdı

Şotlandiyada yaşayan Gary Vels adlı kişi sevgilisindən ayrıldığı üçün qeyri-adi ölüm yolu seçib. Diana Macdonald adlı maşinist sevgilisindən 3 həftə əvvəl ayrılan kişi özünü onun idarə etdiyi qatarın altına atıb. 36 yaşlı kişinin intiharı hər kəsi şoka salıb.

29 yaşlı qadın sevgilisinin qatarın önünə atlayacağından xəbərsiz olduğunu, belə bir hadisənin baş verəcəyini belə düşünmədiyini deyib. Şotlandiyanın ilk maşinistlərindən olan qadının psixologiyası pozulub.

# Yaxşı qonşu infarkt riskini azaldır

Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, sosial çevrəsi ilə münasibətləri yaxşı olanların infarkt riski digərləri ilə müqayisədə daha azdır. "Epidemiology and Community Health" adlı jurnalda yayımlanan araşdırma yazısında bildirilir ki, yaşı 50-dən çox olan beş min amerikalı 4 il ərzində izlənilib. Araşdırma başlayarkən təcrübədə iştirak edən şəxslərlə danışılıb və sosial çevrələri ilə bağlı suallar verilib. 4 il sonra təcrübəçilərin ürək problemlərini yoxlayan Miçiqan Universitetinin mütəxəssisləri sosial münasibətləri yaxşı olan adamların infarkt riskinin daha az olduğunu deyiblər. Alimlərin sözlərinə görə, qonşuları ilə münasibətləri yaxşı olan insanlar daha çox şansa sahibdirlər. Belə ki, qonşuları ilə münasibətləri daha yaxşı olan tez-tez görüşüb, dərdləşirlər. Beləliklə, infarkt olma riskləri daha da azalır.





## Baş nazirin kompüteri oğurlandı

Belçikanın baş naziri Elio Di Ruponun kompüteri oğurlanıb. Hadisə bazar ertəsi günü Di Ruponun Avropa Birliyi Komissiyasının iclasından çıxarkən getdiyi idman salonunun özündə baş verib. Oğrular baş nazirin sürücüsü maşında olmadığı vaxt qapını açaraq içində önəmli sənədlərin olduğu kompüteri oğurlayıblar. Baş nazirin mediaya verdiyi açıqlamaya görə, kompüterdə krallıq ailəsi və ölkənin daxili işləri ilə bağlı önəmli, bir o qədər də gizli məlumatlar var. Üstəlik kompüterdəki məlumatları əldə etmək o qədər çətin deyil. Çünki şifrələri açmaq çox asandır.




**QOÇ** - Planetlərin bu yerdəyişməsi ərəfəsində səhhətinizi qorusanız, hansısa ciddi bir problemlə rastlaşmayacaqsınız. Əksinə, həsrətində olduğunuz bir neçə sevindirici məqamla üzləşəcəksiniz.

**BUĞA** - İkitərəfli əməkdaşlıq zəminində böyük uğurlara nail ola bilərsiniz. Bunun üçün təşəbbüskarlığı əldə saxlamalısınız. İşgüzar səfərlər də sizə böyük səmərə verəcək.

**ƏKİZLƏR** - Hər mənada ehtiyatlı olmalısınız. Ətrafınızda olan hər üç nəfərdən az qala ikisi əleyhinizə ola bilər. Yeganə uğurunuz maliyyə sahəsində ola bilər. Uzaq səfərə çıxmayın.

**XƏRÇƏNG** - Hamıya günahkar kimi baxmasanız, bu gün ulduzlar sizə saysız sevinc bəxş edəcək. İnsanları sevin ki, Tanrı da sizi sevsin. Nahardan sonra maliyyə ilə bağlı sövdələşmələriniz uğurlu ola bilər.

**ŞİR** - Astroloji göstəricilər oturaq fəaliyyətə ara verməyinizi tövsiyə edir. Daxili gərginliyinizi azaltmaq üçün bunun böyük əhəmiyyəti ola bilər. Mümkün qədər ürəyinizi qoruyun.

**QIZ** - Bürcünüzün bu ilk sutkasında ulduzlar şəxsi büdcənizin yaxşılaşmasına çalışacaq. Boş məsrəflərə xərc qoymayın və nəzərə alın ki, indi hamıdan şanslı sizsiniz. Perspektivli təkliflər də mümkündür.

**TƏRƏZİ** - Yalnız ailə-sevgi məsələlərində uğurlu məqamlarla rastlaşa bilərsiniz. Yaşca özünüzdən kiçiklərin qayğısına qalın. Pulla bağlı narahat olmayın, əmin olun ki, sizin vaxt da yetişər.

**ƏQRƏB** - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. Maraqlı təkliflər, perspektivli sövdələşmələr və xoş təsadüflər yolunuzu gözləyir. Təşəbbüskarlığı əldən verməyin.

**OXATAN** - İşgüzarlıq zəminində vəziyyət xeyrinizə cərəyan etdiyindən əzmkarlığınızı birə-beş qat artırmalısınız. Ulduzlar risk etməkdən çəkinməməyi məsləhət görür. Uzaq yola çıxmayın.

**OĞLAQ** - Bir tərəfdən qarşılıqlı münasibətlərdə gərginlik, digər tərəfdənsə bəzi cəhdlərinizin boşa çıxması ovqatınıza mənfi təsir edə bilər. Odur ki, saat 16-dan sonranı gözləyin.

**SUTÖKƏN** - Fəaliyyət zəminində ciddi dönüş astanasındasınız. Buna hər mənada hazır olun. Ulduzlar nahardan sonra maraqlı görüşlərdə iştirakınızdan xəbər verir. Sevgi məsələlərində güzəştə gedin.

**BALIQLAR** - Əsas vaxtınızı şəxsi büdcənizin artırılması istiqamətinə yönəltməlisiniz. Çünki bugünkü göstəricilər daha çox deyilən sahədə uğurlara yiyələnəcəyinizdən xəbər verir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Portağallı edam



Şimali Afrikada bir kəndli qeyri-adi yolla öldürülüb. İki nəfər mübahisə etdikləri kəndlini topladıqları portağallarla öldürüblər. Polis şöbəsindən verilən məlumatlara görə, adı açıqlanmayan kəndli qonşuları ilə mübahisə etdikdən sonra ölümə məhkum edilib. Qonşuları kəndlinin portağallarını bir-bir ona tərəf ataraq ölümünə səbəb olublar. Hadisə yerinə gələn polislər ölmüş kəndlinin üzərində heç bir iz tapa bilmədikləri üçün onu öldürənləri həbs etməyiblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.